# ZƏFƏR BAYRAMIMIZ MÜBARƏK!

Hər kəs ədalətli olacaq

www.adalet.az

# ƏDALƏT

Qurucusu: Adil Minbaşıyev | İctimai-siyasi, hüquq qəzeti | Qəzet 1990-cı ilin iyulundan çıxır | № 43 (6086) 8 noyabr 2024-cü il | Qiyməti 40 qəpik

## FATEH SULTAN MEHMET VƏ FATEH İLHAM ƏLİYEV



Bax:səh-2

## Vilayət Eyvazov sıra baxışı keçirdi



**Daxili işlər naziri general-polkovnik Vilayət Eyvazov noyabrın 7-də respublikanın şəhər, rayon polis orqanlarında sıravi və kiçik rəis heyəti vəzifələrində xidmət etmək arzusunda olan gənclərin növbəti sıra baxışını keçirib.**

Adalet.az xəbər verir ki, sıra baxışında Daxili İşlər Nazirliyinə onlayn qaydada müraciət etmiş gənclərdən daha hazırlıqlı olan 163 nəfər seçim turunun növbəti mərhələsinə buraxılıb ki, onlardan da 23 nəfəri Vətən müharibəsi iştirakçısıdır.

Gənclər qarşısında çıxış edən nazir V.Eyvazov seçim turunun digər mərhələlərindən də uğurla keçərək daxili işlər orqanlarında xidmətə qəbul ediləcək gənclərə gələcək fəaliyyətlərində uğurlar arzulayıb, tapşırıq və tövsiyələrini verib.

## *Məzahir Pənahov:* *"Tez bir zamanda seçki komissiyası formalaşdırılmalıdır"*



**Biz gərək tez bir zamanda dairə seçki komissiyalarını formalaşdıraq.**

Adalet.az-ın xəbərinə görə, bunu Mərkəzi Seçki Komissiyasının iclasında MSK sədri Məzahir Pənahov deyib.

"Onlar da məntəqə seçki komissiyalarına müvafiq tapşırıqlar versinlər.

Yeni seçilən üzvlər üçün maarifləndirmə proqramı həyata keçirək. Bu məsələlər vaxt aparan məsələdir. Müəyyən dövlət orqanları ilə razılaşdırmalara da ehtiyac var", - o qeyd edib.

## *Lavrov: "Rusiya Ermənistan və Azərbaycanı tələsik sülh sazişinə sövq etmir"*

**Rusiya tərəfi Ermənistan və Azərbaycanı tələsik sülh sazişi imzalamağa sövq etmir.**

Adalet.az Rusiya KİV-ə istinadən xəbər verir ki, bu barədə ölkənin xarici işlər naziri Sergey Lavrov bildirib.

"Azərbaycan-Ermənistan sülh prosesi çərçivəsində əldə edilmiş əhəmiyyətli irəliləyişi alqışlayırıq. Qərbin saxta vasitəçilərindən fərqli olaraq, tərəfdaşlarımızı tələsik sülh sazişi imzalamağa sövq etmirik", - S.Lavrov bildirib.

Onun sözlərinə görə, Rusiya Cənubi Qafqazda dayanıqlı sülh və sabitliyin bərqərar olmasında maraqlıdır.

## Hakan Fidan: "Ermənistan və Azərbaycan razılaşmaya yaxındır"



**Ermənistan və Azərbaycan razılaşmaya yaxındır. Adalet.az xəbər verir ki, bu barədə Türkiyənin xarici işlər naziri Hakan Fidan "Türkiyə" qəzetinə bildirib.**

Onun sözlərinə görə, Ankara sülh yolu ilə nizamlanmanı Cənubi Qafqazda sabitliyin mühüm amili hesab edir.

Xatırladaq ki, noyabrın 5-də Ermənistan Azərbaycandan sülh müqaviləsi ilə bağlı növbəti təkliflər paketi alıb. Ermənistanın baş naziri Nikol Paşinyan əvvəllər razılaşdırılmış məqamları imzalamağa və qalanları üzərində işləməyə hazır olduğunu bəyan edib.

## *Təcili tibbi yardım maşınları COP29 zolaqlarından istifadə edə biləcək*




**Təcili tibbi yardım maşınlarının COP29 zolaqları ilə hərəkəti nəzərdə tutulub.**

Adalet.az xəbər verir ki, bunu "Bakı Baş Səhiyyə Mərkəzi" publik hüquqi şəxsin direktoru Elçin Əmirov deyib.

O bildirib ki, COP29-la əlaqədar olaraq 50-dən çox təcili tibbi yardım briqadası yaradılıb.

## İsrailin müdafiə naziri vəzifəsindən azad edildi

**İsrailin Baş naziri Benyamin Netanyahu müdafiə naziri Yoav Galantı vəzifəsindən azad edib.**

Adalet.az xəbər verir ki, bu barədə Baş nazirin ofisi məlumat yayıb.

Xarici işlər naziri İsrael Katz müdafiə naziri, Gideon Saar isə xarici işlər naziri olacaq.

## GÜNÜN LƏTİFƏSİ





İki ağdamlı mübahisə edir. Üçüncü ağdamlı görür ki, mübahisədə vəziyyət gərginləşir, işə qarışır. Birindən soruşur ki, sən nə deyirsən, o da bildiyini deyir.

Üçüncü ağdamlı:

**- Sən düz deyirsən.**

Sonra o birindən soruşur, sən nə deyirsən, o da bildiyini deyir. Yenə üçüncü ağdamlı:

**- Sən də düz deyirsən. Amma Seyid Lazım ağanın cəddi haqqı, məsələ heç də sizin bildiyiniz kimi deyil. Məsələ belədir!**

Və başlayır öz bildiyini deməyə. Və mübahisənin də axırını ağdamlılar kimi bitirirlər, şillə, yumruq davası ilə.

## Prezident Müdafiə Nazirliyinin hərbi qulluqçularına ali hərbi rütbələr verdi



**Prezident İlham Əliyev Azərbaycan Respublikası Müdafiə Nazirliyinin hərbi qulluqçularına ali hərbi rütbələrin verilməsi haqqında sərəncam imzalayıb.**

Sərəncama əsasən, Azərbaycan Respublikası Müdafiə Nazirliyinin aşağıdakı hərbi qulluqçularına ali hərbi rütbələr verilib:

**"general-polkovnik" ali hərbi rütbəsi**
general-leytenant Hikmət İzzət oğlu Mirzəyevə

**"general-mayor" ali hərbi rütbəsi**
polkovnik Ələkbər Məhəmməd oğlu Cahangirova
polkovnik Gündüz Əliş oğlu Əbdülova
polkovnik Azər Əlövsət oğlu Qasımova

**"ədliyyə general-mayoru" ali hərbi rütbəsi**
ədliyyə polkovniki Elçin Nəriman oğlu Əliyevə.

## İlham Əliyev Böyükşor-Pirşağı yeni avtomobil yolunun açılışında iştirak etdi

**Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev noyabrın 7-də Böyükşor-Pirşağı yeni avtomobil yolunun açılışında iştirak edib.**

Azərbaycan Avtomobil Yolları Dövlət Agentliyinin İdarə Heyətinin sədri Saleh Məmmədov dövlətimizin başçısına görülən işlər barədə məlumat verdi.

Bildirildi ki, Böyükşor-Pirşağı yeni avtomobil yolunun uzunluğu 12,7 kilometrdir. Yeni yol başlanğıcını Balaxanı qəsəbəsinin ərazisindən (Böyükşor gölü) götürməklə Digah və Məmmədli qəsəbələrindən keçərək Kürdəxanı və Pirşağı qəsəbələrinə qədər uzanır.

Paytaxtda nəqliyyat axınının tənzimlənməsində böyük rol oynayacaq bu yol 1b texniki dərəcəyə uyğun olaraq ən müasir tələblər səviyyəsində inşa edilib və 6 hərəkət zolağından ibarətdir.

Layihəyə əsasən yolboyu 6 yol ötürücüsü və bir avtomobil keçidi inşa edilib. Bundan başqa, yolboyu 3 yerdə "U" tipli geri dönüş keçidi yaradılıb.

Həm nəqliyyat vasitələrinin, həm də piyadaların ərazidə rahat və təhlükəsiz hərəkətini təmin etmək üçün yeni piyada səkiləri salınıb.Yeni avtomobil yolunun hər iki istiqaməti üzrə velosiped zolaqları salınıb, yolboyu müasir işıqlandırma sistemi quraşdırılıb. Layihəyə uyğun olaraq, ayırıcı zolaqlarda və yol kənarlarında əlavə abadlıq işləri görülüb.

Bundan başqa, müasir tələblər nəzərə alınaraq yolun 3-cü kilometrində elektrik avtomobilləri üçün enerjidoldurma qurğuları quraşdırılıb.

Qeyd edək ki, Azərbaycan Prezidentinin Sərəncamına əsasən, Bakı şəhərinin perspektiv inkişafı nəzərə alınmaqla Böyükşor-Pirşağı avtomobil yolunun tikintisi Azərbaycan Avtomobil Yolları Dövlət Agentliyi tərəfindən icra olunub.

**Prezident İlham Əliyevin rəhbərliyi ilə ölkəmizdə həyata keçirilən sosialyönümlü siyasətin tərkib hissələrindən biri də müasir yol infrastrukturunun yaradılmasıdır. Son illərdə bu sahədə çox mühüm uğurlar əldə olunub və yeni layihələrin icrası davam etdirilir. Yol infrastrukturunun yenilənməsi ilə bağlı görülən işlər həm ölkə əhəmiyyətli yolları, həm də kənd yollarını əhatə edir. Bütün bu işlər bir daha sübut edir ki, ölkədə həyata keçirilən dövlət siyasətinin mərkəzində vətəndaşlarımızın rahatlığı və sosial vəziyyətinin yaxşılaşdırılması dayanır.**

*Aqil ABBAS*

# FATEH SULTAN MEHMET VƏ FATEH İLHAM ƏLİYEV

**Türkiyənin TRT-1 kanalında belə bir serial gedir, indiyədək 22 bölümü nümayiş etdirilib, adı: "Mehmet: Fetihlər Sultanı". O sultan Mehmet ki, Konstantinopolu fəth edib, Türkün və İslamın bayrağını bu şəhərə sancaraq adını dəyişib İstanbul qoyub. 600 ildir Türkün və İslamın bayrağı dünyanın paytaxtında, bəli, bəli, dünyanın paytaxtında dalğalanır.**

**Filmdə və tarixi əsərlərdə Sultan Mehmetin Konstantinopolu fəth edənə qədər çəkdiyi iztirablar öz əksini tapıb. Bütün gücü ilə sancaq bəyləri (yəni indiki dillə desək, qubernatorlar), hətta sədr-əzəm onu bu yoldan çəkindirməyə çalışırlar, yeniçərləri üsyan etdirirlər. Sultan Mehmet xəyanətin ortasında qalıb, amma səbr və təmkinlə bütün maneələri aradan qaldırır və aprelin 6-da hücum əmri verir.**

**Hətta Bizans imperatoru ağır toplarla silahlanmış gəmilərin boğaza girməməsi üçün dənizə zəncir atdırır, amma Sultan Mehmetin əsgərləri o gəmiləri quru yoldan daşıyaraq boğaza daxil ola bilirlər. Səhər Bizans imperatoru ayılır ki, gəmilər artıq Konstantinopolu mühasirəyə alıblar.**

**Nə isə, mən bütün filmi danışmaq istəmirəm, tarixi də sizə öyrətmək niyyətində deyiləm, filmə də baxa bilərsiz, tarix kitablarından da dəqiqliklə öyrənə bilərsiniz.**

**Mən bu filmə baxdıqca gözümün önünə Ali Baş Komandan, Cənab Prezident İlham Əliyev gəlirdi. Sultan Mehmetin Konstantinopolun fəthi ilə Cənab İlham Əliyevin Şuşanı azad eləməyində o qədər oxşarlıq gördüm ki.**

**Necə Sultan Mehmetin əsgərləri o ağır gəmiləri torpaqdan daşıyaraq boğaza saldıqları kimi İlham Əliyevin əsgərləri də ağır texnikanı, eləcə çiyinlərində daşıyaraq keçilməz meşələrdən, cığırlardan keçirərək Şuşaya aparıb çıxara bildilər. Bunu sənədli kadrlarda çox görmüsünüz. Sultan Mehmetin əsgərləri Konstantinopolun hasarlarına dırmaşdıqları kimi Cənab İlham Əliyevin əsgərləri də Şuşanın ətrafındakı sıldırımlardan eləcə dırmaşdılar və şəhərin içində ermənilərlə əlbəyaxa döyüşə girdilər və şəhəri azad etdilər. 30 ildən sonra Gövhər ağa məscidinin minarəsindən Azan səsləndirildi. Və Cənab İlham Əliyev müqəddəs bayrağımızı Şuşada qaldırdı. Ermənilərin Şuşi adlandırdığı şəhər yenidən öz qədim adına qovuşub Şuşa oldu. Son 200 ildə zəbt olunmuş torpaqlarımız məhz Ali Baş Komandan, Cənab Prezident İlham Əliyevin sərkərdəliyi ilə düşməndən azad oldu.**

**Necə ki İstanbulda 600 ildir Türk bayrağı dalğalanır, eləcə də Şuşada və Qarabağda min illər Azərbaycan bayrağı dalğalanacaq. Möhtərəm Prezident necə deyib: "Biz həmişə burda yaşamışıq, min illərlə də yaşayacağıq".**

**Əlbəttə, bu qələbə Cənab Prezident üçün də asan olmamışdı. Bizdə də İlham Əliyevi bu müharibədən çəkindirmək istəyən qüvvələr vardı, amma Cənab İlham Əliyev səbr və təmkinlə həmin qüvvələri sıradan çıxartdı, saraydan uzaqlaşdırdı. Apardığı islahatlar nəticəsində ordunu təmizlədi və bu təmizləmə müharibə getdiyi dövrdə də həyata keçirilirdi.**

**Çox qəribədir ki, o dövrdə Roma Papası Sultan Mehmetə məktub göndərir ki, fikrindən daşın, bütün xristian dünyası birləşib, sən bu müharibədə uduzacaqsan. Amma Sultan Mehmet bu hədələyici məktubdan qorxmur və fikrindən daşınmır.**

**Avropa dövlətləri də belə məktublarla və bəyanatlarla Ali Baş Komandana müraciət edirdilər ki, Qarabağda müharibəyə başlamaqdan çəkindirsinlər. Amma Cənab Ali Baş Komandan da Sultan Mehmet kimi onların məktub və bəyanatlarından çəkinmədi və onların bəyanatlarına Dəmir Yumruqla cavab verdi.**

**Uğurlu xarici siyasəti nəticəsində Ermənistana dayaq olan bəzi xarici qüvvələri zərərsizləşdirdi. Əsgərləri Qarabağda savaşarkən özü də 44 gün dünya mətbuatı ilə, dünya siyasəti ilə savaşdı. Hamı axşamlar kəsdirirdi televizorun önünü ki, Cənab Ali Baş Komandanın səsini və xoş xəbərlərini eşitsinlər. Düzdür, Müdafiə Nazirliyi qələbələrimizlə bağlı xəbərlər yayırdı, amma adamlar ən son məlumatları Cənab Ali Baş Komandandan eşitmək istəyirdi.**

**Bəzi jurnalistlər, Ermənistanı dəstəkləyən ölkələrin jurnalistləri, əlləm-qələm suallarla Cənab Ali Baş Komandanı çaşdırmaq istəsələr də Möhtərəm Prezident onları elə ustalıqla yerində oturdub susdururdu ki, valeh olmaya bilmirdin.**

**Liderlər, siyasətçilər şahmat oynamağı çox sevirlər, eləcə də Cənab İlham Əliyev.**

**Ən böyük siyasət şahmatçısı Ulu Öndər Heydər Əliyev idi. Şahmatla maraqlananlar bilir, qrossmeyestrlər 15-16-cı gedişi oyun başlamamış görə bilirlər. Və onu da şahmatçılar bilir ki, bir oyun 40-cı gedişdə adətən təxirə salınır. Heydər Əliyev dünyada yeganə şahmatçı idi ki, 40-cı gedişi gördü və 40-cı gedişdə oyunu təxirə saldı və 41-ci gedişi varisi İlham Əliyev üçün saxladı. İlham Əliyev 41, 42, 43 və 44-cü gediş edərək təkcə Ermənistanı deyil, dünyanın böyük dövlətlərini mat vəziyyətinə saldı. Çünki O, özü demişkən, nəyi nə vaxt deməyi və etməyi yaxşı bilirdi. Və 44-cü gedişlə 44 günlük müharibəni zəfərlə başa çatdırdı.**

**Və adını Sultan Mehmet kimi Türkün tarixinə qızıl hərflərlə yazdırdı.**

**Sultan Mehmet İstanbulu 53 günə azad etmişdisə, Cənab Ali Baş Komandan Qarabağı 44 günə azad etdi.**

**Mən Parlamentdəki çıxışlarımın birində bu barədə qısaca danışıb Cənab İlham Əliyevi Fateh adlandırmışdım. Kimlərsə "Fateh" sözü ilə razılaşmasa da, mən fikrimdə qalıram. Əgər türklər üçün Sultan Mehmet Fatehlər fatehidirsə, bizim üçün də Fatehlər fatehi Cənab Prezident İlham Əliyevdir. İlham Əliyevin Sultan Mehmetdən bir fərqi də vardı ki, onun yanında Mehriban xanım Əliyeva kimi bir güclü xanımı da vardı.**

**"Fateh" sözünü başqa yerə yozmayın, ərəbcədən Anadolu türkcəsinə belə tərcümə olunur: (fəth edən, böyük zəfərlər qazanan, qalib). İndi Cənab Ali Baş Komandan Azərbaycan tarixində ən böyük zəfəri qazandı. İndi Cənab İlham Əliyevə Fateh deməkdən niyə çəkinməliyik ki?**

**Və sonda. Əgər türk qardaşlarımız Fateh Sultan Mehmetdən gözəl bir serial çəkə bilirlərsə, bəs biz niyə Fateh İlham Əliyevdən bir film çəkməyək? Bacarıqlı ssenariçilərimiz də var və Oqtay Mirqasımov, Şeyx Əbdül, Elxan Cəfərov kimi də güclü rejissorlarımız var. Nəyi və niyə gözləyirik?**

**Tanrı Fateh İlham Əliyevi qorusun!**

**Tanrı həmişə Fateh İlham Əliyevin yanında olan xalqımızı qorusun!**

**Və Tanrı Şuşada əbədi dalğalanan müqəddəs bayrağımızı qorusun!**

## İranda bu xəttin Azərbaycana birləşdirilməsi təklif edildi

**İran hökumətinin dəstəyi ilə Ərdəbil dəmir yolu xəttinin Parsabad və Azərbaycanla birləşdirilməsi üçün zəmin hazırlamaq məqsədəuyğundur.**

Adalet.az xəbər verir ki, bu barədə Ərdəbil, Nir, Nəmin və Səreyn şəhərlərinin İran parlamentindəki təmsilçisi Əli Nikzad deyib.

"Astara dəmir yolu xəttinin Azərbaycanla birləşdirilməsi mümkün deyil, çünki bölgə ərazisi bataqlıqdır, ancaq Ərdəbil-Parsabad dəmir yolunun Azərbaycanla birləşdirilməsindən optimal şəkildə istifadə etmək olar və bu, Cənub-Şimal dəhlizinin canlanmasına töhfə verə bilər", - Nikzad bildirib.



**Onun sözlərinə görə, Ərdəbil dəmir yolu xəttinin tamamlanması üçün İran Prezidenti Məsud Pezeşkianla da danışıqlar aparılıb.**

# Tramp Baydenə baxanda əsl "sülh göyərçini"dir

## Prezidentlik dönəmlərinin müqayisəsi...

**Xəbər verdiyimiz kimi, Amerika Birləşmiş Ştatlarının 47-ci prezidenti Donald Tramp olub. Məlumata görə, Respublikaçıların prezidentliyə namizədi Donald Tramp nümayəndələrin 277 səsini alaraq, Amerika Birləşmiş Ştatlarının 47-ci prezidenti seçilib.**

Adalet.az xəbər verir ki, seçki nəticəsindən narazı qalanlar var.

Beləki, ABŞ-da Federal Təhqiqatlar Bürosu Donald Trampın prezident seçkilərində qalib gələcəyi təqdirdə insanları kütləvi şəkildə güllələyəcəyi ilə hədələyən şəxsi həbs edib. Bu barədə cinayət materialında deyilir:

"İsaak Sissel Miçiqan ştatının Kanton şəhərində həbs edilib. Hüquq-mühafizə orqanları onun mühafizəkar xristianlara Tramp tərəfdarlarının kütləvi şəkildə güllələnməsi ilə bağlı təhdidlər dərc etdiyini müəyyən ediblər.



Sissel keçmiş prezident Trampın seçkidə qalib gələcəyi təqdirdə hədəsini həyata keçirəcəyinə söz verib".

Qeyd edək ki, bəzi siyasətçi və politoloqlar düşünür ki, Tramp siyasətdə anidən qərar dəyişdirir və aqressiv olur. Bu isə ABŞ hökümətinin varlığı üçün qəbuledilməz haldır.

**P.S.** Bəzi siyasətçi və politoloqlara demək lazımdır ki, 46-cı president Co Bayden hakimiyyətə gələrkən bildirmişdi ki, münaqişə ocaqlarının sayını azaldacaq, dünyaya sülh gətirəcək. Amma gördüyünüz kimi, Co Baydenin hakimiyyəti dövründə xalqlar və dövlətlər araqsında ədavət daha da dərinləşdi, münaqişələr münaqişə sferasından çıxaraq müharibə dsiklinə dönüşdü. Dünyanın hər bucağında insan qanı axıdılır.

Trampın president olduğu əvvəlki illərə baxanda isə planetin həmin dövrdə vəziyyəti bundan qat-qat yaxşı olub.

Etiraz edən Co Baydenin prezident seçildiyi 2021-ci ildən üzü bəri baş verən müharibələri sayın. Xüsusən, saxta erməni uydurmasını " soyqırım"ı adlandırmasını da nəzərə alın və ermənilərə gedən yardımların miqdarına da baxın...

**Son olaraq, Co Bayden prezident seçilərkən kifayət qədər kasıb olub. ABŞ siyasətçiləri arasında tərtib edilmiş siyahıda 588 yerin 577-ci yerinə malik olub. Amma Donald Tramp vəzifəyə bir başa var-dövlətin içərisindən gəlib. Bunun özü də bir meyardır. Həm də erməni lobbisinin puluna tamah salmamaq qədər önəmli bir haldır.**

**Əntiqə Rəşid**

# Terrorçu Zurabişvilini üzr istəməyə çağırdı: «O,Cavax ermənilərini cəzalandırmağa çalışır»

**Xəbər verdiyimiz kimi 2 gün əvvəl Gürcüstan Prezidenti Salome Zurabişvili şəxsi Feysbuk səhifəsində turizm şirkətinin nəşrində Ermənistanın Lori bölgəsinə turlar təşkil edən şirkətin açıqlamasını paylaşdı. Beləki, şirkət noyabrın 10-da turistləri "Gürcüstanın tarixi regionu Lori"yə dəvət**





**edir və turistləri "mistik Böyük Gürcüstanı xatırlamağa və ona hörmət etməyə" çağırır:"Daha kədərli, lakin mütləq ziyarət edilməlidir... Tarixi Gürcüstan. Təəssüf ki, Loridə qalan unikal mədəniyyət. Gəlin əbədi, əsrarəngiz və böyük Gürcüstanı xatırlayaq və vəsf edək".**

Nəşrdə Axtala, Haqpat, Sənahin, Odzun monastırları təqdim olunur.

Əlbəttə ki, belə bir paylaşımın tam da dövlət başçısı tərəfindən təkrar paylaşması erməniləri hədsiz dərəcə də qəzəbləndirdi.

Adalet.az xəbər verir ki, Gürcüstan prezidentinin paylaşımı daha çox Gürcüstan vətəndaşı olan Vaaqn Çaxalyanı qəzəbləndirib. Vaaqn Çaxalyan "Hraparak" a müsahibəsində belə bəyanatların çox təhlükəli və təxribat xarakterli olduğunu bildirib . Onun sözlərinə görə, heç bir gürcü lider belə əsassız və eyni zamanda təhlükəli postla çıxış edə bilməzdi. "Əvvəllər ağıllı qadın təsiri bağışlayırdı, indi yeqin ki, ya qocalıb, ya da...

Ermənistan hakimiyyəti elə zəif vəziyyətə düşüb ki, hər kəs istədiyini elan edə bilər. Salome Fransa vətəndaşıdır, Nikol Paşinyan öz sevimli Fransasından soruşmalıdır ki, vətəndaşı Gürcüstanda nə edir, qardaş xalqlar arasında necə münaqişə yaradır. Fransa bu xanımı cilovlamalıdır.

İki xristian xalqı arasında paz çalmaq çox yanlışdır, əgər bunu erməni edirsə, dəməli sözügedən fiqur antiermənidir, gürcü bunu edirsə, o, sadecə olaraq gürcü maraqlarına əhəmiyyət vermir. Heç bir gürcüpərəst fiqur belə açıqlama verməz, mümkün deyil.

Ən azı bu baxımdan adekvat olan və belə bəyanatlar verməyən Ermənistanın hakimiyyət orqanlarına izzət və şərəfindən dərs almalıdır. Yeri gəlmişkən, Saakaşvili də belə bir bəyanatla çıxış edib, bu, birinci hal deyil. Onlar təxribat törətməyə çalışırlar. Salome Zurabişvili ermənilərdən olan "Abijnik"dir.

Ermənilər ona seçkilərdə çətinliklə səs verdikləri üçün indi Gürcüstan ermənilərini, Cavax ermənilərini cəzalandırmağa çalışır. Həmin qadın seçkilərdən sonra ermənilərə nifrət hissi keçirib və buna bənzər addımlarla münaqişə yaratmağa çalışır. Zurabişvilinin bu paylaşımının ermənilərin qəzəbinə səbəb olacağı aydındır.

O, ermənilərdən üzr istəməlidir. O, həmin postu öz səhifəsindən belə silmir. Salome Zurabişvili belə bəyanatlar verməkdə çətinlik çəkir, qoy o, Fransaya getsin, başqa iş tapsın", - Çaxalyan bildirib.

Qeyd edək ki, 2020-ci ilin oktyabrı idi. Ermənistan baş naziri Nikol Gürcüstanda ermənilərin keçirdiyi aksiyadan foto paylaşır və fotonun üzərində "Cavaxeti" əvəzinə "Cavax" (Javakhk) qeyd edir.

Bu isə həmin bölgədə yaşayan ermənilərin həmin ərazini adlandırığı isimdir. Onlar həmin əraziyə "Cavax" deyir və bu ərazini Ermənistan ərazisi hesab edirlər. Paşinyanın sosial şəbəkədəki bu paylaşımı sosial şəbəkələrdəki Gürcüstan vətəndaşları tərəfində ciddi narazılığa səbəb olub.

Onlar Paşinyanı Azərbaycana olduğu kimi, Gürcüstana qarşı ərazi iddialarında günahlandırıb.

***P.S.*** ***Deməsəm olmaz, Gürcüstan prezidentindən ermənilərdən üzr istəməyi tələb edən Vaaqn Çaxalyanı sizə xatırladım ki, onun nə qədər ikiüzlü, separatçı və səviyyəsiz olduğunu bilin.***

***Erməni separatçı hərəkatının rəhbərlərindən olan, 2020-ci ildə Qarabağda döyüşmüş Vaaqn Çaxalyan Qarabağda törətdiyi cinayət əməllərinə dair yerli və xarici kütləvi informasiya vasitələrində yayılmış çoxsaylı məlumatlar əsasında Azərbaycan Respublikası Baş Prokurorluğunda araşdırma aparılmış və fakta bağlı Cinayət Məcəlləsinin 100.2 (təcavüzkar müharibəni aparma), 114 (muzdluluq), 29, 120.2.1 (cinayətkar birlik-təşkilat tərəfindən qəsdən adam öldürməyə cəhd), 29, 120.2.4 (xüsusi amansızlıqla və ya ümumi təhlükəli üsulla qəsdən adam öldürməyə cəhd), 279.3-cü (qanunvericiliklə nəzərdə tutulmayan silahlı birləşmələri yaratma) və digər maddələri ilə cinayət işi başlanılmaqla istintaqın aparılması Baş Prokurorluğun İstintaq İdarəsinə tapşırılıb.***

***Vaaqn Çaxalyan 2019-cu ilin sonunda Ermənistan Respublikasının vətəndaşlığını qəbul edib, bu səbəbdən 2020-ci ilin əvvəllərində Gürcüstan həmin şəxsin vətəndaşlığına xitam verib.***

**Əntiqə Aslan**

## Parlamentin sədri: "Bu gün Qarabağda bərpa işləri yüksək səviyyədə aparılır"



**"Sabah xalqımız Zəfər Gününü qeyd edəcək. 4 il əvvəl Ali Baş Komandanın rəhbərliyi ilə torpaqlarımız işğaldan azad olunub. 44 gün ərzində Qarabağ torpağında yüksəldilən bayrağımızla Azərbaycan hüquqları bərpa edilib".**

Adalet.az xəbər verir ki, bunu Milli Məclisin plenar iclasında spiker Sahibə Qafarova deyib.

O Bildirib ki, ərazi bütövlüyümüzün təmin olunması ilə Ümumilli lider Heydər Əliyevin arzusu gerçəkləşib və Azərbaycan dövlətçiliyinin tarixində yeni dövr başlayıb.

"2023-cü ildə keçirilən bir günlük anti-terror əməliyyatı da hərb tariximizin yeni şanlı səhifəsini təşkil edib. Azərbaycanın suverenliyi bütün torpaqlarımızda bərpa edilib. Bu əməliyyat Şanlı Zəfərimizin məntiqi davamı kimi qeyd edilib".

S.Qafarova qeyd edib ki, hazırda bölgədə bütün manevələrə baxmayaraq davamlı sülh və sabitlik naminə Azərbaycanın irəli sürdüyü prinsiplər əsasında Ermənistanla danışıqlar davam etdirilir.

"Bu gün Qarabağ və Şərqi Zəngəzurda bərpa-quruculuq işləri ən yüksək səviyyədə aparılır. Prezident və xanımı davamlı ora gedib quruculuq işləri ilə tanış olur", - deyə S.Qafarova bildirib.

## "Müəllimlərin yaşadıqları yerdən uzaq məktəblərdə işləməsi problemdir"



**"Azərbaycanda orta məktəblərdə 150 mindən çox müəllim çalışır. Problemlərdən biri müəllimlərin yaşadıqları yerdən uzaq məktəblərdə işləməsidir. Məsələn, Yasamalda yaşayan müəllim 3 marşurut dəyişərək Pirşağıda dərs deməyə gedir".**

Adalet.az xəbər verir ki, bunu Milli Məclisin iclasında deputat Fazil Mustafa deyib. O bildirib ki, bunun mənəvi və fiziki yorğunluğunu təsəvvür etmək lazımdır:

"Bunu elə sistemləşdirməliyik ki, müəllim vaxtında məktəbə gələ bilsin. Müəllimin də ailəsi, sosial problemləri, ailəsinin qayğısı var. Bu, məktəbdə dərsin keyfiyyətinə də təsir göstərir. Müəllim işdən tələsik evə getməlidir ki, çata bilsin. Müəllimin bu vəziyyətini yüngülləşdirməyi vaxtında həll edə bilməsək, dərsin keyfiyyətinə təsir edən məsələlər gündəmdə qalacaq".

## "Elman Rüstəmov deyirdi ki, evlərdə 10 milyard dollara qədər vəsait saxlanılır"



**"Son illər 20-dən çox bank bağlanıb, ona görə də əhalinin banklara etimadı azalıb. Vaxtilə Elman Rüstəmov deyirdi ki, evlərdə 10 milyard dollara qədər vəsait saxlanılır".**

Adalet.az xəbər verir ki, bunu Milli Məclisin iclasında deputat Qüdrət Həsənquliyev deyib.

"Hansı tədbirlər görülməlidir ki, həmin pullar iqtisadiyyatımıza yatırılsın və vətəndaşların banklara inamı bərpa olunsun? Bu baxımdan, Mərkəzi Bankın üzərinə böyük işlər düşür və konkret addımlar atılmalıdır. Mən təklif edəndə ki, 2 milyard yerli banklara yerləşdirilsin, Elman Rüstəmov deмişdi ki, bizim iqtisadiyyatımız bu vəsaiti həzm edə bilməz", - deyə deputat bildirib.

Qeyd edək ki, Elman Rüstəmov 1995-2022-ci illərdə Azərbaycan Mərkəzi Bankının sədri olub.

**Nicat Novruzoğlu**



*Rüstəm Hacıyev*

## Tramp Ukrayna müharibəsini dayandıra bilərmi?

***Rusiya Federasiya şurasının beynəlxalq əlaqələr üzrə sədr müavini Vladimir Cabbarov məsələyə münasibət bildirərkən deyib ki, Vaşinqtonun irəli sürdüyü təşəbbüs hələ Rusita tərəfindən mütləq icra olunacaq demək deyil.***

***Daha əvvəl The Wall Street Journalı bildirmişdir ki, seçkilərdə qələbə qazanan Donald Tramp, Ukrayna müharibəsinin bitməsi planlarını müzakirə edir. Trampın komandasın ilkin zamanda "münaqişənin dondurulmasını", demilitasita zonasının müəyyənləşdirilməsini, Ukraynanın 20 il NATO-ya daxil olmayacağını və s. planlaşdırır.***

***"Amerikanların təklifini öyrənmək lazımdır. Hazırda 21-ci əsrdir və ABŞ-ın təklifləri ilə razılaşmaq, onu icra etmək kimi öhtəliyimiz yixdur. Hər bir ölkə, o cümlədən Rusiya, özünə hörmət edən dövlətdir. Biz yalnız maraqlarımlza xidmət edən qərarları qəbul edə bilərik.***

***Biz sülhün tərəfdarıyıq, lakin 20 il müddətunə münaqişənin dindurulması ilə razılaşa bilmərik. Biz istəmirik ki, 20 ildən sonra Ukrayna tərəfdən yeni ekssesələrlə üzləşək"- deyə Cabbarov bəyan edib.***

***Tramp, dəfələrlə bəyan edub ki, prezident seçilərsə, Rusiya -Ukrayna müharibəsini 24 saata, bir həftəyə, bir aya dayandıracaq. Təbii ki, həm Rusiya, həm də Ukrayna tərəfləri ABŞ-In yeni prezidentinin bəyanatını həddindın artıq optimist və yerinə yetirilməsinin mümkünsüz olduğunu bildiriblər. Çünki müharibənin datandırılması və sülh danışıqlarına başlanması üçün hər iki tərəf icrası mümkün olmayan şərtlər irəli sürürlər.***

***Ukrayna tərəfinin şərtləri, rus ordusunun Krlm da daxil olmaqla işğal etdikləri Ukrayna ərazilərindən çıxarılması, Ukraynanın ərazi bütövlüyünün bərpa olunmasından ibarətdir.***

***Rusiya tərəfi isə əksinə, Krım da daxil olmaqla işğal etdikləri vı artıq de-fakto "özəllişdirdikləri" Donbass, Luqansk, Xerson və Zaparojye vilayətlərinin Rusiyanın əraziləri kimi tanınmasını, Ukraynanın heç vaxt NATO-ya daxil olmayacağını bəyən etməsini tələb edir.***

***Görünən odur ki, hər iki tərəfin irəli sürdüyü şərtlərin qəbul olunması mümkünsüzdür. Yəni Tramp, bu məsələni həll etmək üçün "B" planı üzırundə işləməlidir.***

## *Alman aviasiyasının batırdığı "Ermənistan" gəmisi - 83 illik gizli tarix*



**Bu gün Rusiyanın Ermənistana sevgisini isbatlayan "Armeniya" gəmisinin batırılmasından 83 il ötür.**

Adalet.az xəbər verir ki, 1928-ci ildə Leninqradda "Ermənistan" sərnişin-yük termal gəmisi qurulub və elə həmin ildə də gəmi suya salınıb. 1941-ci il noyabrın 7-də içərisində bir neçə min yaralı döyüşçünün və təxliyə edilmiş vətəndaşların olduğu gəmi alman aviasiyası tərəfindən Krım yaxınlığında batırılıb. Məlumatlarda deyilir ki, gəmiçilik tarixində ən böyük dəniz fəlakətlərindən biri hesab edilən gəminin göyərtəsində təxminən 6-10 minə qədər insan olub.

Maraqlıdır ki, gəmi batırıldıqdan 79 il sonra Krımdan 15 km məsafədə 1,5 km dərinlikdə tapılıb. Onu tapmaq üçün 20 il vaxt və 300 kvadrat km ərazini araşdırmaq tələb olunurdu. Əməliyyatlardan birinə, 1985-ci ildə Titaniki və 1989-cu ildə Alman "Bismark" gəmisinin qalıqlarını aşkar edən məşhur Amerika okeanoqrafı Robert Ballard da cəlb edilmişdi.

2020-ci ilin mart ayında müntəzəm bir axtarış zamanı hidrolokatorla hərtərəfli araşdırıldı. Tədqiqat göstərdi ki, yerində, həqiqətən, dərinliklərdə nəsə bir obyekt var ki o da "Armenia"nı xatırladır.Tapılan gəminin "Armenia"olduğunu təsdiqləmək üçün sualtı qurğunun bir neçə dərinə enməsi lazım idi. Nəhayət gəminin adı gəmi üzərində də göründü.

**Əntiqə Rəşid**

# Ermənilərin sayı 3 milyon 633 min nəfərdir?: Bəs, ölkədən qaçanların sayı?

**Deyilənə görə, 1992-ci ilin əvvəlində guya Ermənistan əhalisinin sayı 3 milyon 633 min nəfər olub.**



Yəqin ki, xatırlayırsınız, həmin illərdə Azərbaycanla Ermənistan arasında güclü müharibə, ölüm-dirim savaşı gedirdi. Bundan bir neçə il əvvəl isə Ermənistanda çox güclü bir zəlzələ baş verir və 38.000 erməni ölür. Yəni , o böyük itkidən sonra Ermənistanda 1992-ci ildə müharibənin qızğın çağında belə rəqəmə sahib olması ziddiyyətlidir.

2020-ci ilin dördüncü rübündə, yəni 44 günlük müharibədən sonra isə əhalinin sayı 2 milyon 967 min nəfər təşkil etdiyi rəsmən deyildi.

Amma bu ilin İyunun 1-nə olan məlumata görə, Qarabağdan Ermənistana köçən 17743 nəfər erməni Ermənistanı hava və quru yolla tərk edib, Onlardan yalnız 7435 nəfər isə geri qayıdıb.Təxminən gedənlərdən 10308 nəfər geri qayıtmayıb.

Adalet.az Ermənistan Statistika Komitəsinin məlumatına istinadən xəbər verir ki, 2024-cü il oktyabrın 1-nə Ermənistanın daimi əhalisi 3 milyon 67 min nəfər təşkil edib.

Paytaxt əhalinin ən sıx məskunlaşdığı yerdir. İrəvanın 1 milyon 136 min nəfər əhalisi var. Ümumilikdə, Ermənistan əhalisi daha çox şəhər yerlərində cəmləşib - 1 milyon 976 nəfər.

Maraqlıdır ki,həmin komitə bir neçə il əvvəl SOS təbili çalırdı ki, faktiki olaraq müstəqillik qazandıqdan bəri Ermənistan əhalisi hər il azalır:"

Əgər 1991-ci ildə Ermənistanda 77 min uşaq doğulubsa, 2020-ci ildə yalnız 36 448 doğum qeydə alınıb. Ermənistanda bir çox ailənin ikinci övladı yoxdur".

**Amma Ermənistanın baş naziri bunuaprel ayında təkzib etdi "2023-cü ilin ilk dörd ayı ərzində Ermənistanda 11926 uşaq doğulub. Bu, 2022-ci ilin ilk dörd ayından 1401 uşaq, 2021-ci ilin ilk dörd ayından 532 uşaq, 2020-ci ilin ilk dörd ayından 1469 uşaq, 2019-cu ilin ilk dörd ayından 1415 uşaq, 2018-ci ilin ilk dörd ayından 1180 uşaq çoxdur".**

**Əntiqə Rəşid**

# Ukraynaya girən Şimali Koreya ordusu: Vyetnama girən ABŞ ordusunun aqibətindən fərqi olmayacaq

**Yəqin ki, tarixi faktlardan bilirsiniz yaxın keçmişdə bir Vyetnam müharibəsi olub.**

Mənbələr yazır ki,Vyetnam müharibəsi və ya İkinci Hind-Çin müharibəsi Şərq Bloku ölkələri Şimali Vyetnam, Çin və Sovet İttifaqı ilə ABŞ və ABŞ-ı dəstəkləyən anti-kommunist Cənubi Vyetnam arasında baş vermiş müharibədir. Bu müharibə, Koreya müharibəsindən sonra Soyuq müharibənin ikinci isti münaqişəsi idi. ABŞ isə 1963-1973-cü illər arasında müharibəyə daxil olmuş və 60 minə yaxın əsgərini itirmişdi. Bu savaş haqqında müxtəlif ölkələrdə müxtəlif səpkili filmlər çəkilib. Çoxuna baxmışıq. Filmin birinin adı yadımda qalmasa da epizodun biri heç yadımdan çıxmır. Vyetnamlıların pusqusuna düşmüş 10 ABŞ hərbçisi bu pusqudan sağ çıxmayacağını bilir və ölümqabağı peşmançılıq hisslərini gizlədə bilmirlər.

Hətta Demyan adlı əsgər ağlayır və onu bu ölkəyə gətirənlərə lənətlər oxuyur: "Axı mənim tanımadığım insanların ölkəsində nə işim vardı? Axı mən öz haqqını tələb edən dinc insanları niyə güllələyirdim? Tanrı bizi bağışlamayacaq! Tanrı bunun cəzası olaraq bizi cəhənnəmdə yandıracaq" .

Vyetnamlılar həqiqətən də 10 ABŞ hərbçisini xüsusi fıskırtılı alovla yandırdı və onları məhv etdi.

Çünki ABŞ ordusu müharibə zamanı işgəncələr, zorlamalar, kütləvi edamlar, mülki əhalinin öldürülməsi və kimyəvi silahdan istifadə kimi bir çox hərbi cinayətlər törətmişdi. çoxu Vyetnamın dinc əhalisi öldü, 3 milyon insan ölmüşdü. Təkcə zəhərlənmə nəticəsində 1,5 milyon vətəndaşını və ərazisinin üçdə birini itirməsinə baxmayaraq, Vyetnam eyniadlı müharibədən qalib ayrıldı.

Müharibədən sonra Vyetnamdan ölkəsinə qayıdan əsgərlərin əhəmiyyətli bir hissəsi intihar edərək düşmən gülləsi ilə deyil, öz əlləri



ilə həyatlarına son qoydu. ABŞ, həmçinin müharibə zamanı 10 minə yaxın təyyarə itirdi və onların əksəriyyəti zenit atəşi ilə vurulmuşdu. Buna qarşılıq olaraq, Şimali Vyetnamın təyyarə itkisi cəmi 150 idi.

Sanki tarix təkrarlanır indi də Kursk bölgəsində Şimali Koreyanın təxminən 10 min əsgərininolduğu qeyd edilir. Yaxın günlərdə döyüşə girə bilərlər.

Şimali Koreya hərbçilərinin artıq Ukrayna müdafiəçilərinə qarşı müharibədə iştirak etməsi artıq dünyanın diqqətindədir.

Hətta Ukrayna Prezidenti Vladimir Zelenski Kurskda artıq 11 min koreyalı hərbçinin olduğunu açıqlayıb: "Kursk vilayətində artıq 11 min nəfər var. Şimali koreyalıların sayının artdığını görürük".

**Ümid edirik, Tanrı öz halal haqqı üçün Rusiyaya qarşı döyüşən ukraynalıların yanında olacaq. 11 min koreyalını isə Vyetnama girən ABŞ ordusunun taleyi gözlədiyinə əminik. Qəsbkar heç vaxt cəzasız qalmır. O hegemon dövlət olsa belə!**

**Əntiqə Rəşid**

## *Qəzza zolağında ölən jurnalistlərin sayı dəhşət yaratdı*

**"Qəzza zolağında Fələstin-İsrail arasında hazırkı eskalasiya zamanı həlak olan media işçilərinin sayı 182 nəfərə çatıb".**

Adalet.az xəbər verir ki, bu barədə Bu barədə Qətərin Əl-Cəzirə telekanalı məlumat yayıb. "Qəzza zolağında davam edən soyqırımı işıqlandırmaq jurnalistlərə ciddi fiziki və psixoloji zərbə vurur. Bütün Qəzza zolağında jurnalistlər üçün vəziyyət inanılmaz dərəcədə çətin və təhlükəlidir", - deyə telekanal qeyd edir: "Söhbət bu soyqırım zamanı öldürülən 182 jurnalistdən gedir, onlardan bəziləri ailələri ilə birlikdə öldürülüb". Kanal iddia edir ki, mülki ərazilər və infrastruktur tez-tez hədəfə alınır və hərbi hava hücumlarına məruz qalır, bu da jurnalistlərin hadisələri təhlükəsiz şəkildə işıqlandırmasını çətinləşdirir.

Xatırladaq ki, ötən ay Beynəlxalq Jurnalistləri Müdafiə Komitəsi (CPJ) Yaxın Şərqdə yeni gərginliyin başlamasından bəri Qəzza zolağında 86 media işçisinin öldüyünü təsdiqləmişdi.

**Ə. Aslan**

## *"Ukrayna müharibəsində vəziyyət dəyişə bilər"*

**Reuters agentliyinin məlumatına görə, Macarıstanın xarici işlər naziri Peter Siyarto bəyan edib ki, Respublikaçılar partiyasının namizədi Donald Trampın ABŞ prezidenti seçilməsi, Ukrayna müharibəsndə dönüş yaratmaq imkanı verəcək.**



"Demək olar ki, min günə yaxındır davam edən müharibənin dayandırılması, Ukraynada nəyayət sülhə nail olunmadı üçün böyük şans yaranıb"- deyə Macarıstan XİN-nin rəhbəri bildirib.

Macarıstanın baş naziri Viktor Orban Donal Trampı böyük və dünyada sülh naminə qələbə münasibətiylə təbrik edib. Onun sözlərinə görə, "respublikaçıların namizədinin qələbəsi ABŞ siyasi tarixində böyük uğur sayılmalıdır".

**Rüstəm Hacıyev**

# Heykəli, büstü, "rayonu" olan Nərimanovun xatirə muzeyi - 52

**Bəzi tarixçi alimlərimiz israrla iddia edirlər ki, .yazıçı, həkim, maarifçi, ictimai xadim kimi qəbul olunan, siyasət və dövlət xadimi kimi birmənalı qiymətləndirilməyən Nəriman Nərimanov Azərbaycan xalqının xoşbəxtliyini görmək istəyən əsl vətənpərvər imiş. Guya məhz buna görə onu öldürüblər.**

Məsələn, N. Nərimanov irsinin dərin araşdırıcısı, "Nəriman Nərimanov - ideal və gerçəklik" kitabının müəllifi Firdovsiyyə Əhmədova ya görə, onun amalı Şərqin müstəmləkə boyunduruğundan azad olmasına nail olmaq, Azərbaycanın nümunəsində Şərq üçün ideal respublika modeli yaratmaq idi:" Xalq yolunda sadalandığından da artıq xidmətlərindən sonra niyə düşmənlərimizin millətçi deyə nifrət etdikləri Nərimanovu özünü milli hesab edənlərimiz qəbul etmək istəmir? Əsilzadə zümrəsinə mənsub olsa da maddi cəhətdən sıxıntılı həyat sürmüş Nərimanov bütün qayəsi ilə xalq adamı idi".









Maraqlıdır ki, "amalı Şərqin müstəmləkə boyunduruğundan azad olmasına nail olmaq " olan Nərimanovun zamanla etdiyi pisliklər bir-bir gün işığına çıxır.

2017-ci ildə Azərbaycan Xalq Cümhuriyyətinin (AXC) süqutunda xüsusi rolu olan Nəriman Nərimanovun tarixi xəyanətini təsdiqləyən sənəd üzə çıxdı.

Araşdırmaçı alim, Azərbaycan Xalq Cumhuriyyəti tarixinin bilicisi, Nəsiman Yaqublu yazır: " Nəriman Nərimanov, Məşədi Əzizbəyov, Əliheydər Qarayev, Bünyadzadə, Ağamalıoğlu, və s. hamısı demək olar ki, Rusiya bolşeviklərinin təsiri altına düşüb işğala imkan verdilər".

"Azərbaycan İnqilab Komitəsinin sədri Nəriman Nərimanov, hərbidəniz komissarı Əliheydər Qarayev və Komitənin katibi Qabriçidzenin 13 noyabr 1920-ci il noyabrın 20-də imzaladıqları əmrə əsasən, XI Ordunun dəmir yollarının mühafizəsi və müdafiəsi qüvvələrinin rəisi Mixail Qriqoryeviç Yefremov Bakının işğalına görə "Qırmızı bayraq" ordeni ilə təltif edilir.

Hələ siz Nərimanova olan bolşevik sevgisinə baxın: Görkəmli inqilabçı Lev Trotski Nərimanovun ölümü ilə bağlı demişdi: "Lenindən sonra Şərqin ən böyük ikinci itkisi."

Serqo Orconikidze isə Nərimanovu belə təsvir etmişdi: "Partiyamızın Şərqdəki ən böyük nümayəndəsi".

Azərbaycan Xalq Cümhuriyyətinin qurucularından olan Məhəmməd Əmin Rəsulzadə "Azərbaycan cümhuriyyəti" əsərində Qırmızı Ordunun işğalı barədə yazıb:

"İşğalın ilk günlərində, rus ordusunun kəndisinə yapdığı təntənəli bir istiqbal mərasimi ilə Moskvadan Bakıya vürud edən Nəriman, "Tazə pir" meydanında xalqa xitabən söylədiyi nitqində deyordu ki, "Məxsusi bir komision təşkil etdik. Bu komision əski hökumətin fəaliyyətini tədqiq ediyor. Bir kaç gün sonra nəticəyi elan edəcək, o vaxt siz də görəcəksiniz ki, nə kimi xainlər sizi idarə ediyormuş!"

Kaç gün deyil, kaç sənə keçdi, o komision bu nəticəyi hələ elan etməmişdir. Həm edəməz də! Çünki məmləkəti ingilislərə satdı, deyə ittiham olunan hökumətin bir zərrə belə olsun hüquqi-millətdən əcnəbilərə tərk etdiyini bir Nəriman deyil, bütün bolşeviklər bir araya gəlsələr də isbat edəməzlər!

Fəqət, Nərimanov və yoldaşları ruslara satmadıq bir şeyi buraxmadılar. Onlar hər şeyi verdilər. Maddi, mənəvi nə varsa həpsini təslim etdilər. Top əndaxtları ilə müftə göndərdikləri petrolun yüzdə 15 faizini Azərbaycana alıb verdirmək üçün aylarla yalvarırdılar. Hissələrinə düşən petrola sərbəst bir bazar təmini üçün dəxi nə dərəcə kiçildilər, nə qədər alçaldılar. Nəhayət, bu surətlə hasil olan sərvəti də, son nəticədə, məmləkəti istila edən Qızıl ordunun şərəfinə israf etdilər".

Bu da gerçəyin səsi idi...

### *Və daha bir gerçək...*

1918-ci ilin martında ermənilər Qafqazdan oğuz türkləri ilə bərabər digər Qafqaz xalqlarının kökünü kəsməyə girişmişdilər. Mart qırğınlarının, soyqırımın müəllifi olan bu toplumun üzvləri Azərbaycan torpaqlarında elə bir ərazi yoxdur ki, orada azərbaycanlıların qanını axıtmasın, oğluna-qızına təcavüz etməsin, körpələrini qılıncdan keçirməsin . Və bundan cəmi iki il sonra





"Azərbaycanı sevən Nərimanov" ağlasığmaz bir hərəkətə imza atdı. Ermənistanda əhalinin ərzaqla təmin edilməsində çətinliklər yaranırkən , orada aclıq başlayarkən Gürcüstan, Rusiya deyil ilk maddi və mənəvi kömək Nərimanovun əmri ilə ermənilərə çatdırıldı. Beləki, məhz Nərimanovun razılığı ilə həmin ilin mayın sonunda Azərbaycandan Ermənistana 17 vaqon çörək və 5 milyon rubl yardım edilir. Qatarla təcrübəli partiya işçiləri, kənd təsərrüfatı mütəxəssisləri gedirlər ki, orda sistem qurulsun. Bir müddət sonra, 1920-ci ilin yayında Azərbaycan Ermənistana 50 vaqon ərzaq, 48 çən kerosin və 200 milyon rubl göndərildi. 200 Azərbaycanlı mühəndis, aqronom və digər mütəxəssislər xalq təsərrüfatının bərpasına kömək etmək üçün Ermənistana getdilər.

Nərimanovun "öz xalqını çox sevdiyini" elə bu faktdan aydın görmək olur.

Bundan başqa hamımız bilirik ki, Azərbaycan Cümhuriyyətinin qurucularının, Azərbaycan dövlətinin və xalqının əsl vurğunları, fədakarlarına 70 illik sovet imperiya tarixində nəinki bir xatirə lövhəsi qoyulmayıb, heç adları belə Azərbaycan xalqına xatırlanması qadağan edilib. Xatırlanıbsa da, ya "xain" , ya da "satqın " kimi xatırlanıb. 70 il Məmmədəmin Rəşulzadəni və onun məsləkdaşlarını məktəb partasından öldüyümüz günə qədər bizə belə tanıtdırıldı.

O zaman belə bir sual meydana çıxır: Acaba, imperiya 1964-cü ildə Sumqayıtda Nərimanova büst qoydu, 1972-cı ildə Bakının Yasamal rayonunda tunc və qranitdən heykəl ucaltı, 1977-ci il noyabrın 6-da keçmiş Nikolayevski küç.17-də (indi İstiqlaliyyət küç.55) yerləşən binanın 2-ci mərtəbəsində muzey açdı? Nərimanovun "işıqlı" fəaliyyətini dərsliklərə saldı?

Hələ Bakıda böyük bir rayonun adının da Nərimanov olması bir ayrı dərddir.

Axı, bunu hamı yaxşı bilir ki, imperiyaya xidmət göstərilməyən şəxs tarixdən silinir...

Bu məqaləni yazmaqda məqsədim Nərimanov mövzusu ilə müzakirə yaratmaq deyil. Bəzi gözübağlı, və yaxud dərinlikləri bilməyənlərə bəzi nüansları xatırlatmaq idi. Axı, bu gün Nərimanovun ev-muzeyinin açılışından 52 il ötür... Görəsən, həmin imperiya vətənindən perik salınan M.Ə Rəsulzadə və məsləkdaşlarına niyə bir muzey təşkil etmədi? Heç bunu düşündünüzmü?

**Əziz Nərimanovsevərlər, muzeyiniz mübarək...**

**Əntiqə Rəşid**

# General Mirzəyev, 2 milyon puldur?: Sənin tayların burda 143 milyon oğurlayır

**Çox olub ki, Azərbaycandan uzaqlarda Azərbaycanın adını hallandırmağa bacaranlara təşəkkür edirik. Amma bu dəfə bu soydaşımızdan çox narazı qaldım.**

Beləki, bu gün Rusiyanın nüfuzlu xəbər saytı TASS məlumat yayıb ki, Rusiyanın Moskva şəhərində Rusiya Qvardiyasının Təchizat İdarəsinin keçmiş müavini, general-mayor Mirzə Mirzəyev korrupsiya ittihamı ilə həbs edilib.

Mirzəyevin əslən azərbaycanlı olmasını biləndən sonra təəccüblənməyərək xəbərin qalan hissəsini oxumağa başladım . "İstintaqın məlumatına görə, Rusiya Milli Qvardiyasının Cənub Dairəsinin komandirinin 52 yaşlı keçmiş müavini Mirzəyev "yığma tikililər üçün modul təchizatçısından 140 milyon tələb edib və pul olmadığı təqdirdə 480 milyonluq müqaviləyə xitam verəcəyi ilə hədələyib. "Mash teleqram kanalı yazır. Mənbə qeyd edir ki, şirkət vasitəçi



vasitəsilə generala pul köçürüb, bundan sonra hər ikisi saxlanılıb". Belə məlum olur ki,Mirzəyevin oğurladığı 1.400.000.00 ABŞ dollarının bu gün üçün valyuta məzənnəsi iki milyon üç yüz səksən min azərbaycan manatdır: 2.380.000.00. Yəni Azərbaycan Müdafiə Nazirliyinin Maliyyə və Büdcə İdarəsinin sabiq rəisi general-mayor Nizami Məmmədov və başının 2-3 "şaykası" MN-dən 143 milyon manat oğurlayıblar. Uzun zamandır ki, həbs olunmayıblar. Nəhayət gördükləri qeyri-qanuni iş bir gün gün üzünü çıxıb. Hazırda İşləri istintaqda olsa da hər gün yeni bir fakt ortaya çıxır .

Hətta Nizami Məmmədovun vəkili məhkəmə zamanı deyib ki, cinayət işi üzrə təqsirli bilinən və ayrı icraatda məhkəməsi keçirilən Məlikməmməd Qurbanov ifadəsində vəzifədə işlədiyi 2015-2019-cu illərdə 20 milyon manat pul mənimsənildiyini deyib

"O, deyib ki, həmin pulun 19 milyon 600 min manatını Nəcməddin Sadıqova verib, 400 min manatı isə özünə qalıb. Həmçinin sabiq idarə rəisi Nəcməddin Sadıqovun ona 800 min manat pulu Nizami Məmmədova çatdırmaq üçün verdiyini bildirib".

**Uzun sözün qısası, Azərbaycandan kənarda adımızı heç də yaxşı hallandırmadı Mirzə Mirzəyev - 2 milyon 380min nəyiymiş... Adam dövlətdən oğurluq edəndə 1403 milyin və bacararsa daha çox oğurlayar.Sadəcə, adımızı batırdın.**

**Ə. Rəşid**

# Birdəfəlik telefon və noutbuk xəbərdarlığı yalnız Azərbaycanla bağlıdır?

**"COP29-la bağlı yayılan məlumatlar içərisində Azərbaycana gələn nümayəndələrə yalnız "birdəfəlik telefonlar və noutbuklar verilməsi" məsələsi diqqət çəkir. Birdəfəlik telefon və noutbuklar təhlükəsizlik məqsədilə istifadə edilir, qısa müddətlik- bir neçə zənglər üçün nəzərdə tutulur, məlumat sızmasını əngəlləyir, internetə çıxış olmur, yalnız SMS funksiya aktiv olur, istifadəçi məlumatları telefonda saxlanılmır, avadanlıq sonradan məhv edilir".**

Adalet.az xəbər verir ki, İKT üzrə ekspert Osman Gündüz sosial şəbəkə hesabında bildirib. Onun sözlərinə görə, bəzi ölkələr və beynəlxalq qurumların COP29-da iştirak edəcək nümayəndələrinə təhlükəsizlik məqsədilə bu tip avadanlıqlar təqdim etdikləri bildirilir:

"Maraqlıdır ki, xaricdəki müəyyən dairələr bunun məhz Azərbaycana qarşı edildiyini qabardırlar. Azərbaycana səfərin təhlükəli ola biləcəyi ilə bağlı xof yaratmaq istəyirlər. Guya, burada hansıa bir Conun şəxsi telefonuna kiber müdaxilə ola bilər və məlumatları ələ keçirilə bilər. Əslində isə əksəriyyət ölkələrdə və beynəlxalq



qurumlarda təhlükəsizlik məqsədilə belə bir praktikadan istifadə edilir. Əməkdaşlarının, yaxud müxtəlif olimpiada və beynəlxalq tədbir iştirakçılarının kibertəhlükəsizliyinin qoruması üçün bu tip addımlar atılır. Yəni, yalnız rəsmi şəxslər üçün deyil, adi vətəndaşlar üçün də belə hallar olur və bu, yalnız Azərbaycana səfər edənlər üçün deyil. Bir çox xarici ölkələrə səfərələrdə belə praktika normal hal hesab olunur. Səksən minlik bir tədbirə qatılan bəzi informasiya daşıyıcıları üçün təhlükəsizlik xidmətləri tərəfindən belə tövsiyyələrin verilməsi ağlabatandır. İnformasiya təhlükəsizliyi ilə bağlı risklər hər yerdə var. Bunun yalnız Azərbaycanla bağlı olmasını qabartmaq, yumşaq desəm doğru bir hal deyil, qarayaxmadır".

**Ekspert xatırladıb ki, çox sayda ölkələrin təhlükəsizlik xidmətləri müxtəlif ölkələrdə keçirilən hansısa olimpiadalara gedən idmançılarına da belə tövsiyyələr verirlər: "İstisna etmirəm ki, bizim xüsusi xidmət qurumları da bəzi xarici tədbirlərdə iştirak edən dövlət rəsmilərimiz, əhəmiyyətli informasiya daşıyıcısı ola biləcək vətəndaşlarımız üçün də bu tip tövsiyyələr verirlər. Yəni, belə praktikanın olmaması təəccüblü olardı".**



**Faiq QİSMƏTOĞLU**
**faiqqismetoglu@box.az**

# Beyin axını...

**... Dünyada ən böyük var-dövlət ağıllı, savadlı, istedadlı insanların olmasıdır.**

**O ölkədə istedadlı gənclərə "yaşıl işıq" yandırılır, savadlı və vətənpərvər, ədalətli gənclər irəli çəkilir ki, onlar da bu etimadı doğruldaraq xalqa vicdanla xidmət edirlər. Amma onları ayaqaltına alanda, saymayanda, savadsız , cahil adamları vəzifəyə təyin edəndə bax belə gənclərin qəlbi sınır, çıxış yolunu ölkəni tərk etməkdə görürlər. Heç şübhəsiz, bizdə də belə haqsızlığa məruz qalan gənclər az deyil.**

**Çünki onların əvəzinə, vəzifəyə kiminsə qohumu, hansısa icra başçısının oğlu, yaxud qardaşı oğlu təyin ediləndə bunu hamı görür və bilir. Və bu gün ən çox da yüksək vəzifədə işləyənlər elə məhz onların yaxınlarıdır. Hamı yaxşı bilir ki, hansı nazirin, hansı icra başçısının oğlu harda yüksək vəzifə tutub. Aydındır ki, onların layiq olanları da var, amma onlardan da savadlı olanlar kənarda qalır...**

**... Və belə olanda vətənpərvər, savadlı gənclərimiz ölkəni tərk edirlər. Bundan da böyük boşluq yoxdur. Çünki onların yerini heç kim əvəz edə bilməyəcək. Ki, beyin axını başlayırsa, bu, o deməkdir, belələrinə qarşı ədalətsizlik olub! Ədalətsizlik olan yerdə isə insanların yeri səhv düşür. Və nəticədə zərbə xalqa, millətə, vətənə deyir.**

**Bütün bunlardan nəticə çıxarılmalı və heç kimin yeri səhv düşməməlidir!**

## ZƏFƏR GÜNÜ MÜNASİBƏTİLƏ TƏDBİR: "YAŞA AZƏRBAYCAN!"

**Gəncə şəhəri M. M. Abbaszadə adına 20 nömrəli orta məktəbdə 8 Noyabr - Zəfər Günü münasibətilə vətənpərvərlik ruhunu yaşadan "Yaşa Azərbaycan!" adlı tədbir keçirilib.**

Tədbirdə Gəncə-Daşkəsən Regional Təhsil İdarəsinin nümayəndəsi, məktəbin müəllim və şagird kollektivi ilə yanaşı, şəhid anaları və qazilər də iştirak ediblər.

Azərbaycan Respublikasının Dövlət Himni ilə başlayan tədbir "Çırpınırdı Qara dəniz" mahnısının səslənməsi ilə davam edib.

Tədbirdə şəhid ailələri və müharibə əlillərinə Azərbaycan Respublikasının Prezidentiu İlham Əliyevin və Birinci vitse-prezident, Heydər Əliyev Fondunun prezidenti Mehriban Əliyevanın hərtərəfli diqqət və qayğısı xüsusi vurğulanıb. İştirakçılar şəhid ailələrinə və müharibə əlillərinə göstərilən hərtərəfli dövlət qayğısına görə ölkə rəhbərliyinə minnətdarlıqlarını ifadə ediblər.

Şagirdlərin yüksək vətənpərvərlik ruhunda səhnələşdirilmiş çıxışları və rəqsləri iştirakçılara unudulmaz anlar yaşadıb və tədbirə xüsusi rəng qatıb.

**Tədbirin sonunda Vətən müharibəsində qəhrəmancasına vuruşan qazilərimizə xüsusi ehtiram göstərilib. Məktəb rəhbərliyi qazilərimizi göstərdikləri igidliyə görə sertifikatlarla təltif edib.**

## "Azərsun Holdinq"in COP29 hazırlıqları yekunlaşmaq üzrədir




**Məlum olduğu kimi dünya əhəmiyyətli, beynəlxalq layihə olan COP29-un başlamasına sayılı günlər qalıb.**

Adalet.az xəbər verir ki, COP29-un Dayanıqlı İnkişaf tərəfdaşı olan "Azərsun Holdinq"in hazırlıqları da yekunlaşmaq üzrədir.

Mavi zonada "Azerçay" markası ilə təmsil olunan şirkətlər qrupu həmçinin layihənin əsas çay təminatçısıdır. Eyni zamanda Yaşıl zonada 300 kv metrlik ərazini əhatə edən pavilyona sahibdir. Vurğulamaq lazımdır ki, 11-22 noyabr tarixlərində keçiriləcək qlobal konfrans çərçivəsində şirkətlər qrupunun pavilyonunda müxtəlif tədbirlər keçiriləcək. Hazırlıq işləri ilə tanış olmaq, görülən işləri nəzərdən keçirmək üçün holdinqin nümayəndələri və tərəfdaşları Sustainera Solutions şirkətinin və Media Balans agentliyinin rəhbərləri pavilyona baş çəkiblər.

Qeyd edək ki, "Azərsun Holdinq" öncəki illərdə də ölkəmizdə təşkil olunan bir çox qlobal layihələrin əsas tərəfdaşı qismində çıxış edib və hər kəsi Yaşıl zonada yerləşən pavilyonu ziyarət etməyə dəvət edir.

## Yanğın zamanı yol polisi tıxacın qarşısını aldı




**Oktyabrın 31- i axşam saatlarında Xırdalandakı "Gənclər" şəhərciyində yanğın baş verib.**

Yanğın söndürən maşınların , eləcə də təcili tibbi yardım avtomobillərinin hadisə yerinə vaxtında çatması üçün Baş Dövlət Yol Polisi İdarəsinin Yol Patrul Xidməti Alayının birinci tağımının əməkdaşları axşam saatlarında Bakı- Quba avtomobil yolunda hərəkətin təhlükəsizliyini yüksək səviyyədə təmin edib.

Belə ki, həmin yolda axşam saatlarında bir qayda olaraq tıxaclar yaranır.

Amma həmin axşam yanğın baş verərkən operativ xidmət maşınlarının hadisə yerinə vaxtında çatması üçün yol polisi bütün təhlükəsizlik tədbirlərini vaxtında həyata keçirib. Belə ki, yolda hərəkət tənzimlənib, tıxacın yaranmasına imkan verilməyib.

Yanğın yol polisinin köməkliyi ilə vaxtında söndürülüb. Hadisə yerinə Fövqəladə Hallar Hallar naziri Kəmaləddin Heydərov da gəlib.Bir sözlə, Yol Patrul Xidməti Alayının birinci tağımının əməkdaşları öz üzərlərinə düşən vəzifəni yüksək peşəkarlıqla yerinə yetiriblər.

## Kaş həmişə belə ola...



**Bakıda uzun müddət idi ki, küçə ticarəti tüğyan edirdi. Hətta elə küçələr var idi ki, səki ilə getmək belə mümkün deyildi.**

İndi COP-29- la bağlı olaraq demək olar ki, paytaxtımızın bütün yerlərində küçə ticarətinin qarşısı alınır. Əvvəllər " Vosmoy" bazarı kimi tanın 8 Kilometr bazarında vəziyyət daha bərbad idi. Küçənin ortasına paş- paltar töküb satırdılar.

Bazadan piyada yuxarı qalxmaq mümkün deyildi. Hətta bazarın ətrafındakı səkidə belə sənaye məhsullarından tərpənmək mümkün deyildi. Orada hara ayaq basırdın bu məhsullarla rastlaşırdın . Bir sözlə, küçədə yerimək mümkün deyildi. Eyni zamanda Yeni Günəşlidə də küçə ticarətinin qarşısı alınıb.

Bir qadın vardı, içi qarpız, meyvə dolu maşını küçədə saxlatdırıb, məhsulları yolun ortasında satırdı. Hələ bu azmış kimi, o məhsulları səkiyə yığır, özü də orda əyləşib, çay içirdi, piyadalar isə səkidə yeriyə bilmir, məcbur olub, yolun hərəkət hissəsinə çıxırdılar. Bu qayda- qanunun bərpa olunmasında Çevik Polis Alayının çox böyük xidməti var! Küçələr və səkilər təmiz olanda Bakımız daha gözəl görünür. Kaş , həmişə belə ola !!!

## COP-29 zolağına girən...




**Ölkəmizdə keçiriləcək beynəlxalq tədbirlə əlaqədar olaraq Bakının avtomobil yollarında yeni zolaqlar müəyyənləşdirilib və zolaqla, ancaq bu tədbirdə iştirak edən nəqliyyat vasitələri hərəkət edə bilər.**

Bəs onda başqa avtomobillərin sürücüləri nə etməlidir? Bax bu məsələyə yol polisi aydınlıq gətirib.Yol polisindən bildirilib ki, COP- 29 zolağına daxil olmaq digər nəqliyyat vasitələrinin sürücüləri üçün qadağandır.

Əgər hansısa, sürücü bu zolağa daxil olarsa, yüz manat və iki balla cərimə ediləcək. Artıq bu qanun noyabrın 1- dən qüvvəyə minib.

Deməli, hələ tədbir başlamazdan öncə sürücülər diqqətli olmalı və qanunlara riayət etməlidirlər ki, cərimə olunmasınlar!

## Yaxşı həkim az maaşla işləməz



**Bu gün ölkəmizdə səhiyyə sahəsində çox böyük inkişafa nail olunub.**

Belə ki, dünya standartlarına cavab verən xəstəxanalar və klinikalar inşa edilib. Və tibb ocaqları ən müasir texnologiya, avadanlıqlarla təchiz edilib. Bütün bunlar ən ağır xəstələri müalicə etməyə imkan verir.Üstəlim də ölkəmizdə heç də Avropa həkimlərdən geri qalmayan istedadlı və savadlı həkimlərimiz var. Amma bu savadlı həkimlərə bəzi xəstəxanaların direktorları göz verib, işıq vermirlər. Təbii ki, belə olanda o həkimlər ya iş yerlərini dəyişir, ya da bu da alınmayanda ölkəni tərk edirlər. Son illər yüzlərlə həkim Avropa ölkələrinə üz tutub. Bu gün respublikamızda həkim çatışmazlığı var. Təkcə Füzuli rayonunda yüzə yaxın həkim yeri boşdur. Tibb Universitetini bitirmiş məzunlar isə gərək. Dövlət İmtahan Mərkəzində imtahan versin və bundan sonra işə qəbul edilsin. Bu isə uzun bir prosesdir. Təbii ki, az maaşla heç kim rayon yerində həkim işləmək istəmir. Savadlı və təcrübəli həkimlər isə rayondan Bakıya gəlib, özəl klinikalarda işə düzəlir və çörəkpulu qazanırlar. Belə olan halda rayon xəstəxanalarında boş yerləri, ancaq təyinatla doldurmaq olar. Ali məktəbi bitirən məzunlara isə təyinat verilmir.Aydındır ki, belə durumda rayonlarda həkim çatışmazlığı olacaq. Ona görə də əlaqədar qurumlar bu barədə ciddi düşünməlidir!

## Sahibsiz itlər...

**Onlara sahib çıxan tapılacaqmı?!**



**Tək rayonlar da deyil, Bakıda da sahibsiz itlərin əlindən tərpənmək mümkün deyil. Hətta belə itlər dəfələrlə insanlar hücum edib və onları tutub. Həyətdə uşaqlara çuman itlər onları parçalamaq istəyib. Ətrafdakı insanların köməkliyi ilə o uşaqları çətinliklə də olsa, itin ağzından ala biliblər. Bakının küçələrində isə sahibsiz itlər günbəgün çoxalır. Əvvəllər ağına- bozuna baxımından onları güllələyib, cəsədlərini aparıb uzaq bir yerə atırdılar.**

Bu da sahibsiz heyvanlara qəddarlıq kimi, dəyərləndirilirdi. İndi isə bir iti öldürməyə görə, insanlar inzibati məsuliyyətə cəlb edilirlər.Lap yaxşı, qoy olsun! Heyvanların hüquqları qorunduğu kimi, insanlarım da hüquqları qorunmalıdır! Deyirlər ki, sahibsiz itlər üçün xüsusi yerlər yaradılacaq və onları həmin yerdə saxlayacaqlar.

Amma neçə illərdir ki, bu barədə danışılır, təəssüf ki, konkret bir iş görülmür. Və nəticədə Bakının küçələrində sahibsiz itlər günbəgün çoxalır. Bu isə insanların həyatı üçün təhlükə yaradır!

## Hava qeyri-sabit keçəcək



**Bir neçə gündür ki, mülayim olan hava noyabrın 3- ü axşamdan dəyişəcək.**

Hıdrometeroloqların verdiyi məlumata görə, havanın temperaturu 8-10 dərəcə aşağı düşəcək, ölkə ərazisinə leysan yağış,bəzi dağlıq ərazilərə qar yağacaq və güclü külək əsəcək.

Belə qeyri- sabit havada sürücülər daha diqqətli olmalı, yağış yağarkən ara məsafəsi saxlamalı, ağır yüklü maşınları hərəkət edərkən sürət həddinə əməl etməlidirlər! Belə hava şəraitində piyadalar da qaydalara riayət etməlidirlər.

**Onlar yolu təyin olunmuş yerdən keçməli,günün qaranlıq saatında bir daha məsuliyyətli olmalıdırlar! Bir sözlə, qeyri-sabit hava şəraitində qəzaların baş verme ehtimalı çox olduğuna görə, mütləq müxtəlif nəqliyyat vasitələrinin sürücüləri əvvəlki günlərlə müqayisədə bir qədər də diqqəti olmalıdırlar ki, qəza baş verməsin!**

**EMİL FAİQOĞLU**



# QIZIL GÜLLƏR DİYARININ QIZIL PAYIZI

**... Bu rayonun gözəlliyinə, bu rayonun fərdi xüsusiyyətlərinə, təbiət əzəmətinə, şəhər mədəniyyətinə... çox epitetlər deyilib. Əlbəttə, bunlardan biri də "Qızıl güllər" diyarı bənzətməsidir. Ancaq bu epitetin özəlliyi daha əsaslı olub. Nədən ki, Zaqatalada heç qızıl güllərə rast gəlməsən belə, bu gözəl məkanın sevincini tamlığı, bütövlüyü ilə yaşayırsan.**



Qızıl payız bu yerlərə adətən elə bu vaxtlar, noyabrın əvvəllərində sığal çəkir. Qarşı dağlardan, ətək meşələrdən başlayaraq şəhərə, kəndlərə yol alır, insanlara könül rahatlığı, sevinc bəxş edir.

Zaqatala camaatı işlək, zəhmətsevər camaatdır. Kəndlərdə yetişdirilən müxtəlif məhsullar yay fəslindən başlayaraq payızın ortalarınadək tədarük olunur, müxtəlif müəssisələrdə emal edilir, satılır, gəlir gətirir. Bu payız da belədir: hər mənada fəslin qızıl dövrüdür. Dövləti-



mizin qayğısı hər yerdə olduğu kimi Zaqatala rayonunda da yüksək səviyyədə hiss edilir. Kəndlinin, fermerin işgüzarlığına, ərzaq bolluğu yaratmasına, yaxşı yaşamasına önəm verilir. Rayondakı müəssisələr, bütün istehsalat sahələri ili uğurlarla başa vurmaq üçün ciddi səy göstərirlər. Rayon icra hakimiyyəti bu uğurların tam təmin olunması üçün ən xırda məsələlərə belə diqqət və qayğı göstərir, idarəetmənin nümunəvi perspektivlərinə doğru irəliləyir. Bu səbəbdəndir ki, zaqatalalılar bütün sahələrdə uğurlar qazanmağa, vətənə layiqli töhvələr vermeyə çalışırlar. İstər kənd təsərrüfatının aparıcı bölmələrində, istərsə də sənaye, tikinti, xidmət sahələrində davamlı inkişaf təmin olunur. Ürəkaçan mənzərələrdən biri də şəhərin modern inkişafı, gözəlliyi ilə yanaşı qəsəbə və kəndlərin də hərtərəfli müasirləşməsidir. Uzun illərdir bu rayona təcrübəli bir dövlət məmuru kimi nümunəvi rəhbərlik edən icra başçısı Mübariz Əhmədzadə ilə söhbətimiz zamanı bildirir ki, Zaqatala kimi turizm potensiallı bir yerdə bu məsələlərin həlli, yəni infrastruktur inkişafının stabilliyi vacib şərtlərdəndir. Artıq Zaqatalanın ən ucqar istiqamətlərində belə müasir tələblərə cavab verən yol, rabitə, iaişə və digər məsələlər öz həllini tapmaqdadır. Mübariz müəllimdən söz düşmüşkən bir nüansı da xüsusi diqqətə çatdırmaq zərurəti yaranır. Vərdişdənmi, ya məsuliyyətdənmi hər gün rayon həyatının bütün məsələləri ilə məşğul olmasa, məlumatlanmasa rahatlıq tapmır. Hətta hər gün rayonda neçə uşaq dünyaya gəlməsindən, neçə nəfər rayon sakininin vəfat etməsinə qədər. İlk baxışda çox sadə görünür... Başçının bütün sahələrə eyni diqqətlə yanaşması, səmimi davranışı, təvazökar həyat tərzi ilərdir ki, onu bu böyük rayonda hamının doğma, əziz adamı kimi tanıdıb. Cənab Prezidentin vəzifə sahiblərindən tələb və istəyi də elə fəaliyyətin bu cür formalaşması və xalqın xidmətində dayanmasıdır.

Bütün bunlar zəhmətsevər, dövlətçiliyə sədaqətli, eyni zamanda prezidentlərini hədsiz dərəcədə sevən, ona güvənən Zaqatala camaatının halal haqqıdır.

Və bu camaat həm də vətən sevdalı, vətəni candan sevən gözəl insanları birləşdirir. Vətənimizə bəd niyyətli himayədarlarının dəstəyi ilə uzun illər ziyan vuran, maskalanmış işğalçı siyasət yeridən mənfur düşmən 44 günlük Vətən müharibəsində darmadağın edildi. Azərbaycanın Silahlı Qüvvələri əfsanəvi Ali Baş Komandan İlham Əliyevin rəhbərliyi ilə Ermənistanı təslim edərək tarixinin ən parlaq qələbəsini qazandı. Zaqatalanın da orduda xidmət edən və könüllü olaraq döyüşə atılan yüzlərlə vətənpərvər gənci düşmənə qarşı nifrət və qəzəblə döyüşərək qazanılan qələbədə şücaət göstərdilər, əziz və doğma Qarabağımız uğrunda qazi oldular, şəhidlik zirvəsinə ucaldılar. Biz də "Ədalət" qəzeti olaraq həmin igidlər haqqında onlarla məqalə dərc etdik, bütövlükdə Zaqatala rayonunun vətən uğrunda ön və arxa cəbhədə göstərdiyi fəallığı oxucularımızla bölüşdük.



Zaqatalada şəhər kənarındakı şəhidlər xiyabanı az qala hər gün yad edilir. Eyni zamanda rayon rəhbərliyinin təşəbbüsü, camaatın istəyi ilə şəhərdə, Balakən yolu üzərində çox dəyərli bir üslübda Şəhidlər Xiyabanı salınmaqla igid oğulların xatirəsi bir daha əbədiləşdirilmiş, sakinlərin tez-tez gəldiyi müqəddəs yerə çevrilmişdir.



Zaqatalalıların qəlbi indi də əziz Şuşamızla, Qarabağın işğaldan azad edilmiş digər şəhər və kəndləri ilə birgə vurur. Zaqatalalılar Qarabağdakı quruculuq işlərinə də töhvə vermək arzusu ilə yaşayır, bütün məsələlərdə dəstək olmağa çalışırlar. Çünki bu rayonun camaatı öz vətənini, dövlətini, prezidentini bütün varlığı ilə sevən gözəl və ləyaqətli insanlardır.



Zaqatalalılar bu əlvan payız günlərində xoş bir ovqatla, böyük sevinc hissi ilə Ali qonağın gəlişinə hazırlaşır, bu görüşü səbirsizliklə gözləyirlər...

... "Bütövlükdə Zaqatala rayonunda işlər yaxşı gedir, regionların sosial iqtisadi inkişafı, Dövlət Proqramları icra edilir. Həm şəhərdə, həm də kəndlərdə böyük quruculuq işləri aparılır. Bu proqram bizə imkan verəcək ki, yaxın zamanlarda bütün əsas sosial və iqtisadi məsələlər öz həllini tapsın. Tikinti işləri davam edir. Sakinlər bu işlərdə fəal iştirak edirlər".

**Zaqatala haqqında bu uzaqgörən və dəyərli sözləri bir neçə il əvvəl rayona səfəri zamanı Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyev demişdi. Ölkə rəhbərinin söylədikləri məhz bugünkü reallıqları ən yüksək səviyyədə əks etdirir.**

**Məzahir ƏHMƏDOĞLU**

# *Azərbaycanda bu avtomobillər ucuzlaşa bilər*

**Azərbaycanda avtomobil istehsalında kəskin artım qeyd alınıb. Belə ki, rəsmi məlumata görə, ölkədə maşın və avadanlıqların, sair nəqliyyat vasitələrinin, avtomobil, qoşqu və yarımqoşquların istehsalı sahələrində 2024-sü ilin yanvar-sentyabr aylarında 562,3 milyon manatlıq məhsul istehsal edilib.**



Əvvəlki ilin müvafiq dövrü ilə müqayisədə avtomobil, qoşqu və yarımqoşquların istehsalı 53,4 faiz artıb. Cari ilin yanvar-sentyabr aylarında ölkədə 3623 ədəd minik avtomobili istehsal olunub. 2023-cü ilin müvafiq dövrü ilə müqayisədə, minik avtomobil istehsalı 71,7 faiz (və ya 1513 ədəd) artıb. Xatırladaq ki, 2023-cü ildə ölkədə 2110 ədəd minik avtomobili istehsal olunub.

Ölkədə avtomobil istehsalında kəskin artımın qeydə alınması daxili bazarda qiymətlərə necə təsir göstərəcək?

Mövzu ilə bağlı Azərbaycan Avtomobil Dilerləri Assosiasiyasının icraçı direktoru Eyyub Əliyev Trend-ə açıqlamasında deyib ki, yerli istehsal aktual və vacib məsələdir. O bildirib ki, yerli avtomobillər digərlərinə nisbətən qiymət baxımından istehlakçılara daha ucuz başa gəlir: "Artıq, demək olar ki, taksi parkımız yenilənməkdədir. Buna yaşı 10 ildən yuxarı olan avtomobillərin ölkəyə idxalının qadağan edilməsi, utilizasiya prosesinə start verilməsi təsir göstərib. İndiki məqamda yerli istehsalın həcminin artması çox vacibdir".

Mütəxəssisin sözlərinə görə, istehsalda kəskin artım daxili bazarda müəyyən qisim avtomobilərin qiymətlərinə təsir göstərə bilər: "Lakin ciddi qiymət fərqini müşahidə etməyəcəyik. Çünki yalnız daxili istehsal hesabına tələbi qarşılamaq qeyri-mümkündür. Azərbaycana Koreya, Yaponiya və xüsusən də Çindən avtomobillər idxal olunur. Yerli avtomobil istehsalında artım ikinci əl avtomobil bazarında yaşı 10 ilə qədər olan minik nəqliyyat vasitələrinə müəyyən mənada təsir göstərə bilər. Bunun digər avtomobillərə o dərəcədə də ciddi təsiri olmayacaq".

Qeyd edək ki, Azərbayanda ötən ilə nisbətən yük avtomobili istehsalında da artım qeydə alınıb. Belə ki, bu ilin yanvar-sentyabr ayları ərzində ölkədə 394 ədəd yük avtomobili istehsal olunub. 2023-cü ilin müvafiq dövründə isə bu göstərici 285 ədədə bərabər olub.

Beləliklə, ölkədə yük avtomobili istehsalı ötən ilin müvafiq dövrü ilə müqayisədə 38,2 faiz (və ya 109 ədəd) artıb. Cari ilin yanvar-sentyabr ayları ərzində isə traktorların istehsalı əvvəlki ilin müvafiq dövrü ilə müqayisədə 14,8 faiz azalıb.

## *Rusiya kəşfiyyatı: ABŞ Ermənistanı "milli intihara" sövq edir*

**"ABŞ Dövlət Departamenti Ermənistanda qərbyönlü vətəndaş cəmiyyəti strukturlarının stimullaşdırılması üzrə işləri nəzərəçarpacaq dərəcədə sürətləndirib".**

Adalet.az xəbər verir ki, bu barədə Rusiya Xarici Kəşfiyyat Xidməti məlumat yayıb.

"ABŞ Ukrayna və Moldovada sınaqdan keçirilmiş sxemlərə əsasən, nəhayət, Ermənistanı qərbyönlü inkişaf kursuna keçirmək istəyir. Bu üsulla Vaşinqton Ermənistanı milli intihara sövq edir. Çünki bu sxem İrəvanı dəyərlərdən, ənənələrdən və sərfəli iqtisadi əlaqələrdən əl çəkməyə yönləndirir".

Qeyd edək ki, siyasi analitiklərin fikrincə, ABŞ Beynəlxalq İnkişaf Agentliyinin (USAID) Ermənistana pul yardımını iki dəfədən çox - 120 milyon dollardan 250 milyon dollara qədər artırmaq qərarı sıradan bir hərəkət deyil. Bu maliyyə yardımı ayırması elə qələmə verilir ki, guya bu yardım humanitar məqsədlidir.

Sözügedən "yardım" üçtərəfli (Amerika, Ermənistan, Avropa İttifaqı) 5 aprel anlaşmasının tərkib hissəsidir. Anlaşmada məqsəd daha çox hərbi potensialın artırılmasına yönəlib. Humanitar adı altında maliyyə yardımı əslində Ermənistanın silahlandırılması üçündür.

Rusiya Xarici İşlər Nazirliyinin sözçüsü Mariya Zaxarova dəfələrlə qeyd edib ki, Ermənistana pul yardımının artırılması Ermənistanda Qərb fəaliyyətinin sabitliyi pozan xarakterini təsdiqləyir.

**Əntiqə Aslan**



Əbülfət MƏDƏTOĞLU
madatoglua@mail.ru

# Söz haqqı olan Adam

## Folklend-Maldiv adalarında da palıd ağacı varmı?

**Hardasa iki aya yaxındır ki, telefon əlaqəmiz yoxdur. Yəni baş elə qarışıb ki, bir-birimizdən xəbər tuta bilməmişik. Və bir də dostumun sağlığ durumundakı problemlə bağlı işə ara verməsi əlaqələrimizi zəiflətmişdi. Təbii ki, burda da ən böyük günah mənim boynuma düşür. Çünki o, yaşda məndən bir neçə bayram böyük ağsaqqaldı, həm də mətbuat dünyamızda da xüsusi sanbalı, çəkisi var. Yazıları kimi özü də ağır taxtalı, diqqət çəkəndi...**

**İki-üç gündür ki, köhnə kişilər demiş, qəlbim dolanır, rahatlığım, dincliyim elə bil qeybə çəkilib. Hətta yuxuya da həsrət qalmışam. Səbəbini tapa bilmədiyim (əslinə qalsa isə deyə bilmədiyim - Ə.M.) bu rahatsızlığın girovluğundan qurtarmaq üçün yerimdən qalxıb yaxınlaşdım kitab dolabına. Elə gözüyumulu əlimi uzatdım və götürdüm bu kitabı. Müəllifin adını görər-görməz dərhal kitabla birlikdə qayıtdım yazı masama. Yenə gözüyumulu açdım kitabı. Gördüyüm şəkil uzaq bir xatirəni çəkib gətirdi yaxına. Qoydu gözümün önünə. Baxdım şəklə...Baxdım şəkildəkilərə...nələr fikirləşdim, nələr üçün təəssüfləndim... deyə bilməsəm də, amma içimdəki sızıltını heç cür gizlədə bilmədim. Hətta bu şəkildə görüb dünyadan köçdükləri ilə barışa bilmədiyim yaxın adamların da adını təkrar etməyə dilim gəlmədi. Neyləmək olar, bizdən asılı olmayaraq, yazılan və yaşanan bir həyatdır. Belə gəlir, belə gedir və gedəcəkdir də...**

**Onunla ilk qarşılaşmamız mətbuatdan olub. Bir-birimizi yazılarımızla tanımışıq. Sonra "Ədalət" qəzetində birlikdə çiyin-çiyinə işləmək və bir-birimizin ailəsinə, oğul-uşağına bələd olmaq fürsətini verib Allah bizə. Pünhan və insanın yalnız ən içdən olan doğmasına, dostuna deyəcəyi nəsnələri onunla bölüşmüşəm, onun məsləhəti, onun xeyir-duası və bəzən də iradları, hətta kəskin mövqeyi mənim həyatımda mühüm rol oynayıb və oynayır. Onda da, indi də bu mövqe mənə özümə kənardan baxmaq imkanı verib. Bax, elə indi həmin şəklə baxdığım anda necə oldusa, onunla son telefon danışığımızdakı ərk və giley dolu səsi, sözü qulağımda səsləndi:**

**- Belədi də, adam yaşlaşdı, xəstəlik yaxasını tanıdı...qapanıb qalır özünə, otağına və beləcə yavaş-yavaş unudulma prosesi də öz işini görür. Telefona da zənglər az gəlir, sən də az zəng vurursan. Amma gərək belə olmaya axı.**

**Ən azından ziyalılar, dostlar arasında mən belə halları qəbul edə bilmirəm. 10 il, 15 il, 20 il, 30 il və daha nə bilim, neçə illər bir yerdə çalışan, bir-birinin kimliyini yaxşı bilən adamların unudulması bağışlanası hal deyil...**

**Bəli, çox doğru irad və çox acı bir həqiqət. Mən öz payıma verirəm bu qərarı. Öz adımdan bəyan edirəm bunları. Yaxşı bilirəm ki, indi barəsində fikirlərimi bilgisayara diktə etdiyim bu qocaman, həm də peşəkar mətbuat işçisi öz iradlarında tamamilə haqlıdır. Çünki o, kollektivlə, mətbuatla nəfəs alan adamdır. Kollektivin xeyrindən, şərindən heç vaxt kənara çəkilməyən və çalışdığı mətbu orqanı sevdirən, şərəfləndirən jurnalistdir və ən vacibi o, JURNALİST olaraq həmişə öz nüfuzunu, öz imzasını, öz şəxsiyyətini hər şeydən yuxarıda tutub, üstün tutub. Ona görə də Azərbaycanın istənilən bölgəsində,**





**mətbuatdan, jurnalistdən söz düşəndə onun adını böyük hörmət və ehtiramla çəkirlər.**

**Hə, qayıdıram yenə masamın üstündəki kitaba. Bu kitabın müəllifi Məzahir Əhmədoğludur. Yəqin ki, bu imzanı Azərbaycanda mətbuatla təmasda olan hər kəs tanıyır. Məzahir publisist kimi, arxa planda şair kimi heç vaxt kiməsə iddia nümayiş etdirməyib. Kiminsə qəlbinə dəymək yolunu tutmayıb, əksinə cavanlara həmişə məsləhət vermək, qayğı göstərmək onun içindən gələn ən xoş niyyət olub. Bax, bu kitabında da maraqlı bir yazı var. Mən həmin yazını ona görə xüsusi vurğulayıram ki, o yazıda söhbət həm də məndən gedir. Yazının adı belədi.**

**- QEYRİ-SƏLİS...ARGENTİNA**

**Yəqin ki, bu maraqlı başlıq sizi də düşündürdü, qeyri-səlisliklə Argentina arasında hansı bağlılığın olub-olmadığını götür-qoy etdiniz. Təbii ki, bu, oxucu üçün haqlı və maraqlı bir yanaşmadı. Və həm də az-çox idmana, yəni futbola həvəsi, sevgisi, marağı, fanatlığı olan hər kəs ipucunu tuta bildi. Lakin Argentina... qeyri-səlislik...futbol...və Əbülfət Mədətoğlu. Məzahir Əhmədoğlu bu yazısında sadə dildə desək, "İki daşın arasında" Əbülfət Mədətoğlunun 52 yaşının tamam olduğunu oxucuya çatdırmağı unutmur. O, Maradonanı, Messini və kimlərisə həm özü üçün, həm oxucu üçün müxtəlif aspektlərdə incələyəndə birdən solaxay gediş edir. Az qala topu meydandan çıxarır və yazır ki:**

*...adam dolu şəhərdə*
*gəzirəm, görən olmur*
*bir şəhərlik adamdan -*
*bezirəm, görən olmur...*

**Və bu şeirin ardınca yenə yazır: "Lənət şeytana! Ağlım başımdan çıxacaq ey..." Və yenə üz tutur bədii fikrin onu çəkib apardığı ünvanlara. O ünvanlardan biri mənəm. Çünki o, "Azadlıq" qəzetində bir küncdə görür məni. O küncdə də bu misralar tutur onun yaxasından:**

*Mən küləyin*
*yanı üstə yıxdığı*
*palıd ağacı...*
*...süzürəm*
*üstümə yeriyən*
*əli baltalıları...*

**Hə, bax bu şeir parçasını da öz baxış bucağından, öz süzgəcindən keçirib üzü geri mövzusuna qayıdan Məzahir Əhmədoğlu vurğulayır ki, "Mən Əbülfət Mədətoğlunun yerinə olsam vaxtımı boş-boş şeylərə sərf etmərəm. Şeirdən başqa heç nə yazmaram. İndi vaxt qızıldan qiymətlidir. Şeir də vaxtın özündən".**

**Bu, Məzahir Əhmədoğlunun ürəyidir və o ürək Əbülfət Mədətoğlunu belə qiymətləndirir. Mən də öz növbəmdə Məzahir Əhmədoğlunun sözə, dosta, ədəbiyyata, çevrəyə və nəhayət verilən salama, kəsilən çörəyə, bir də mənəviyyata olan bütöv baxışını heç vaxt kölgəli, boz bulanıq görməmişəm və görmürəm. Elə ona görə də hətta ondan hansısa bir nöqtədə yüngül bir incikliyim olanda belə haqqını unutmamışam, özümü görməməzliyə vurmamışam. Çünki haqq olunan etiraf edilməlidir. Etməyi bacarmayan haqqı da unudan adamdır, yəni Allahı. Bu narahat anlarımda mənə azacıq nəfəs verən bu kitabın müəllifinə - dəyərli Həmkar, dəyərli İnsan, dəyərli Ziyalı və nəhayət uzun illərin sınanmış dostu Məzahir Əhmədoğluna can sağlığı arzuları ilə yazımı həlalik bitirirəm.**

## *Kəmalə Abiyevanın "Bakı şəhidləri"-ndən yazdı*

**Hələ mətbəə qoxusu canından çəkilməmiş bir kitabı vərəqləyirəm. Etiraf edim ki, kitabın tərtibatı da, ümumi görüntüsü də o qədər mövzuya uyğun seçilib və mövzunu ifadə edəcək bir nəşr nümunəsi kimi ortaya qoyulub ki, ilk tanışlıqdan onu sona qədər oxumaq istəyirsən.**

Kitabın müəllifi sevilən və çox dəyərli şairə, publisist, yurd təəssübkeşi, vətən sevdalısı Kəmalə Abiyevadır. Oxucularımız onu həm də nəğməkar şair kimi də tanıyır. Qarabağ savaşı başlanan gündən Kəmalə xanımın qələmindən saysız-hesabsız vətən, əsgər, qazi, şəhid yazıları, nəğmələri, şeirləri və məqalələri mətbuata yol açıb. Həmin qələm məhsulları ürək ağrısı ilə, bir valideyn nisgili ilə yazıldığından hər bir yazının ünvanı oxucuya, şəxsən mənə təsəlli ilə yanaşı, qürur da gətirib.




"Bakı şəhidləri" (İkinci Qarabağ savaşı) kitabında Bakıda doğulub, Bakıdan torpaqlarımızın azad edilməsi uğrunda gedən döyüşlərə qatılan 21 şəhid haqqında məqalə, ellegiyadı. Kitab dəyərli yazıçı-publisist, şairə Aysel Əlizadənin redaktorluğu ilə işıq üzü görüb. Burda xüsusi vurğulamaq yerinə düşər ki, kitabda barəsində Kəmalə xanımın kövrək duyğuları yer alan qəhrəmanlarının hamısının rəngli şəkilləri oxuculara təqdim olunub. Həmin şəkillərdən bu günümüzə boylanan və mənalı baxışları ilə bizə ürəyini açan qəhrəmanların hamısı bir-birindən cavan, bir-birindən yaraşıqlı və bir-birindən də məğrur igidlərdi. Onları birləşdirən isə Vətən, bir də Üçrəngli bayrağımızdı. Məhz o üçrəngli bayrağın Vətənin bütün guşələrində dalğalanması üçün həmin igidlər döyüşə atılıblar.

"Elm və təhsil" nəşriyyatında işıq üzü görmüş bu kitabın bütün şəhidlərimizə Kəmalə xanımın bir ehtiram nümunəsi olduğunu birmənalı qəbul edərək vurğulamaq istəyirəm ki, Kəmalə xanım şəhidlərimizlə bağlı bütün yazılarında sonluq kimi Vətəni və bayrağı başımızın üstünə qaldırır. Bu da o deməkdir ki, qanları bahasına Vətəni və bayrağı başı üzərinə qaldıran oğullar sevgiyə, ehtirama, əbədiyaşarlığa layiqdirlər. Bunun üçün isə ən vacib olan şərt onları tanıtmaq, onları sevdirmək və onların bizə əmanət etdikləri Vətəni və Bayrağı yenilməz etməkdir. Əminəm ki, bu istək həmişə və hər kəsdə zaman-zaman var olacaqdır.

Çox hörmətli Kəmalə xanımın bu yeni kitabını təbrik və təqdim etməklə ona yaradıcılıq uğurları, can sağlığı, şəhidlərimizə Allahdan rəhmət, qazilərimizə ürəklərincə həyat arzulayıram.

Əbülfət MƏDƏTOĞLU

## *Çoxuşaqlı ailələrin nəzərinə: Uşaq pulu...*



**"Çoxuşaqlı ailələrə görə hər hansısa yardımın edilməsi nəzərdə tutulmur".**

Adalet.az xəbər verir ki, bu sözləri iqtisadçı ekspert Xalid Kərimli deyib.

Onun sözlərinə görə, bu yardım çox güman ki, gələn il də həyata keçirilməyəcək.

"Amma çoxuşaqlı ailələr ünvanlı sosial yardım ala bilərlər. Yeni hökumət bu cür yardımları fərdi ünvanlı sosial yardım formasında həyata keçirir". - deyə o bildirir.

Ekspert qeyd edib ki, fərdi ünvanlı sosial yardımın nə cür hesablayır, ailə üzvlərinin sayı ehtiyac meyarına görə uyğunlaşdırılır.

"2024-cü il üçün 270 manat, 2025-ci il üçün isə infilyasiyaya uyğun olaraq artırılacaq.

**Hazırda uşağın sayına görə, uşağın anadan olmasına görə, uşaq pulu adı ilə hər hansı bir kompensasiya nəzərdə tutulmayıb, nəzərdə tutulmayacaq və nəzərdə tutulması da doğru deyil. Çünki ölkənin əhalisinin sayı çoxdur, mövcud əhalinin həyat səviyyəsini yaxşılaşdırmaq məsələsi var, eyni zamanda demoqrafik artım var. Ona görə də uşağın sayının artımına subsidiyalaşdırmır və doğru da deyil. Ehtiyacı olan hər kəs üçün ünvanlı sosial yardım şəklində dövlət dəstək olur", - deyə o, fikirlərini yekunlaşdırıb.**

Allahverdi Eminov



# Məmməd Araz poeziyasında Zamanla Dövr arasında adekvatlıq

*IV məqalə*

**Bu yaradıcılıq prosesində bir harmoniya qurulur, şeirlərini subyektiv illüziyalardan kənarda saxlayır, beləliklə, şeir janrına xas rəmzləşdirmə daha qabarıq üzə çıxır. Şairlə dövr arasındakı qeyri - adekvatlıq qarşı-qarşıya dayanır. "Vəsiyyət" şeirində kədər qara rəngə boyanır və şairin ömründən keçir. Nə üçün qara rəng? Olmaya bu rəngi müəllif rəmziləşdirmişdir? Qara torpağa qovuşacaqdır?**

***Mən o rəngi sevərdim***
***Boynu bükülü dərdim.***
***Pardaxlı sevincim***
***O rəngdə geyinərdi,***
***Mən o rəngi sevərdim***

Müqəddəs qara torpaq altında şair fövqəl inamını ifadə edir, amma qara rəngə təslim deyil, çün şairdə nikbinlik, ilahi möcüzəyə inamı var:

***Daha nə deyim,***
***Qoy mən***
***Qara torpaq üstündə***
***Üfüqə doğru gedən***
***Ağ yola bənzəyim***

Məmməd Araz üçün poeziya bir taledir, ürəyinin sirlərini açmasıdır, ənənəvi mənada istiladır. Poeziya insanla Dövr, Zaman arasında körpüdür, tam uyğunluq yaradan vasitədir, maddiyyatdır, inamı oyadan möcüzədir, oxucusunu insanlığa çağırır.

Məmməd Arazın "Duman ömrü" şeirinin zahiri səslənməsində mübhəm, mifoloji mətləblər görünmürsə, şairin poetikası realist, adekvat rəmzi işarələrə yad deyil, tam simvolizmdə axtarmağa da ehtiyac yoxdur. Şeiri mif yaradıcılığına şamil etmirəm, ona görə ki, M.Araz qarşısına "mif nümunəsi" yaratmaq məqsədini qoymamışdır. Müəllif həyatından bezməmişdir, əsla! Qayəsinin ilk cizgilərini çatdırmışdır:



***Ölüm istəyirəm. Qəfil bir ölüm,***
***Bir kibrit ölümü.***
***Barıt ölümü.***
***Bir anda bir ovuc dumana dönüm,***
***İstədiyim səmtə tutum yönümü***

Bu müraciətdən sonra Dünyanın - Təbiətin seyrinə çıxsın. "Bir axşamın balladası", "Salyeri", "Qəfil" və digər şeirlərində şair gerçəkliyin varlığında tam reallığı - həqiqəti axtarmışdır, bəşəri düşüncələr yer almışdır, intellektual yanaşmalar poetik təsviri tamamlamışdır.

Məmməd Araz xeyirxah əməldən sevinən, qürurlanan şairdir - şahidiyəm. Əxlaqi həzz almaq sosial yanaşmanın meyarı olmuşdur tarixən. Səadət - evdemonizm (qədim yunan sözüdür) əxlaqi nemət insan səadətini təşkil edir. Şair "Bir ağac yıxıldı" şeirində sosial motivlərin sıfıra dəyişməsini təsvirə gətirir:

***Bir ağac yıxıldı yol qırağında,***
***Bir hənir yox oldu yol qırağında.***
***Bir igid qaməti gərildi yerə.***
***Bir gəlin saçları sərildi yerə.***
***Bir budaq ağladı hey xısın-xısın,***
***Tutuldu gözləri o yetim qızın,***
***Qurucu qurğular maraq itirdi,***
***Balalı sərçələr qoruq itirdi***

Faciə deyilmi? Bəlkə də yüz, üç yüz ilin yaşıdıdır bu ağac, üstəlik neçə-neçə quşun yuvasına həyan durmuşdur... Bir vaxt bu ağacın kölgəsində tumarlananlar, xumarlananlar özlərini görməməzliyə vurmuşlar.

***Kökü əziləndə titrəməsindən,***
***Zoğu kəsiləndə büdrəməsindən,***
***Zövq alıblar...***

Əsl evdemonizm canlı üzərində qurulan faciədən səadət ummaqdır, qısa müddətdə həzz almaqdır. "Bir ağac yıxıldı" şeirinin poetikasında faciədən gəlmə səadətin, həzzin üç (3) mənbəyini yozmaq olar: Birincisi, ümumi səadətdir. İkincisi, fərdin özünün səadətidir. Üçüncüsü, insan təbiətinə xas tələbatdır.

Məmməd Araz poeziyasında müşahidəsindən doğan adekvatlıq hadisələrin və əhvalatların poetik faktda inikası, mənəvi varlığın duyulması və məftunluğu, bədii obraza müəllifin münasibəti real aləmi əyaniləşdirir. Fizioloq İ.P.Pavlov yazırdı ki, bəzi təfəkkürə meyl göstərənlərin mühüm keyfiyyətləri ondadır - onlar varlığı bütöv şəkildə, hisslərə bölmədən qavrayırlar və təsvir edirlər.

M.Araz yaradıcılığında şah əsərini görmür, hesab etmir, suallarını əsirgəmir.

***Nə yazdım, neylədim?***
***Harayım, səsim***
***Barı, bir ürəkdə qala bildimi?***
***Mənim bir planet olmaq həvəsim***
***Bir peykin peyki ola bildimi?***

***Hanı söz meydanım,***
***Çaparlıq şanım?***
***Yoxsa bir köhlənin qırıq nalıyam***
***Niyə Füzulidən Allah nişanı***
***Səmədtək vurğunluq almamalıyam?***

Bu şeirin təvazökarlığına empirik yanaşmaq istəməzdim, çünki Məmməd Araz şeiri emosionallıqla intellektuallığından yaranmışdır. Məmməd Araz üçün Söz estetik idealın bədii şərh üsuludur, sənətin obrazlılıq təbiətinin bir atributudur, şair coşğunluğunun ruh yüksəkliyidir. Belədir ki, şairin poeziyasında həyat - gerçəklik adekvatlıq kəsb edir. "Eyham" şeiri, məncə, qabaqcadan oxucuya nəyisə pıçıldayır, şair üçün Söz necə təsirlidirsə, sərras deyilir:

***Kürsü - ağılların qalxdığı zirvə,***
***Söz də ağılların bəhəri üçün...***
***Sən sözü alçatdın özündən əvvəl,***
***Alçatdın bir ağız "afərin" üçün.***

***Həqiqət sözüdür sözün Allahı,***
***O,qala uçurdu, o, qala qurdu***
***Gətir xəyalına Xətai şahı,***
***Qılınca hökmran, qələmə quldu.***

***Hündürlər çox idi Vaqif dağından,***
***Sənət ucalığı uca dağ oldu,***
***Sözü ayaqlara atmadığından***
***Özü vəzir oldu, sözü şah oldu.***

Bəli, "Eyham - dünən üçün, bu gün üçün tarixdir, yaddaşın təkamülüdür.

Məmməd Arazın poeziyası fəal estetik və intellektual qüvvədir, şeiri hərəkətdir - belə yanaşıram, bəzi qəliblərdən, standartlardan uzaqlaşdı, məhdudiyyətləri açdı, sonralar poeziyanın imkanlarını adladı, fikrin obrazlarını üstün tutdu. Şair, o "Səni axtarıram", "Sevgi nəğməsi", "Ayrılıq", "Xatirələr", "Necə unudum səni", "Sən getdin" kimi şeirlərini qələmə aldı. Məmməd Araz poeziyası kəhkəşan yolun göy işığından tutub əsrimizə yol gəlir və daha sonrakı əsrlərə çatacaqdır.

# Mən sənə sözümü dedim, ay ölüm...

**Bu, bir həqiqətdir ki, söz adamları özlərini sözdə tapdıqları kimi, elə söz ilə də bölüşürlər. Yəni hamıdan gizlətdiklərini və yaxud da hamıya demək istədiklərini sözün vasitəsi ilə istər yazılı, istər şifahi şəkildə bəyan edirlər. Bu mənada söz həmişə yaşayır, həmişə dipdiri olur. Deməli, sözün əbədiyaşarlığı da burdan qaynaqlanır!..**

Yaşadığım bu illər ərzində ən çox təmasda olduğum söz adamlarıdı. Kimiilə üz-üzə, kimi ilə də söz-sözə görüşüb hal-xoş edirəm, dərdləşirəm.

Bəzən həmin sözlərin axarında özümü unuduram, bəzən də elə sözlər olur ki, ona tərəf baxmaq belə istəmirəm.

Çünki o sözü işlədən, o sözlə fikrini ifadə edən adam sözü elə bir formaya, elə bir hala salır ki, ondan söz əsər-əlaməti qalmır. Çeynənib, tapdalanıb, şil-şikəst olub. Ona görə də heç nəyə yaramır. Əksinə, oxuyanda, dinləyəndə ( adam ən yaxşı halda - Ə. M.) səbrini dişi ilə sıxıb keçib gedir, ya da yazılası mümkün olmayan nəyisə dilinə gətirir

Azərbaycanda hələ Sovet dönəmindən öz qələmi ilə oxucu diqqətini çəkən istedadlı adamların sırasında onun da adı olub. Əyalətdə yaşasa da, yazıları ilə, istər publisist, istərsə də bədii yazıları ilə sanki cəmiyyətə bir təzə söz mesajı verib. Xatırladıb ki, onun da ürəyin də özəl fikirlərin və bir də həyata baxışının söz çələngi var. Bu söz çələngini görmək, duymaq, ətrindən ləzzət almaq üçün arada imkan tapıb onu da dinləmək xoş olar. Bax, elə bu istək ilə də yazıb! Yazdığını da sonra bir neçə kitabda oxucu qarşısına çıxarıb.

Amma heç vaxt özünü iddialı, şair kimi, yazıçı kimi "ortaya atıb" narahatlıq yaratmayıb. İçdən gələn səmimiyyətlə demək olar ki, Ramiz İsmayıl qulpundan yapışdığı işin ustadı olmaq ilə də yanaşı yazdığı sözün yükünü daşıyan ziyalı kimi davranıb həmişə. Ona görə də sözü də, elə özü də el dilində desək, urvatlı, ləyaqətli olubdu.

Tez-tez zəngləşirik, hal-xoş edirik, özümüzdən, ailəmizdən danışırıq, qayğılarımızı, bəzən də yaradıcı fikirlərimizi bölüşürük. Hər sözümüzün sonunda da bir-birimizə görüş vəd edib yenə başımızı qatırıq, ağrılarla və qayğılarla.

Bir neçə gün öncə yenə zəngləşdik, daha doğrusu, Ramiz müəllim zəng vurmuşdu.

Həmişəki qaydada söhbətləşdik, sağollaşdıq. Amma mənim yaddaşıma hardasa onun bir misrası ilişib qalmışdı.

Ona görə də kitab rəfimə üz tutub həmin misranı vərəqləyib tapdım. Ramiz müəllimin 2010-cu ildə yazdığı "Ölüm" şeirindən idi o misra. Bilmirəm, yaşımla, yoxsa əhval-ruhiyyəm ilə bağlı idi bu şeirin "Mən sənə sözümü dedim, ay ölüm" misrasının yaddaşımda ilişib qalması. Amma hər nə idisə, tutmuşdu məni bu misra. Ona görə də təkrar oxudum həmin şeiri.



Ramiz İsmayıl yazıb ki:

***Nifrət eləmirəm mən sənə ölüm,***
***Əzrayıla rəğbət bəsləməsəm də.***
***Ölmək istəmirəm, kim istəyir ki***
***Amma öləcəyəm, istəməsəm də.***

***Ölmək istəmirəm yay günlərində,***
***İstidən təntiyər, yanar adamlar.***
***Ölmək istəmirəm qarda, boranda,***
***Soyuqdan, şaxtadan donar adamlar.***

***Ölmək istəmirəm bahar gələndə,***
***Torpaq yuxusundan oyanan zaman.***
***Bülbül cəh-cəh vurub çaylar daşanda,***
***Çəmənlər al rəngə boyanan zaman.***

***Payızda ölməyə dəyərmi, söylə?***
***Varı, bərəkəti bol olan vaxtı.***
***Mən sənə sözümü dedim ay ölüm,***
***Nə vaxt gələcəksən, özüm bax da!***

Bəli, bu misralar əslində hər kəsin düşündüyü, hər kəsin içindən keçirdiy duyğuların Ramiz İsmayıl sözüylə ifadə olunmasıdı.

Ramiz İsmayıl qələmə ilə yazılmasıdı. Çünki fərd olaraq hər birimiz ölümlə bağlı mütləq nələrisə düşünürük.

Amma toplum halında, cəm şəklində bunu bir şeirdə oxucuya çatdırmaq indiki anda Ramiz İsmayılın çiyninə götürdüyü yükdü. Yəni o, bizim fərd olaraq ayrı-ayrı detallarının işarələdiyimiz ölümü özünün baxış bucağı altında bütöv bir rəsm kimi çəkib qoyub ortaya. Və deyir ki, mən sənə sözümü dedim ay ölüm!...

Bəli, Ramiz İsmayıl sözünü deyib. İndi babalı ölümün boynundadı. Heç kimin qaçıb qurtula bilməyəcəyi ölümün boynundadı. Biz oxucular isə özözlüyümüzdə Ramiz İsmayıla qoşulub deyə bilərik. Biz sənə nə deyərik, ay ölüm!

**Əbülfət Mədətoğlu**

## Bağçalarda tətil günlərinin vaxtı açıqlandı

**8-13 noyabr tarixlərində məktəbəqədər təhsil müəssisələri fəaliyyət göstərməyəcək.**

Adalet.az xəbər verir ki, bunu Məktəbəqədər və Ümumi Təhsil üzrə Dövlət Agentliyinin şöbə müdiri İlahə Rəsulova deyib.

O bildirib ki, bağçalar fəaliyyətini 14 noyabrdan davam etdirəcək.

Qeyd edək ki, bu ay Azərbaycanda ardıcıl 6 qeyri-iş günü olacaq. Nazirlər Kabinetinin müvafiq qərarına əsasən, iş və istirahət günlərinin ardıcıllığını təmin etmək məqsədilə 2024-cü il 12 və 13 noyabr iş günləri ilə müvafiq olaraq 16 və 23 noyabr istirahət günlərinin yerləri dəyişdirilib. 8 noyabr Zəfər günü qeyri-iş günüdür. 9 noyabr Azərbaycan Respublikasının Dövlət Bayrağı günü, iş günü hesab edilməyən bayram günüdür. Bu il 9 noyabr şənbə gününə təsadüf etdiyi üçün Əmək Məcəlləsinə uyğun olaraq gələn həftənin bazar ertəsi - 11 noyabr qeyri-iş günü olacaq. Beləliklə, iş və istirahət günlərinin yerinin dəyişdirilməsi ilə əlaqədar 6 gün - 8, 9, 10 (bazar günü), 11, 12 və 13 noyabr qeyri-iş günü olacaq.



# Zəfər yolum - Füzuli

## Vətənə yol əsgərdən keçir

*Mirqiyas Seyidsoylu*

**Əziz oxucu! Yəqin yazının başlığını oxuyan zaman bunun bir bədii ifadə vasitəsi - mübaliğə olduğunu fikirləşəcəksiniz. Əslində isə bu nə mübaliğə, nə də bir müəllif uydurmasıdır.Sadəcə mən istənilən yazını işləyəndə və öz fikirlərimi ifadə edəndə mütləq reallığa və faktlara əsaslanmağa çalışıram. ”Vətənə yol əsgərdən keçir” adlı yazımda olduğu kimi...**

Döyüş nizamnaməsinə görə, istər müdafiə, istərsə də hücum döyüşləri zamanı əsgərlə əsgər arasında 10 metrə qədər məsafə olmalıdır. Vətən torpaqlarına işğalçılıq məqsədi ilə təcavüz etməyə cəhd göstərən düşmən ilk növbədə, sərhədboyu müdafiə səngərlərimizdə 10 metrdən bir dayanmış əsgərlərimizlə qarşı-qarşıya gələcək. . Düşmən verilmiş tapşırığı yerinə yetirmək üçün hər 10 metrdən bir səngərdə dayanmış Azərbaycan əsgərini zərərsizləşdirərək onun cəsədi üzərindən keçməlidir. Hücuma məruz qalan tərəfin əsgəri isə dözüm və inadkarlıqla döyüşərək, yağı düşmənin canlı qüvvəsini və texnikasını məhv edərək onu geri çəkilməyə məcbur edir. Əgər əsgər taktiki cəhətdən cəld və çevik, fiziki olaraq möhkəm və qüvvətli, atıcı kimi səbrli və mahirdirsə, silah və texnikanın istifadəsində mükəmməldirsə, siyasi cəhətdən ayıq-sayıq, prinsipial və mənəvi olaraq vətənpərvərdirsə, bax o zaman o, psixoloji olaraq mükəmməl formada döyüşə hazırdır. Mənəvi-psixoloji, fiziki və taktiki cəhətdən döyüşə hazır olan əsgər ruhən özünü dünyanın ən böyük qəhrəmanı kimi dərk edir, döyüş əməliyyatları zamanı döyüş zolağının diqtə edəni, aparıcı qolu olmaqla yanaşı, həm də örnəyi və sevimlisidir.

Oxucular üçün maraqlı olan bu mövzuda uzun illər şəxsi heyətin mənəvi-psixoloji təminat sahəsində bir yerdə xidmət etdiyimiz, böyük təcrübəyə və hərbi elmi biliyə malik olan, mənim yaxın dostum general-mayor Elman Orucovla müzakirə apardıq. O, döyüşçülər arasında döyüş zolağında olan 10 metrəyə qədər məsafəni hərbi-elmi cəhətdən qısa olaraq belə izah etdi: ”Hərbi-elmi taktika bölməsinin akademik hesablamalarına görə, döyüş meydanında verilən tapşırığı yerinə yetirmək üçün hücum edən bölmənin döyüşçüləri arasında ara məsafəsi 10 metrə və daha çox olan zaman döyüşçünün sağ qalma və verilən döyüş tapşırığını yerinə yetirmə ehtimalı artır. Bu ara məsafəsi müdafiə olunan bölmənin atəş sıxlığından asılıdır. Akademik hesablamalara görə atəş sıxlığı müdafiə olunan bölmənin şəxsi heyətinin və atıcı silahlarının sayından asılıdır”.

Bu mövzuda şəxsi heyət qarşısında mühazirə söyləyən zaman həmişə demişəm və bu gün də deyirəm ki, ölkəmizin müdafiəsində fiziki və əqli cəhətdən sağlam olan hər bir kişi vətəndaşa bu ölkədə 10 metrə qədər torpaq payı düşür. Elə buna görə ölkə vətəndaşı olan hər bir kişi onun payına düşən bu 10 metrə qədər torpaq payını qorumaqda borcludur. Əslində, bu fikri mən yox, döyüş nizamnaməsi, döyüş təlimatları deyir və əsaslandırır.

Tarixə nəzər salanda görürük ki, torpağın, Vətənin, millətin, dövlətin taleyi həmişə cəsur döyüşçülərin, ağıllı sərkərdələrin, müdrik dövlət başçılarının, uzaqgörən siyasətçilərin çiyinləri üzərində daşınıb və daşınır. Dünyanın böyük fatehlərindən biri olan Çingiz xan döyüşən əsgərin psixoloji olaraq döyüşə hazır olmağının sirrini belə qiymətləndirirdi: ”Bir mıx bir nalı, bir nal bir atı, bir at bir sərkərdəni, bir sərkərdə bir ordunu, bir ordu bir dövləti saxlayır”. Yəni, bir dövlətin sarsılmazlığı və qüdrəti hər bir əsgərin ayrı-ayrılıqda döyüşə hazırlığı, təminatı və təchizatından asılıdır. Bu gün biz bunu başqa formada ifadə edirik. Belə ki, yüksək döyüş hazırlıqlı, hərtərəfli təmin və təchiz olunmuş əsgərin hazırlıq tədbirlərini mənəvi-psixoloji təminat adlandırırıq. Əsgər torpaq qədər müqəddəsdir, çünki torpaq üzərində onun qanı tökülür. Torpaq öz gücünü, qüdrətini, dəyərini əsgərdən, əsgər qanından, əsgər dəyanətindən alır. Vətənin şərəfi də, şöhrəti də məhz belə oğullar, belə qəhrəmanlardır. Ümummilli liderimiz Heydər Əliyev deyirdi: ”Əgər qan tökülmürsə, o Vətən Vətən deyil, şəhid olmasa, o Vətən müstəqil ola bilməyəcək”.

Vətənimizin, millətimizin, dövlətimizin müstəqilliyi onun ərazi bütövlüyü uğrunda minlərlə oğul və qızlarımız öz arzu-istəyini, amalını qurban verərək canından keçib. Körpə bir uşağın dilində ilk dəfə səslənən ”ana” sözü nə qədər şirin və ecazkardırsa, hər bir əsgər tərəfindən qürurla səslənən ”Vətən” sözü də bizim üçün onun qədər doğma və əzizdir.

Ermənilər xarici havadarlarının dəstəyindən ruhlanaraq Qarabağda Azərbaycana qarşı elan olunmamış müharibəyə başlamışdılar. Avropadan və Yaxın Şərqdən gətirilmiş terror qruplaşmaları qonşu kəndlərə basqınlar edir, günahsız insanları öldürür, girov götürür və dəhşətli vəhşiliklər törədirdilər. 1992-ci il aprelin ilk günlərində bütün beynəlxalq hüquq və qanun normalarını pozaraq, Hadrut rayon Tarix-diyarşünaslıq muzeyinin direktoru, Daşnakstyun partiyasının fəallarından olan, qatı millətçi Levon Mıkırtıçyanı qondarma ”Qarabağ Resublikası”na prezident seçdilər. O dövrdə Qarabağda separatçılıq edən siyasət dəllaları Robert Köçəryan, Serjik Sarkisyan yenicə prezident seçilmiş ”rəqiblərini” bərk qısqanırdılar. Elə bu səbəbdən arzuolunmaz rəqiblərini aradan götürmək üçün hiyləyə əl atdılar.

Belə ki, 1992-ci il aprel ayının 10-dan 11-nə keçən gecə səhər saat 5:00 radələrində erməni terrorçu-quldur dəstələri yeni seçilmiş ”prezident”in rəhbərliyi ilə Füzuli rayonunun Cəmilli kəndinə qəflətən hücuma keçdilər. Düşmənin Cəmilli yaşayış məntəqəsində hucuma keçməkdə məqsədi kəndi ələ keçirməklə qonşu Qacar kəndini mühasirə vəziyyətinə salaraq onun işğalını asanlaşdırmaq və bununla da Qırmızıbazar qəsəbəsinin etibarlı müdafiəsini təmin etmək, Füzuli-Şuşa meşə yolunu bağlamaq idi.Amma...

Həmin dövrdə Füzuli rayonunun müdafiəsini təşkil və təmin edən yeganə silahlı qüvvə Füzuli Ərazi Özünümüdafiə taborunun bölmələri və o cümlədən Füzuli Polis şöbəsinin əməkdaşları idi.

Füzuli Ərazi Özünümüdafiə Taborunun bölmələri, yüzlərlə, minlərlə füzulili tabor komandiri mərhum polkovnik-leytenant Mobil Yusifovun rəhbərliyi altında əks-hücuma keçdi. Gün ərzində qanlı döyüşlər aparıldı. Döyüşçülərimiz düşmən üzərində üstünlüyü ələ alaraq döyüşün qəhrəmanına çevrildi. Ağır zərbələrə məruz qalan düşmən onlarla canlı qüvvə itirdi, döyüşçülərimizin güclü və əzmkar müqaviməti ilə üzləşib geri çəkildilər. Daha doğrusu, 1988-ci il hadisələri başladığı gündən ilk dəfə idi ki, düşmən ağır sarsıdıcı zərbə aldı və darmadağın edildi.

Düşmənin bölük dayaq məntəqəsindən döyüşü seyr edən ”prezident” Levon Mıkırtıçyan döyüşçülərimiz tərəfindən endirilən ağır və sarsıdıcı zərbələr nəticəsində ölümcül yaralanmışdır. Həmin gün ilk dəfə idi ki, erməni terrorçu dəstələri məğlub edildi. Onlar döyüşdə xeyli canlı qüvvə, silah və zirehli texnikanın itkilərinə məruz qaldılar. Döyüşçülərimiz xeyli silah-sursat və bir ədəd ”BTR-60” zirehli maşını qənimət olaraq ələ keçirmişdilər.

Bizim tərəfdən də Azərbaycanın Milli Qəhrəmanı Pəhlivan Fərzəliyev və onunla bir neçə nəfər döyüşçümüz qəhrəmancasına şəhid oldu. Ancaq əldə olunmuş qələbə şəxsi heyət arasında mənəvi-psixoloji təminatın yüksəlməsində güclü təsir göstərmiş, böyük ruh yüksəkliyi yaranmışdı. Həmin günün səhəri Füzuli Rayon İcra Hakimiyyətinin başçısı Aslan Mehdiyev bu döyüşün qəhrəmanlarına öz təşəkkürünü bildirdi.

Uğurlu qələbədən iki gün sonra tabor komandiri polkovnik-leytenant Mobil Yusifov taborun şəxsi heyəti ilə yığıncaq keçirərkən bildirdi ki, ”11 aprel günü bizim üzərimizə döyüşə gəlmiş qondarma Qarabağ Respublikasının ”ilk prezidenti” Levon Mıkırtıçyan həmin gün ağır yaralanıb. Bu gün isə aldığı yaraların nəticəsində xəstəxanada ölüb. Erməni KİV-ləri bu məsələni ört-basdır etməyə çalışır ki, guya ona iş otağında sui-qəsd edilib. Ancaq bizə sızan kəşfiyyat məlumatına görə o, bizim döyüşçülərimiz tərəfindən 11 aprel günü əks-hücum döyüşlərində zərərsizləşdirilib”. O, sonra dedi: ”11 aprel 1992-ci il tarixində bizim Ərazi Özünümüdafiə Taboru tərəfindən Cəmilli-Qırmızıbazar istiqamətində aparılmış əks-hücum döyüşlərində iştirak edən bütün döyüşçülərə əzmkarlıq göstərərək düşməni məhv etdiklərinə görə hər birinə öz adımdan təşəkkür edirəm”.

2020-ci il sentyabr ayının 27-si idi. Ölkəmizin mərkəzi Bakı şəhərindən Qarabağa qədər bütövlükdə Azərbaycan xalqı yekdilliklə ayağa qalxaraq əyninə əsgər paltarı geyinib, əlinə silah alıb əsgər olmuşdur. Çünki düşmən 2020-ci il sentyabr ayının 26-dan 27-nə keçən gecə şimalda Murov dağından, cənubda Araz çayına qədər olan ərazilərimizdə işğalı daha da genişləndirmək məqsədi ilə hücuma keçmiş, bunun üçün müdafiə mövqelərimizi ələ keçirməyə cəhd göstərmiş və cəbhə xəttinə yaxın olan yaşayış məntəqələrimizi reaktiv artilleriya qurğuları ilə atəşə tuturdu. Bu səbəbdən Azərbaycan Respublikasının Prezidenti, Silahlı Qüvvələrimizin Ali Baş Komandanı cənab İlham Əliyev təcavüzü genişləndirməyə cəhd göstərən azğın düşmənə layiqli cavab verilməsi məqsədilə ordu rəhbərliyi qarşısında vacib və ciddi tapşırıqlar qoydu.

Ali Baş Komandandan döyüş əmri ilə ”Dəmir yumruq” əks-hücum əməliyyatına başladı. Ordumuz döyüş cəhbəsinin şimalında Murov yüksəkliyini, şimal-şərqində Suqovuşanı, cənub-şərqində Füzuli və Cəbrayıl rayonlarını, bir neçə yaşayış məntəqələrini düşmənlərdən təmizlədilər.

Vətən müharibəsinin başlandığı ilk anlarda düşmənin Füzuli rayonu Qaraxanbəyli kəndi ərazisində qurduğu ”əfsanəvi”, ”keçilməz”, ”müdafiə” səddi döyüşçülərimiz tərəfindən darma-dağın edildi. Elə ilk şəhidlərimiz də burada oldu.

Həmin günlərdə ”Real TV” və ”Xəzər TV”-nin əməkdaşları məndən müsahibə alırdılar. Jurnalistlər mənə sual verdilər ki, Murov dağının düşməndən azad edilməsi bizdə hansı hisslər yaradır? Mən həmin vaxt belə bir cavab verdim: ”Əvvəllər Murov dağının zirvəsində olanlar yaxşı bilir, Murov dağının zirvəsindən baxanda Azərbaycan bütöv görünür: şimala baxırsan ”Dəmir qapı” Dərbəndə qədər, cənuba baxırsan Təbrizə qədər, Qərbə baxırsan İrəvan, Göyçə, Zəngəzur və Dərələyəz mahalları, şərqə baxırsan Mil-Muğan, Şirvan, Bakıya qədər olan ərazilərimiz göz oxşayır”.

Jurnalist: Füzuli şəhərinin düşməndən təmizlənməsi, döyüş taktikasına görə döyüş əməliyyatlarının uğurlu olması üçün nə qədər əhəmiyyətlidir?

Mən dedim: Füzuli şəhəri Qarabağ coğrafi ərazisinin hərbi deposu və cənub qapısını təşkil edir, o cümlədən döyüş cəbhəsinin şah damarıdır. Artıq şah damar kəsildiyi üçün düşmənin təmir-təxliyyə və təchizat yolları bağlandı, düşmən cəbhədə iki hissəyə parçalandı. Ermənistan Silahlı Qüvvələrinin qoşun hissələrində döyüşü-idarəetmənin itirilməsi vəziyyəti yarandı. Bu döyüşü-idarəetmənin itirilməsi düşmən üçün son demək idi.

Ərazilərimiz haqqında danışdıqca xəyallarım məni çox-çox uzaqlara, uşaqlıq illərimə apardı, ”Qədim ocağın işığında Qarabağ xatirələri” yadıma düşdü. Belə ki, Quruçay vadisinə baxdıqca, yadıma düşdü ki, orta məktəbdə tarix fənnindən bizə dərs deyən, qəhrəman silahdaşımız, 15 avqust 1992-ci ildə Yuxarı Veysəlli kəndi uğrunda gedən döyüşlər zamanı qəhrəmancasına həlak olmuş şəhid qardaşımız, kapitan Elxan Yusifovun atası Bayandır müəllim həmişə deyirdi ki, ”Azərbaycan ərazisində bəşər tarixi Quruçay mədəniyyəti dövründən başlayır”.

Otuz ilə yaxın bir müddətdə yağı düşmən bu yerləri xarici havadarlarının köməkliyi və dəstəyi ilə əsarətdə saxlamağa, ona sahib çıxmağa çalışdı, lakin bacarmadılar. Çünki bu torpağın əsl sahibləri bizik - biz, Oğuz-Bayat türkləri!...

Azərbaycan Respublikasının Prezidenti, Silahlı Qüvvələrimizin Ali Baş Komandanı cənab İlham Əliyev bütün beynəlxalq səviyyəli zirvə toplantılarında həmişə deyirdi: ”Biz Qarabağın müzakirə obyektinə çevrilməsinə heç vaxt imkan verməyəcəyik”, ”Qarabağ Azərbaycandır!”.

Müzəffər Ali Baş Komandanımızın komandanlığı ilə bu gün Azərbaycan xalqı bütövlükdə qüdrətli bir dəmir yumruğa çevrilərək tarixi torpaqlarımızı namərd düşmənlərdən qırx dörd gün ərzində böyük qəhrəmanlıqla azad etdi.

***Şaxta gördün, boran gördün,***
***Qan içində insan gördün.***
***Ölən gördün, qalan gördün,***
***Süründünsə qarış-qarış,***
***Zəfər çaldın, sənə alqış!***
***Əsgər qardaşm, səngər qardaşım!***

Xatirimdədir, 1993-cü ilin yanvar ayının 4-ü idi. Qarabağda ağır döyüşlər gedirdi. Səhərə yaxın ermənilər Füzuli rayonunun Aşağı Veysəlli kəndi istiqamətində qəflətən hücuma keçmişdilər. Bölmələrimiz düşmənə qarşı müqavimət göstərdi. Ağır və qanlı döyüşlər nəticəsində düşmən ağır itkilər verərək geri çəkilməyə məcbur oldu. Düşmən tərəfindən Daşnaksütyun partiyasının fəallarından biri, tabor komandiri, uydurma ”əfsanəvi qəhrəman”ları Şumayis başda olmaqla öldürülən ermənilərin cəsədləri tələfimizdən ələ keçirildi.

Döyüşün sonunda biz şəhid olmuş əsgərlərimizin cənazəsi ilə Aşağı Veysəlli kənd orta məktəbinin qarşısında vidalaşırdıq. Əsgərlərimizin şəhid olması bizi sarsıtmışdı. Mən cənazələr arasında Şəmkir rayonunun Kür qəsəbəsindən olan əsgərimiz Elçin Bağırovu görəndə daha çox kədərləndim. Elçin uşaq ikən hər iki valideynlərini itirmişdi, səmimiyyəti, mədəniyyəti, cəsarəti ilə hamının hörmətini qazanmışdı. O, valideynləri ilə birlikdə Qərbi Azərbaycan torpaqlarından didərgin düşərək müvəqqəti olaraq Kür qəsəbəsində yerləşmişdilər. Onu da qeyd edim ki, Elçin həm də nişanlı idi. Deyirdi ki, müharibə qurtaran kimi toyum olacaq. Sizi də toyuma dəvət edəcəm. Sabiq briqada komandiri, general-leytenant Heydər Piriyev və Füzuli rayon İcra Hakimiyyətinin sabiq başçısı Nofəl Qasımov (oğlu, şəhid baş leytenant Səid Rəşidzadə 2020-ci ilin oktyabrında Hadrut qəsəbəsinin düşmənlərdən azad olunması uğrunda gedən döyüşlərdə qəhrəmancasına həlak oldu. Allah şəhid qardaşımıza rəhmət eləsin!) da şəhidlərimizlə vida mərasimində iştirak edirdi.

**3-cü bölüyün feldşeri Zülfi mənə yaxınlaşıb əsgər Elçin Bağırovun cənazəsini göstərib hüznlü şəkildə dedi: ”Heç bilirsiz nə olub?” Mən dedim: Nə olub? O, danışmağa başladı. Bu gün səhər ”qalx” komandasından sonra əsgər Elçin Bağırov mənə yaxınlaşıb dedi ki, ”Zülfi əmi, səhərə yaxın maraqlı bir yuxu görmüşəm”. Mən ondan soruşdum ki, nə görmüsən? Elçin dedi ki, ”Yuxuda gördüm ki, Aşağı Veysəlli kənd orta məktəbinin qarşısında bütün əsgər yoldaşlarım və komandirlərim mənə toy edirdilər. Gördüm ki, valideynlərim də yanımdadır. Hamı məni təbrik edir, xeyir- dua verirdi. Mən ətrafıma baxıb fıkiləşdim ki, yaxşı bunlar məni hansı qızla evləndirirlər və o qız kimdir, haradadır? Mən yanımdakı adamlardan və əsgər yoldaşlarımdan soruşdum. Bəs mənim gəlinim hanı? O kimdir? Heç kim mənə cavab vermir və qarma-qarışıq şəkildə rəqs edirdilər. Mən bir də ətrafıma baxdım, görüm mənimlə toyu olan qız kimdir. Bu zaman məktəbin damındakı bacadan ağ gəlinlik duvağında bir qızın mənə baxaraq gülümsəyə-gülümsəyə əl etdiyini gördüm. Mən onu çağıraraq, sən orada nə edirsən, gəl yanıma dedim. Lakin o, ağ duvaqlı gəlinlik geyimində olan qız, sanki nə məni görür nə də eşidirdi. O, gülə-gülə mənə əl edir və məni yanına çağırırdı. Sonra o, məktəbin damındakı bacanın qapısını örtərək yox oldu. Bu zaman mən yuxudan oyandım, gördüm ki, qan-tər içindəyəm. Bu yuxunun mənası nədir?” Mən ona dedim ki, ”Allah xeyirə calasın, toy, şənlik görmüsən. Yaxşı olar.”**

**(ardı var)**

### *Əlicançay su anbarında tikinti işləri nə yerdədir?*



**Son illərdə ölkədə su ehtiyatlarından səmərəli istifadənin və su təsərrüfatı obyektlərinin idarə olunmasının təkmilləşdirilməsi, müasir tələblərə cavab verən meliorasiya və su təsərrüfatı obyektlərinin qurulması, eləcə də bu sahədə uçot və nəzarətin təkmilləşdirilməsi istiqamətində ardıcıl tədbirlər görülür.**

Adalet.az xəbər verir ki, bununla yanaşı, son dövrlərdə müşahidə edilən qlobal iqlim dəyişikliyi, dünyada orta temperaturun yüksəlməsi, əsasən qonşu ölkələrdən daxil olan yerüstü su ehtiyatının azalması, digər tərəfdən, suya tələbatın artması məhdud su ehtiyatlarına malik olan ölkəmizdə su ehtiyatlarının artırılması və sudan səmərəli istifadə üçün təxirəsalınmaz tədbirlər görülməsini zəruri edib. Bu məqsədlə Prezident İlham Əliyevin tapşırığına əsasən ölkəmizdə su ehtiyatlarından səmərəli istifadənin təmin edilməsi ilə bağlı Dövlət Su Komissiyası yaradılıb. Baş nazirin müavini Şahin Mustafayevin rəhbərlik etdiyi Dövlət Su Komissiyası tərəfindən ölkə ərazisində təsdiq olunan tədbirlər planına uyğun bir sıra işlər uğurla həyata keçirilir və davam etməkdədir.

Tədbirlər planına uyğun olaraq həyata keçirilən layihələrdən biri də Əlicançay su anbarının tikintisidir. Azərbaycan Dövlət Su Ehtiyatları Agentliyi su anbarının tikintisinə Prezident İlham Əliyevin ”Əlicançay su anbarının tikintisi haqqında” 2023-cü il 28 iyul tarixli Sərəncamına əsasən başlayıb. Anbarın yaradılmasında əsas məqsəd su ehtiyatlarından səmərəli istifadənin təmin edilməsi, su ehtiyatlarının artırılması və dağ çaylarından gələn suların toplanmasıdır. Əlicançay su anbarının ümumi su tutumu 108 milyon kub, çay hövzəsində qurulan bəndin qaşı üzrə uzunluğu 314,74 metr, hündürlüyü isə 49 metr-dir. Anbar tikilib istifadəyə verildikdən sonra Şəki və Qax ərazisində 3483 ha əkin sahəsinin su təminatı yaxşılaşacaq, o cümlədən 29517 ha yeni torpaq sahəsi su ilə təmin olunacaq. Ümumilikdə 33000 ha əkin sahəsinin su ilə tam təmin olunacaq. Şəki və Oğuz rayonları ərazisində yerləşən su anbarında tikinti işlətinin yerinə yetirilməsi üçün hazırlıq işləri tamamlanmış, göl ərazisinin təmizlənməsi, dib suburaxanın xəndəyinin, bənd özülünün, gil, qum-çınqıl karxanalarının üst qatının və sel sutullayıcısının qazma işləri davam edir.

## Bakı metrosu COP29-un ilk günlərində sərnişinlərini 1 saat tez qəbul edəcək

**BMT-nin İqlim Dəyişikliyi üzrə Çərçivə Konvensiyasının Tərəflər Konfransının 29-cu sessiyasının (COP29) ilk 3 günündə (noyabrın 11-13-də) "Bakı Metropoliteni" QSC-nin stansiyaları sərnişinlərin girişi üçün səhər saat 05:00-da açılacaq.**

Adalet.az "Report"a istinadla xəbər verir ki, bunu səhmdar cəmiyyətinin rəis müavini Hidayət Məmmədov bayram və COP29 günlərində metronun fəaliyyətinə dair brifinqdə deyib.

Onun sözlərinə görə, bu addım COP29 Əməliyyat Şirkətinin müraciətinə əsasən atılacaq.

"Dünyanın ən mötəbər tədbirlərindən biri - COP29-la əlaqədar metroda gücləndirilmiş iş rejiminin xüsusiyyətlərinə dəyi-



şiklik ediləcək. Rəhbərlik və əməkdaşların ənənəvi növbətçilik cədvəlindən əlavə olaraq, stansiyalar və sahələr üzrə təhkim olunmuş əlavə işçi qüvvəsi ayrılacaq.

Əsas məqsəd ehtiyac yarandığı halda sərnişin axını istiqamətlərini tənzimləmək, mühəndis-texniki qurğuların fəaliyyəti ilə bağlı operativ qərarların qəbulunu daha da sürətləndirmək və digər zəruri tədbirləri görməkdir.

Sərnişinlərin COP29 məkanlarına, eləcə də stansiyalara yaxın məsafələrdə yerləşən tarixi-mədəni, sosial-ictimai yerlərə, asudə vaxtın təşkili mərkəzlərinə və sair istiqamətlər üzrə hərəkətini daha rahat təşkil etmək, metrodan istifadə, gediş haqqının ödənilməsi və digər qaydalar barədə maarifləndirmə işini qurmaq məqsədilə 10 stansiyada COP29 Əməliyyat Şirkətinin könüllülər hərəkatının üzvləri növbəli rejimdə fəaliyyət göstərəcəklər", - deyə o qeyd edib.

Rəis müavini əlavə edib ki, noyabrın 11-13-ü ölkəmizdə qeyri-iş günü elan edilsə də, metroda qatarların hərəkət qrafiki adi iş günlərinə uyğun qurulacaq: "3 gün ərzində "Qırmızı xətt"in "Həzi Aslanov" - "28 May" sahəsində qatarların hərəkəti səhər saatlarında 07:00-dan 10:00-a qədər, axşam saatlarında isə 17:30-dan 19:30-a qədər 2 dəqiqə fərqlə təşkil ediləcək.

"Yaşıl xətt" və "Qırmızı xətt"lərin birləşdiyi "28 May" stansiyasından "Dərnəgül" (Yaşıl xətt) və "İçərişəhər" (Qırmızı xətt) istiqamətlərində qatarların hərəkət intervalı 2 dəfə çox olacaq. Bu, metro xətlərinin mövcud texniki xüsusiyyətlərinə görə hazırkı dövrdə adi iş günlərində tətbiq olunan mümkün ən optimal hərəkət qrafikidir".

**Metro rəsmisi, həmçinin diqqətə çatdırıb ki, "Həzi Aslanov" - "28 May" sahəsində interval günorta vaxtı 2,5 dəqiqə, səhər erkən və sərnişinlərin əsaslı şəkildə azalmağa başladığı gecə saatlarına doğru 3 dəqiqə və daha çox təşkil edəcək: "İstirahət günlərində qatarlar arasında interval fərqli qaydada tənzimlənəcək. Belə ki, saat 7:00-dan 21:00-a qədər olmaqla, şənbə günləri 2,5 dəqiqə, bazar günləri isə eyni saatlarda 3 dəqiqə təşkil edəcək. "Bənövşəyi xətt"də qatarlar arasında intervallar "Avtovağzal" - "8 Noyabr" sahəsində 8 dəqiqə, "Xocəsən" - "Avtovağzal" yol mənzilində isə əsasən 16 dəqiqə təyin edilib. "Bakmil" stansiyasına və əksinə qatarların hərəkət cədvəlləri noyabr ayının 11-13-də iş günləri qrafikinə uyğun tənzimlənəcək. COP29-un keçiriləcəyi digər günlərdə qatarların hərəkəti ənənəvi payız-qış qrafikinə uyğun tənzimlənəcək".**


**Kərim Novruzov,**
**Ağdam rayon 95 saylı orta məktəbin tarix müəllimi**




# Günəşdən rəng alan bir saf qanım var, Mənim də yurdum var, qəhrəmanım var!

*Günəşdən rəng alan bir saf qanım var,*
*Mənim də yurdum var, qəhrəmanım var!*

**Böyük Azərbaycan şairi, bütün həyatı boyu Azərbaycan məfkurəsinin şüurlarda həkk olunması üçün yazıb-yaradan Səməd Vurğunun bu sözləri 27 sentyabrda başlayan Vətən Müharibəsinin qələbə ilə başa çatması ilə minilliklərdən gələn tariximizə qızıl salnamə yazdı.**

"Azərbaycan xalqı öz liderinin - müzəffər Ali Baş Komandan İlham Əliyevin ətrafında sıx birləşərək bütün dünyaya öz gücünü, mətinliyini, mübarizliyini nümayiş etdirdi. Bu real faktordur ki, bütün müharibələrdə əsas sözü xalq və onun ordusu dediyi kimi uğurlu zəfərlərdə sərkərdənin də çox böyük rolu olur. Bu gün Azərbaycan xalqı hansı səviyyədə uğurlu sərkərdəyə - Ali Baş Komandana sahib olduğunu aşkar gördü. Prezident İlham Əliyev yalnız hərb meydanında müzəffər sərkərdə deyil, diplomatik cəbhədə böyük strateq nümunəsi ortaya qoydu, informasiya müharibəsində Azərbaycanın haqq səsi oldu, cəsarətlə bütün təzyiqlərə sinə gərdi, öz xalqı ilə vəhdətdə olan lider kimi mübarizlik rəmzinə çevrildi. Sentyabrın 27-dən başlayan, 44 gün davam edən və işğal altındakı ərazilərimizin azad olunması ilə nəticələnən Vətən müharibəsi tariximizin ən parlaq səhifəsinə, Azərbaycan xalqının iftixar və qürur mənbəyinə çevrildi. Prezident İlham Əliyev həyata keçirdiyi siyasətin nəticəsində Azərbaycanı 30 ilə yaxın davam edən münaqişədə qalib tərəfə çevirdi. Ərazi bütövlüyümüz birmənalı olaraq təsdiq edildi.

Azərbaycan Ordusu dünyaya sübut etdi ki, döyüş meydanında zəfəri təkcə tanklarla, toplarla deyil, ağılla, zəkayla və bir də insan zehninin ən son nailiyyəti olan PUA-larla qazanmaq olar. Şuşa qalasının alınması əməliyyatı isə tamam başqadır. Prezident, Ali Baş Komandan İlham Əliyev xalqa müraciətində bildirdi ki, Şuşanın azad edilməsi dünya hərb tarixində xüsusi yer tutacaq: "Şuşanın işğaldan azad edilməsi bizim gücümüzü göstərdi. Ordumuzun peşəkarlığını, hərbçilərimizin cəsarətini, qəhrəmanlığını göstərdi. Şuşanın götürülməsi çox böyük peşəkarlıq, cəsarət tələb edən əməliyyat idi. Əminəm ki, bu əməliyyat dünya hərb tarixində xüsusi yer tutacaq. Çünki bu əməliyyatı bizim qəhrəman hərbçilərimiz dağlardan, meşələrdən, cığırlardan keçərək yalnız yüngül silahlarla silahlanmış şəkildə azad ediblər. Şuşanın işğaldan azad edilməsi bizim şanlı qələbəmizdir". Bəli, Azərbaycan əsgəri əsl qəhrəmanlıq, mərdlik, şücaət, rəşadət nümunəsi göstərdi. Düşmənin 30 il ərzində qurduğu, milyonlarla vəsait sərf etdiyi nəhəng istehkamlar qısa müddətdə darmadağın edildi, müzəffər ordumuzun tətbiq etdiyi savaş strategiyası müasir hərb tarixinə yeni örnək oldu. Böyük qələbəni al qanı ilə yazan şəhidlərimizin intiqamının alınması ilə əldə edilən zəfəri, qalibiyyəti Azərbaycan xalqına bəxş etməklə Ali Baş Komandanımız İlham Əliyev həm də həyatını Azərbaycana həsr edən, "Şuşasız Qarabağ, Qarabağsız Azərbaycan yoxdur" - deyən Ulu Öndərin arzusunu reallaşdırdı: "Mən bu gün Ulu Öndər Heydər Əliyevin məzarını ziyarət etdim, onun ruhu qarşısında baş əydim. Ürəyimdə dedim, xoşbəxt adamam ki, ata vəsiyyətini yerinə yetirdim. Şuşanı azad etdik! Bu, böyük Qələbədir! Bu gün şəhidlərimizin, Ulu Öndərin ruhu şaddır! Gözün aydın olsun, Azərbaycan! Gözünüz aydın olsun, dünya azərbaycanlıları!".

Bu gün Azərbaycan Qarabağa qovuşdu, tarixi zəfərə imza atdı, şəhidlərimizin, Xocalı qurbanlarının, Gəncə, Bərdə digər şəhər və rayonlarımızda soyqırımları zamanı həlak olan günahsız insanların qisasını döyüş meydanında aldı, işğalçı Ermənistana layiq olduğu yeri göstərdi. Bu qələbəni, zəfəri bizlərə yaşadan isə Ulu Öndər Heydər Əliyev siyasi kursunun layiqli davamçısı, ölkə Prezidentimiz, Ali Baş Komandanımız İlham Əliyevin qətiyyəti, siyasi iradəsi, Güclü Ordumuz, Rəşadətli əsgər və zabitlərimizdir. Şanlı ordumuz işğal altında olan ərazilərimizi işğaldan azad etməklə düşmən üzərində misli görünməmiş Qələbə qazandı. 30 il həsrət qaldığımız Vətən torpaqlarında artıq üçrəngli Azərbaycan bayrağı dalğalanır ki, bu da hər birimizə böyük qürur və fəxarət hissi yaşadır. Zəfər paradında nümayiş etdirilən texnikalar dövlətimizin başçısı İlham Əliyev tərəfindən hərbi sahəyə göstərilən diqqət və qayğının nəticəsidir. Ordumuzun maddi-texniki bazasının zənginliyi, istifadəsində olan texnika və silah-sursatın bir hissəsi paradda əyani şəkildə nümayiş etdirildi. Hər kəs Azərbaycan Ordusunun arsenalının müasir silahlarla təchiz edildiyinin əyani şahidi oldu. Ölkəmizin Vətən müharibəsi zamanı göstərdiyi döyüş taktikası, istifadə olunan texnikalar bütün dünyada maraqla izlənilirdi. Bu gün iftixarla deyə bilərik ki, Azərbaycan Ordusu hərbi əməliyyatlar zamanı ən yüksək səviyyədə innovativ yenilikləri tətbiq edən ordudur. Vətən müharibəsində apardığımız azadlıq mübarizəsi zamanı silah-sursatını qoyub qaçan, fərarilik edən işğalçı Ermənistan ordusuna məxsus xeyli texnika və silah-sursat hərbi qənimət olaraq götürülüb. Döyüşlərdə Ermənistan silahlı qüvvələrinə məxsus hərbi texnikanın xeyli hissəsi məhv edilib, saz vəziyyətdə ələ keçirilənlər isə qənimət olaraq Azərbaycan Silahlı Qüvvələrinin sərəncamına verilib. Bakının Azadlıq meydanından keçən hərbi texnikaların sırasında vaxtilə Ermənistana məxsus olan texnikaların da yer alması sevindirici məqam idi. Bu, hər birimizdə milli qürur və iftixar doğururdu. Azərbaycan xalqı qardaş Türkiyə ilə birlikdə Bakının Azadlıq meydanında möhtəşəm Qələbənin Zəfər paradını keçirərkən Ermənistan hələ də daxili çaxnaşmalarla, etiraz mitinqləri ilə çalxalanırdı.

Hadisələrin gedişatı göstərir ki, müharibədəki acı məğlubiyyət Ermənistanın və onun havadarlarının onilliklər boyunca yürütdükləri təcavüzkar siyasətin süqutudur. Bir məqamı da qeyd edək ki, Ermənistanın faşist hakimiyyəti üzərində Qələbə qazanmaqla Azərbaycan dövləti bu günə qədər icra edilməyən BMT qətnamələrini icra etdi. Kapitulyasiya aktı Ermənistanı diz çökməyə və işğal altında saxladığı Azərbaycan torpaqlarını qaytarmağa məcbur etdi. Ermənistan hər addımda kobud şəkildə pozduğu beynəlxalq humanitar hüququn prinsiplərinə riayət etməyə məcbur edildi. Əlbəttə, bu məsələ yalnız Ermənistanın məğlubiyyəti ilə bitməyəcək, işğalçı Ermənistan 30 il ərzində Azərbaycan torpaqlarında törətdiyi vandalizm aktlarına və çoxsaylı hərbi cinayətlərə görə də beynəlxalq hüquq qarşısında cavab verəcək. Türkiyə Cümhuriyyətinin Prezidenti Rəcəb Tayyib Ərdoğanın ölkəmizə səfəri və Azərbaycan Prezidenti İlham Əliyevlə birlikdə Zəfər paradını izləməsi, həmçinin ölkələrimiz arasında müxtəlif sahələrə dair bir sıra mühüm sənədlərin imzalanması Azərbaycanla Türkiyə arasındakı dostluq və qardaşlığın daha bir əyani təzahürü oldu. Prezident, Müzəffər Ali Baş Komandan İlham Əliyevin vurğuladığı kimi, yenə də Azərbaycan vətəndaşları bu tarixi torpaqlarımızda yaşayacaq, qurub-yaradacaqlar. Amma bugünkü tarix heç vaxt unudulmayacaq. Bu dağılmış, yandırılmış evlər, viran qoyulmuş kənd və şəhərlər erməni vəhşiliyinin canlı şahidləridir. Bu evlərdə, bu ərazilərdə yaşayacaq insanlarımızın Vətən sevgisi ilə hər qarış torpağımız tez bir zamanda canlanacaq, yurd yerlərimiz gülüstana çevriləcək. Zəfər paradında xalqımızın yaşadığı qürur yaddaşlara əbədilik həkk olundu. İndi əminliklə deyə bilərik ki, artıq tarixi bir missiya başa çatdı və Qarabağ problemi beynəlxalq hüququn tələblərinə uyğun olaraq, ölkəmizin ərazi bütövlüyü çərçivəsində həll edildi. Zəfər paradı Azərbaycan xalqı üçün qürur, şərəf, ləyaqət simvolu, ermənilər üçün məğlubiyyət, işğal siyasətinin acı ibrət dərsi olaraq tarixləşdi. Azərbaycanın parlaq Qələbəsi təkcə ölkənin ərazi bütövlüyünün bərpası anlamına gəlmir. Bu, şərlə xeyir qüvvələrinin mübarizəsidir. Şər qüvvələri məğlub olub, Azərbaycan isə qalib gəlib. Çünki Azərbaycan qurub yaradan ölkədir. Azərbaycan xalqı bir daha öz böyüklüyünü göstərəcək. Mənfur düşmən vəhşiliklər törədir: evləri və məktəbləri yandırır, ağacları və elektrik xətlərini qırırdı. İşğal edilmiş bütün ərazilərdə evlər dağıdıb, bütün infrastruktur dağıdılıb, bir dənə də salamat bina yoxdur. Bütün dünya görməlidir erməni vəhşiliyi nə deməkdir. Sanki bu torpaqlardan bir vəhşi qəbilə keçib. Onlar hər şeyi dağıdıb, talan edib, Azərbaycanın mədəni, tarixi, dini irsini silmək istəyib. Azərbaycanın Qələbəsi eyni zamanda erməni miflərinin sonu deməkdir. "Ermənistanın güclü ordusu var", "erməni xalqı döyüşkən xalqdır", "Azərbaycan xalqı döyüşə bilmir" kimi miflərə son qoyuldu. İnsaniyyətə və bəşəriyyətə qarşı törədilmiş cinayətlərə görə Ermənistan məsuliyyət daşımalıdır. Ermənistan hakimiyyəti beynəlxalq məhkəmələrdə cavab verəcəkdir, bütün vurulmuş ziyan hesablanacaq və cinayətkarlar tərəfindən ödəniləcəkdir. Azərbaycan Respublikasının suverenliyi və ərazi bütövlüyü uğrunda gedən mübarizədə rəşadət göstərən əsgər və zabitlərimiz, arxa cəbhədə çalışan mülki insanlarımız, bütövlükdə xalqımız əzm və iradə, bir yumruq kimi birlik və həmrəylik nümayiş etdirərək, düşmənə sarsıdıcı zərbələr endirmişdir. Müzəffər Azərbaycan Ordusunun zəfər yürüşünə dözə bilməyən düşmən təxribatlara əl ataraq, günahsız mülki insanları hədəfə almaqla müharibə cinayətləri törətmişdir. Vətən müharibəsində Silahlı Qüvvələrimizin hərbi qulluqçuları həlak olmuş, itkin düşmüş, yaralanaraq sağlamlığını itirmişdir. İşğal altında olan torpaqlarımız qəhrəman şəhidlərimizin, əsgər və zabitlərimizin, qazilərimizin qanı və canı bahasına azad olunmuşdur. Azərbaycan hər zaman mübariz oğul və qızlarının şücaətini yüksək qiymətləndirir, bütün şəhidlərimizin ruhuna ehtiram göstərir, xatirəsini uca tutur. Vətən müharibəsində qəhrəmancasına döyüşmüş, Azərbaycan Bayrağını işğaldan azad edilən torpaqlarımızda dalğalandırmış, ölkəmizin ərazi bütövlüyü yolunda canlarını fəda etmiş əsgər və zabitlərimizə, bütün şəhidlərimizə dərin ehtiram əlaməti olaraq, Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin 2020-ci il 2 dekabr tarixli Sərəncamı ilə hər il sentyabrın 27-si Azərbaycan Respublikasında Anım Günü kimi qeyd edilməsi qərara alınmışdır.

*Kəssə hər kim tökülən qan izini,*
*Qurtaran dahi odur yer üzünü.*

Böyük düha Hüseyn Cavidin dediyi bu kəlamlar tarixi qələbəmizin nəzəri təsviridir. Sülh istəyiriksə müharibəyə hazır olmalıyıq. Müharibə etməyi bacarmayan xalq sülh şəraitini təmin edə bilməz, müstəqil yaşaya bilməz. Müharibə qan tökülməsinə səbəb olsa da, qan tökülməsinin qarşısının alınması üçün də ən optimal variantdır. 30 ildir ki, hər gün soydaşlarımız günahsız yerə düşmən təxribatının qurbanı olurdu.

Qələbə ilə sonuclanan savaşımız günahsız tökülən qanların axıdılmasına son qoydu. Minlərlə şəhid və qazilərimiz bir daha Azərbaycan torpağında qan axıdılmaması üçün özlərini fəda etdilər. Bugünkü və sabahkı, hətta daha-daha sonrakı nəsillər biləcəklər ki, azad, firavan, məğrur, qürurlu yaşamağımızın səbəbkarı onlar olublar.

**Ən nəhayətində hər kəs bildi ki, sülh istəyirsənsə müharibəyə hazır ol, məntiqi hərbi-siyasi reallıqdır. Və biz bunu bacardıq. Hər bir ordunun gücü onun sərkərdəsi ilə ölçülür. Ali Baş Komandan İlham Əliyev dünyaya sübut etdi ki, Azərbaycan xalqı və ordusu tarixi anlarda qəzəbli dəmir yumruğa çevrilmə iradəsinə və mənəviyyatına sahibdir. ATA YURDUMUZ AZƏRBAYCANA göz dikənlərə dərs olan qələbəmiz eşqinə hamımızı təbrik edirəm. Birliyimiz Qiyamətə qədər daim olsun!**

# Dünyanın xoşbəxti

**Üç gündür ki, əlimdən düşməyən və gözümün önündən uzaqda qoymadığım bir kitabın aurasındayam və o auradan çıxa da bilmirəm. Xüsusilə kitabın arxa üz qabığındakı misralar məni özünə elə çəkib ki, sanki o xoşbəxtlik gözümün önündə, hətta az qala çevrəmdədi. Mən də ondan yararlanıram, ondan dadıram... Və elə bu hisslər də həmin misraların dilimdə təkrarına səbəb olur. Yəqin siz də bu kitabı əlinizə alsanız, həmin misraları oxusanız və onun müəllifi ilə ruhən bağlantı qursanız elə mənim indiki anda yaşadıqlarımı yaşayarsınız. Çünki sadə və qeyri-adi bir məntiq var bu misralarda. Xüsusilə:**

***Hamı bilməz ki,***
***Dünyanın xoşbəxtidi***
***Vətəni olan adam.***
***Doğma Azərbaycan,***
***Mən o adamam - O adam.***

Bəli, Kəmalə həqiqətən o Adamdı - Vətəni olan Adam!

Deməli, dünyanın ən böyük xoşbəxtliyi Vətəni olmaqdı. Mən 30 il Vətəndə Vətənsiz yaşamışam. Elə bu səbəbdən də Vətəni olanlara həmişə həsəd aparmışam. Amma Kəmalənin dediyi gerçəyi mən onda yox, məhz indi dərk edib bütünlüklə qəbul etmişəm. Və bir də təkrar edirəm ki, Vətəndə Vətənsiz olduğum anların ağrısını, acısını indi Vətənim olanda unutmaq dəstəyini Kəmalə verdi mənə. Dedi ki, xoşbəxt adamsan, Vətənin var!!!

Mən Kəmalə Abıyevanın yenicə işıq üzü görmüş "O adam" kitabı ilə bağlı içimdən gəlib keçənləri yazmaq istəyirəm. Amma kitabın arxa üz qabığındakı şeirin ruhu məni elə tutub ki, digər şeirlərə tərəf hələ də boylana bilmirəm. Ona görə yox ki, orda nə isə xoşagəlməyən bir məqamla qarşılaşa bilərəm. Xeyr, əsl həqiqətdə mən bu şeirlərin böyük əksəriyyətini sosial şəbəkədə oxumuşam. Mənə tanışdı, doğmadı hamısı və onlara münasibət də bildirmişəm. Sadəcə indi bir qom bənövşə kimi qarşımdadır o şeirlər. Bənövşə ətri də hər zaman sevdiyi və ruhumu məst edən bir ilahi zəriflikdi mənim üçün...

Bəli, bu kitabda oxuculara təqdim edilən şeirlərin mövzuları rəngarəngdi. Yəni burda şəhiddən də, şəhid anasından da, Qarabağdan da, sevgidən də, həsrətdən də və bütövlükdə Kəmalə Abıyeva yaradıcılığının əhatə etdiyi bütün sahələrdən nümunələr var. Mən onun poeziyasının pərəstişkarı olduğundan oxuduğum şeirlərin ruhumla səsləşməsinə heç də təəccüb etmirəm. Xüsusilə ona görə ki, bu ruh doğmalığı yaradıcı insanın sözlə işləmək məharətini də büruzə verir. Yəni Kəmalə Abıyeva adi sözü də o qədər yerində və xanım inceliyi ilə təqdim edir ki, dinləməmək, onu özününküləşdirməmək qeyri-mümkündür. Məsələn, o:

***Ömür kitabına hələ görüşlər,***
***Xatirə yazmamış gəldi ayrılıq.***
***Sevgimi özümdən gizlədim elə,***
***Sirrimi yaman tez bildi ayrılıq.***

Bir bəndini təqdim etdiyim bu şeirin ilk misraları həsrətin, ayrılığın nə qədər güclü olduğunu, necə deyərlər, fürsətçil olduğunu büruzə verir. Daha doğrusu, bu ayrılığın nəmərdliyini daxili bir sarsıntı ilə sözə çevirir. Çünki hələ görüşə başlamamış, görüş yerini yaddaşına köçürməmiş ayrılığın sərt rüzgarı səni özündən alıb yerə çırpır. Və sən nə xatırlayacağını, nə üçün göz yaşı tökəcəyini belə düşünməyə fürsət tapmırsan. Deməli, ayrılığın öldürmək yox, daha ağır duruma salmaq istəyi - hardasa əbədi ağrılar yaşatmaq gücü bax beləcə çıxır ortaya.

Kitabın adında özünü oxucuya birbaşa təqdim edən "O adam" şeirində isə müəllif yazır:




***Mən sənə ana dedim, səni balatək sevdim.***
***Mən səni balam bildim, səni anatək sevdim.***
***Sənə ən xoş günləri, ən uca zirvələri,***
***yaşatmaqçün çırpındım.***

Zənnimcə yazımın əvvəlində vurğuladığım xoşbəxtliklə bağlı fikirlərimi burda təkrar etmək hardasa özümün özümə vurğunluğum olar.

Amma şeirin ifadə etdiyi həqiqəti isə qeyd etməyə bilmərəm və düşünürəm ki, siz də mənimlə razılaşarsınız. Razılaşarsınız ki, o adam xoşbəxtdir ki, öz xoşbəxtliyini dərk edir!

Və nəhayət mən Kəmalə Abıyevanın üç gündür təkrar-təkrar oxuyub özümünküləşdirməyə çalışdığım şeirlərinin dalğasında bir köhnə adam da xatırlayıram. O köhnə adam sizin üçün kimdirsə deyə bilmərəm, amma mən elə özüm özüm üçün köhnə adamam. Və:

***Əşyalar kimsəni köhnəltməz,***
***təzə don təzələməz.***
***Təzə adamlar köhnəldər...***
***təptəzə adamlar...***
***Təzə payız ömrün payızını təzələməz,***
***hər təzə payızla bir az da köhnələrsən...***
***Təzə payızda köhnə adam***
***bircə qışı gözlərsən...***

Bəli, yazının bu yerində "O adam"la söhbətimə fasilə verirəm. Bilirəm ki, bu söhbət bitib-tükənən deyil və mən də köhnə adam kimi o söhbətə hələ çox qayıdacam.

**Əbülfət Mədətoğlu**

# Bakıda "Paralel dünyalar" adlı irimiqyaslı qrup sərgisi açılıb

**Noyabrın 7-də "Gazelli Art House"da "Paralel dünyalar" adlı irimiqyaslı qrup sərgisinin açılışı olub.** Tədbirdə çıxış edən Latviyanın Azərbaycandakı səfiri Edqars Skuya layihənin üzərində xeyli vaxtdır işin getdiyini bildirib.

"Bu sərginin ideyası hazırda olduğumuz məkanda reallaşıb. Ağacların, bitkilərin öz aləmi və səsləri var. Biz xüsusi instalyasiyaları vasitəsilə bunu yaratdıq", - deyə səfir əlavə edib.

Ekologiya və təbii sərvətlər nazirinin müavini Vüqar Kərimov ölkəmizin Birləşmiş Millətlər Təşkilatının İqlim Dəyişmələri üzrə Çərçivə Konvensiyasının Tərəflər Konfransının 29-cu sessiyasına (COP29) ev sahibliyi etməsinin əhəmiyyətindən söhbət açıb. O, tədbirin dünyanın ekoloji problemlərinin həllinə verəcəyi mühüm töhfələri diqqətə çatdırıb. Əməkdar rəssam Səbinə Şıxlinskaya vurğulayıb ki, sərginin məqsədi natural və süni yaradıcılıq anlayışlarına dair düşündürücü suallar barədə fikir mübadiləsi aparmaqdır.

Sərgidə təbiətin insanla əlaqəsini göstərdiyini vurğulayan rəssam Elnarə Nəsirli deyib: "Biz Azərbaycan və Latviyadan gələn səsləri toplayıb bu sərgidə təqdim edirik. Bitkilərin elektrik siqnallarını götürüb musiqiyə çeviririk. Bu şəkildə insanlar bitkilərin gücünü və enerjisini tamamilə fərqli hiss edə bilərlər". Sərgi gələn il yanvarın 31-dək davam edəcək.

# "Zəfər kitabı" seriyasından təqdimat

**Hər bir yeni nəşr müəllifə sevinc, oxucu üçün isə hədiyyədir. Bu mənada Azərbaycan Yazıçılar Birliyində yazıçı-publisist Vəsimə İsmayılqızının Vətən müharibəsində qazanılan Qələbəyə həsr olunan "Zəfər kitabı" seriyasından çapdan çıxmış "Zəfər Kitabı. Şuşa", "Zəfər Kitabı. Goranboy" və "Zəfər Kitabı. Beyləqan" nəşrlərinin təqdimatı da vurğuladığımız hisslərin əyani təsdiqidir.**





Təqdim edilmiş hər üç nəşrin məsləhətçisi Atatürk Mərkəzinin direktoru akademik Nizami Cəfərov çıxışında bu kitabların Vətən müharibəsindən bəhs etdiyini, Müzəffər Ali Baş Komandan İlham Əliyevin rəhbərliyi ilə qazanılmış Zəfərin əbədiləşdirilməsində əhəmiyyətindən söz açıb.



Bildirilib ki, 44 günlük Vətən müharibəsində əldə olunmuş möhtəşəm Qələbə nəticəsində torpaqlarımız işğaldan azad olunub, ərazi bütövlüyümüz bərpa edilib və Azərbaycan yeni tarix yazıb.

Kitabların redaktorları Əməkdar müəllim İsgəndər Səklikov və AMEA-nın A.A.Bakıxanov adına Tarix və Etnologiya İnstitutunun əməkdaşı İsmayıl Umudlu nəşrlərin ərsəyə gəlməsi prosesindən danışıblar.

Bildirilib ki, kitablarda Vətən müharibəsinin Azərbaycan xalqının iftixar və qürur mənbəyinə çevrildiyi xüsusilə vurğulanıb. Həmçinin bu kitablar oxucuda ordumuzun döyüş yolları haqqında geniş təsəvvür yaradır.

Tədbirdə Azərbaycan Milli Konservatoriyasının kafedra müdiri Firudin Qurbansoy, "Ədalət" qəzetinin baş redaktor müavini, şair Əbülfət Mədətoğlu, "Apastrof-A" mətbəəsinin direktoru Akif Dənizzadə, şair Kəmalə Abıyeva, Azərbaycan Yazıçılar Birliyinin əməkdaşı, şair Güləmail Murad, "Goranboy" Xeyriyyə Cəmiyyətinin nümayəndəsi Əli Şəfiyev, Nağı Əsgərov və digərləri çıxış edərək kitabların tarixi əhəmiyyətindən və vətənpərvərlik hissinin formalaşmasında rolundan danışıblar.



Bildirilib ki, çoxcildlik ölkəmizin hər regionuna həsr olunmuş bir cilddən və ümumiləşdirilmiş xüsusi cilddən ibarətdir.

Hər cilddə Vətən müharibəsinin mahiyyəti, gedişi, Zəfər və onun xronikası təsvir, təhlil və təqdim olunur.



Hər kitabda cildin həsr olunduğu bir rayonun, respublika tabeli bir şəhərin Birinci Qarabağ müharibəsi, atəşkəs dövrü, Aprel döyüşləri, İkinci Qarabağ müharibəsi şəhidlərindən, onların döyüş yolundan, dövlət tərəfindən təltif edilməsindən söz açılır.

Bütün cildlər standart formatda və tərtibatda, ensiklopedik toplu meyarlarına uyğun, xronoloji ardıcıllıqla qələmə alınıb.

**Hər üç kitabın məsləhətçiləri və "Ön söz"ün müəllifləri Atatürk Mərkəzinin direktoru akademik Nizami Cəfərov, ictimai-siyasi xadim və ədəbiyyatşünas-alim, filologiya elmləri doktoru Vilayət Quliyevdir.**

# Dağlar başındakı incimiz, mədəniyyət pənahımız Şuşada

## Azərbaycan Bəstəkarlar İttifaqının 90 illik yubileyi qeyd edildi



*Aysel KƏRİM "Accel" group-un baş direktoru, Gənclər mükafatçısı, Prezident təqaüdçüsü*

**Düz iki il öncəyə qayıdıb, 2022-ci il sentyabrın 9-da zəngin və şanlı tarixi keçmişə malik, Qarabağın baş tacı sayılan Şuşa şəhəri ilə ilk tanışlığımı xatırlayıram. Şuşa İli çərçivəsində və görkəmli şairə Xurşidbanu Natəvanın 190 illiyi münasibətilə Mədəniyyət Nazirliyi və Şuşa Şəhəri Dövlət Qoruğu İdarəsinin birgə təşkilatçılığı ilə XIX əsr Azərbaycan söz-sənət irsində məxsusi yeri olmuş "Məclisi-üns" ədəbi məclisinin bərpa toplantısının açılışı oldu. Xan qızının evinin qarşısında gerçəkləşən tədbirdə ud və qanun ifaçılarının müşayiəti ilə "Qanadsız mələk" adlı şeirimlə çıxış etmişdim. Həmin günün gözəlliyi xatirəmə əbədi həkk olunub.**

Bakıdan Şuşaya ilk səfərim boyunca ulu öndərimiz Heydər Əliyevin bu sözləri qulağımda səslənirdi; "Şuşa Azərbaycanın ən əziz və böyük tarixi olan bir guşəsidir. Şuşanı yaradanlar, Şuşa şəhərini quranlar, Şuşa qalasını tikənlər Azərbaycan torpağının sahibləri olublar və Qarabağda Azərbaycan torpağının daim qorunması, saxlanması üçün Şuşa şəhərini, qalasını yaradıblar. Bu, Azərbaycan xalqının, əcdadlarımızın yaratdığı böyük abidədir, təkcə şəhər deyil, böyük bir tarixi abidədir".

Azərbaycansız Şuşa, Şuşasız Azərbaycan bir heçdir. Xatırlayıram, Şuşaya çatdıqda bayrağımızı görən an ayaq üstə alqışlayıb, şair, yazıçı həmkarlarımla bir-birimizi təbrik edib, göz aydınlığı vermişdik. Həmin anı sözlə ifadə etmək çox çətindir. İki il ötməsinə rəğmən hələ də yadıma düşdükdə fərəhlənib qəhərlənirəm.

Əbəs yerə Şuşa Azərbaycan mədəniyyətinin ocağı hesab olunmur. Əlbətdəki səbəbi dərindir. Firudin Şuşinski rus dilində nəşr etdirdiyi "Şuşa" adlı əsərində yazırdı: "Azərbaycan Elmlər Akademiyasında olan məlumata görə, XIX əsrdə Şuşada 95 şair, 22 musiqişünas, 38 müğənni, 16 heykəltəraş, 5 astronom, 18 arxitektor, 16 həkim və 42 müəllim olmuşdur.

Azərbaycanın mədəniyyət tarixində dərin iz buraxmış Şuşa şəhərində tarixən ədəbiyyata, incəsənətə böyük maraq olub, bu şəhər Azərbaycanın elm, mədəniyyət, musiqi tarixinə bir çox böyük şəxsiyyətlər bəxş edib.

Şuşada anadan olub və orada yetişən Azərbaycanın məşhur simalarının bir neçəsinin adlarını qeyd etmək yerinə düşər. Azərbaycan ədəbiyyatında yetişən görkəmli lirik-satirik şair Qasım bəy Zakir, məşhur xeyriyyəçi, Azərbaycanın tanınmış şairə və rəssamı, Qarabağ xanı Mehdiqulu xanın qızı Xurşidbanu Natəvan, İbrahim xanın qızı, məşhur xeyriyyəçi Gövhər Ağa, musiqişünas, astronom, çoxşaxəli elmi yaradıcılıq fəaliyyəti ilə məşhur olan, 21 kitabın müəllifi Mir Möhsün Nəvvab, Azərbaycan ədəbiyyatına 500-ə yaxın şeir bəxş etmiş Fatma xanım Kəminə, şairə Ağabəyim Ağa, Azərbaycan ədəbiyyatının klassikləri Nəcəfbəy Vəzirov, Əbdürrəhim bəy Haqverdiyev, məşhur yazıçı Yusif Vəzir Çəmənzəminli, məşhur jurnalist Qasım bəy Vəzirov, məşhur tədqiqatçı-alim, pedaqoq Firudin bəy Köçərli, Azərbaycan musiqisinin tacı Üzeyir Hacıbəyli, Niyazi, Əfrasiyab Bədəlbəyli, Fikrət Əmirov kimi bəstəkarlar, dünya şöhrətli General Səməd bəy Mehmandarov.

Məşhur xanəndələr Hacı Hüsü, Cabbar Qaryağdıoğlu, Məşədi İsi, Keçəçi oğlu Məmməd, Sadıq Əsəd oğlu (Sadıqcan), Seyid Şuşinski, Bülbül, Xan Şuşinski, Rəşid Behbudov kimi dünya şöhrətli xanəndə, musiqiçilərin adı da Şuşa ilə bağlıdır.

Ümummilli lider Heydər Əliyevin bu önəmli fikirləri əslində hər bir azərbaycanlının irsiyindən keçənləri ifadə edir: "Şuşa təkcə şuşalılar üçün yox, bütün azərbaycanlılar üçün, vətənini, millətini sevən hər bir vətəndaşımız üçün əziz bir şəhərdir, əziz bir torpaqdır, əziz bir qaladır, əziz bir abidədir".

2024-cü il oktaybrın 14-də Xalq artisti, professor Firəngiz Əlizadənin idarəçiliyi ilə bu dəfə bəstəkar və musiqişünas həmkarlarımla Azərbaycan Bəstəkarlar İttifaqının 90 illik yubileyi münasibətilə Şuşaya yola düşdük. Yol boyu öz-özlüyümdə düşünürdüm ki, 2019-cu ildə Azərbaycan Bəstəkarlar İttifaqına üzv seçildikdə heç bilməzdim ki, 5 il sonra İttifaqın 90 illik yubileyini Şuşada qeyd edərik. Şuşanın dağları, qayaları, meşələri, yamacları, havası-suyu əsl möcüzədir. Dumanlı, çiskinli, təvazökar və təmkinli şəhərlə yenidən görüşdükdə gördüm ki, yaraları nisbətən sağalıb, yaxşılaşıb. İlk piçıldadığım söz bu oldu; "Səni məğrur görməyimə çox şadam Şuşa!"

Bu 90 illik tarix milli bəstəkarlıq məktəbimizin banisi dahi Üzeyir Hacıbəylinin adı və fəaliyyəti ilə birbaşa bağlıdır. Üzeyir bəyin doğma yurdu Şuşada keçirilən səyyar plenumun ilk günü "Şuşa" hotelinin Üzeyir Hacıbəyli salonunda konfransla başladı. Şuşada Azərbaycan Respublikasının Prezidentinin xüsusi nümayəndəsi Aydın Kərimov çıxış edərək qonaqları salamladı. İttifaqın sədri Xalq artisti, professor Firəngiz Əlizadə başda olmaqla tədbirdə iştirak edən və etməyən bütün üzvləri 90 illik yubiley münasibətilə təbrik etdi. Hörmətli sədrimiz, Dünyanın "Sülh artisti" Firəngiz Əlizadə ön sözlə çıxış edərək dahi Üzeyir bəyin boya-başa çatdığı bu müqəddəs diyarda ABİ-nin 90 illik yubileyinin təşkilinin nə qədər şərəfli olduğunu vurğuladı. Bu qüruru bizə yaşadan Ali Baş Komandana və onun rəhbərliyi ilə Şuşanı eləcə də, işğal altındakı digər torpaqlarımızı azad edən rəşadətli Silahlı Qüvvələrimizə minnətdarlığını bildirdi. Firəngiz xanım həmçinin Bəstəkarlar İttifaqının keçdiyi 90 illik şanlı yolundan söz açdı. 1934-cü ildə Bəstəkarlar İttifaqını yaradan dahi bəstəkar Üzeyir Hacıbəyli başda olmaqla, Qarabağı təmsil edən bəstəkarların həyat və yaradıcılığına da toxundu.



Tədbir Xalq artisti Fəxrəddin Kərimovun rəhbərliyi ilə simfonik orkestrin və birləşmiş kişi xorunun ifasında səslənən dünya şöhrətli bəstəkar Firəngiz Əlizadənin "Zəfər marşı"nın videoklipinin nümayişi ilə başladı.

Plenumun əsas müzakirə mövzusu Azərbaycanda musiqi mədəniyyətinin inkişafı üçün yeni yolların müəyyən olunması idi:

Xalq artisti Sərdar Fərəcov - "Şuşanın musiqi salnaməsi", Əməkdar incəsənət xadimi Gülnaz Abdullazadə - "Üzeyir Hacıbəyli və Azərbaycan Bəstəkarlar İttifaqı"Əməkdar incəsənət xadimi Akif Quliyev - "Bəstəkarlarımızın şanlı qələbəyə həsr olunan əsərləri" Əməkdar mədəniyyət işçisi Səadət Təhmirazqızı - "Şuşa professional musiqidə" adlı yeni kitab haqqında"

Çox şadam ki, konfrans mənim ürək sözlərimlə tamamlandı. Bu fürsəti yaratdığı üçün dəyərli sədrimizə dərin təşəkkürümü ifadə edirəm. Plenumun axşam konsertini tanınmış violin ifaçısı Nəzrin Aslanlının rəhbərliyi ilə Dövlət Simli Kvartetinin çıxışı rəngləndirdi. Bakıda konsert salonlarında dəfələrlə dinlədiyimiz Üzeyir Hacıbəyli, Qara Qarayev, Fikrət Əmirov və Firəngiz Əlizadənin məşhur əsərlərini Şuşada dinləmək ruhumda indiyəcən yaşamadığım hisslər oyadırdı.

Plenumun ikinci günü - 15 oktyabrda həmkarlarla Şuşa Yaradıcılıq Mərkəzində olduq. Direktor Fəxrəddin Hacıbəyli qonaqları salamlayaraq, mərkəzin fəaliyyəti, "Heydər Əliyev və Qarabağ" fotosərgisi ilə tanış etdi.

Üzeyir Hacıbəylinin Şuşadakı ev-muzeyini görmək isə bir ayrı təsirləndirdi. Prezidentin Şuşadakı xüsusi nümayəndəsinin müavini Elşad Əliyev ittifaqın üzvlərini maraqlı eksponatlarla tanış etdi. Çıxışçılar; ön söz müəllifi Xalq artisti, professor Firəngiz Əlizadə, professorlar Zemfira Qafarova, Həcər Babayeva, Məmmədağa Umudov idi.

Plenum öz işini daha bir önəmli məkanda - Bülbülün ev-muzeyində yekunlaşdırdı. Çıxışçılar - ön söz müəllifi Xalq artisti, professor Firəngiz Əlizadə, fəlsəfə elmləri doktoru, professor Mina Hacıyeva, sənətşünaslıq üzrə fəlsəfə doktoru, dosent Güllü İsmayılova, bəstəkar Vüqar Camalzadə idilər.

Azərbaycan mədəniyyətinin əzəli paytaxtı və 2024-cü il üzrə "İslam dünyasının mədəniyyət paytaxtı" Şuşada keçirilən plenum ömürlük xatirəmə həkk olundu.

Böyük qürur hissi, şəhidlərimizin ruhuna minnətdarlıqla qeyd etmək istərdim ki, 2020-ci ilin 8 noyabrında - otuzillik işğaldan azad edildiyi gün Şuşa yenidən doğuldu. Şuşa Azərbaycansız əsir kimi yaşadı. Əgər buna yaşamaq demək olardısa. Amma indi qələbəmizin böyük memarı cənab prezident İlham Əliyevin sözünə qüvvət!

Əziz Şuşa, sən azadsan!

Əziz Şuşa, biz qayıtmışıq!

Əziz Şuşa, biz səni dirçəldəcəyik!

Şuşa bizimdir! Qarabağ bizimdir! Qarabağ Azərbaycandır!"

**Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin 2020-ci il 3 dekabr tarixli Sərəncamı ilə xalqımızın qüdrətinin və milli qürurumuzun təntənəsinə çevrilən, dövlətimizin nüfuzu və gələcək inkişafı baxımından müstəsna əhəmiyyət kəsb edən bu misilsiz qələbənin əbədiləşdirilməsi məqsədilə hər il noyabrın 8-i Azərbaycan Respublikasında Zəfər Günü kimi təntənəli şəkildə qeyd edilir. Bayrağımızı zirvələrə yüksəldən Zəfərimiz əbədi, Zəfər Günümüz mübarək olsun!**

# Aşıq Əli Qaraxanbəyli

**Əli Həsənxan oğlu Füzuli rayonunun Qaraxanbəyli kəndində anadan olyb. Saz aşığı olmasa da, gözəl söz qoşduğuna, bədahətən söz dediyinə görə el-oba onu" Aşıq" adlandırıb. Təəssüflər olsun ki, onun bədahətən söylədiyi könül əmanətlər toplanmayıb. Eşidənlər onun şerlərini əzbərləyərdilər. Elə bu səbəbdəndir ki, Aşıq Əlinin külliyyatı bizə gəlib çatmamışdır.**

Aşıq Əlidən çağımıza neçə-neçə şeri və səksən yaşlı qızı Xurşud qalıb (Söhbət 1989-cu ildən gedir. F.Ş.). İndi hamımızın Xurşud nənə dediyimiz bu ağbirçəyin yaddaşında atasının deyimləri, duyumları yaşamaqdadır.

Xurşud nənənin söz saxlancından iki gülləmə:

**I gülləmə- "Yüzbaşı"**

Bu şerin yaranmasını Xurşud nənənin belə yada salır:

"Mahmudlu Zülfüqar bəy hər il olduğu kimi yenə ala yaylaqlara hazırlaşırdı. Bəyin qohumu, dostu, tanışı-hamısı bir yerə cəm olur, iki-üç aylıq səfərdə ona yaxşı yol dualayırdılar. Gələn qonaqların arasında kəndin axsaq yüzbaşısı da vardı. Axsaq yüzbaşı araya yemək gəlməmişdən özünü bu elinoymağın ən yaxşı atıb-tutan igidi kimi tanıdırmış. Zülfüqar bəyin qardaşı oğlu Əbdürrəhim yüzbaşı da həmin məclisdə əyləşib söz-söhbətə qulaq asırmış. Axsaq, fərasətsiz yüzbaşının özünü öyməsi, yalandan yerə kişilənməsi Əbdürrəhim bəyə də xoş gəlmir. Söhbətin şirin yerində süfrəyə südlü hopmaca gəlir. Hamıya qızıl qaşıq verilir. İşin tərsliyindən qızıl qaşıq sınıb çolaq yüzbaşının ağzında qalır. İsti hopmaca, qızmış qaşıq, ağızda tərpənməyən dil-yüzbaşının gözü çıxır kəlləsinə.

Bu hadisənin şahidi olan adamlar Əli kişiyə üz vururlar ki, bu əhvalatı nəzmə çəksin.

Qəbiri nurla dolmuş açır söz köynəyinin yaxasını. Zülfüqar bəyin arvadı Ballı xanımın da adını deyimin bər-bəzəyinə çevirir:

*Yüzbaşı tikdilər şildən-çolaqdan,*
*Ballı çox inciyir böylə qonaqdan,*
*Qaşıqlar çıxıbdı burun, qulaqdan,*
*Sən niyə gəmirdin qaşıq, yüzbaşı,*
*Qalacaq başında qaxış, yüzbaşı.*

*Bir atım olaydı cinsi Qıratdan,*
*Bir usta tapaydım Taqdan-taqatdan,*
*Bir qaşıq yondurub teyxa poladdan,*
*Onu da verəydim bəxşiş, yüzbaşı,*
*Sən niyə gəmirdin qaşıq, yüzbaşı?*

*Mindiyin dayçadı, ya da ki, qulan,*
*Dediyin sözlərin hamısı yalan,*
*Qoyaydım belinə suvara palan.*
*Sən də daşıyaydın daşıq, yüzbaşı,*
*Bəs niyə gəmirdin qaşıq, yüzbaşı?!"*

**II gülləmə- "Sarı maydan" əhvalatı və şerin yaranması**

"Sarı maydan" deyimi və bu deyimlə bağlı əhvalat Xurşud nənənin yaddaşında güzgü kimi apaydın qalıb. Elə bu əhvalat da Zülfüqar bəylə bağlıdır.

Bu əhvalatın da mayasında xalqımıza məxsus olan bir yumor, incə bir kinayə yaşayır.

Günlərin bir günündə Zülfüqar bəyin qoca, arıq, ağzında bir dişi qalmayan, rəngi sarı maydanı xəstələnir. Əbdürrəhim yüzbaşı aşıq Əlini yanına çağırtırır ki, bəs bilmərsən, əmimin sarı maydanı naxoşlayıb ölür. Kişi yaman narahatdır. Əmimin dilindən bu maydana bir söz qoş. Elə söz qoş ki, nə əmimin xətrinə dəysin, nə də sarı maydanın. Elə söz qoş ki, sarı maydanın gərəksizliyi bilinsin və əmim bilsin ki, sarı maydan yarandığı kimi, həm də ölməlidir. Aşıq Əli də eləmir tənbəllik, yenə açır söz köynəyinin yaxasını. Budur, həmin "Sarı maydan" deyimi. Qoşanı Aşıq Əli olub, dilindən söz ismarıc göndərəni Zülfüqar bəy.

*Örüşündü Uzun dərə,*
*İncə yataq düşməz ələ,*
*Arxaltılar gözlər hələ,*
*Gəl ölmeynən Sarı maydan,*
*Dövlətimnən yarı maydan.*

*Bu dünyadan nə tez doydun,*
*İstəkli balandan soydun.*
*Qız-gəlini piyada qoydun,*
*Gəl ölmeynən Sarı maydan,*
*Dövlətimnən yarı maydan.*

*Yal-quyruğun ələk olar,*
*Sür-sümüyün gərək olar,*
*Nə belində sənək olar,*
*Gəl ölmeynən Sarı maydan,*
*Dövlətimnən yarı maydan.*

*Sənə nədən dəydi azar,*
*Çulu aldı mərdimazarŞ*
*Evin yıxılsın, bədnəzər,*
*Gəl ölmeynən Sarı maydan,*
*Dövlətimnən yarı maydan.*

*Təzə cilov var başında,*
*Tökülüb kiprik-qaşın da,*
*Çox olar səksən yaşın da,*
*Gəl ölmeynən Sarı maydan,*
*Dövlətimnən yarı maydan.*

*Görürsənmi Müzəffəri,*
*Sənə baxmır müxtəsəri,*
*Bikeflətmə sən Qələzi,*
*Gəl ölmeynən Sarı maydan,*
*Dövlətimnən yarı maydan.*

**P.S. Deyimdə adı çəkilən Müzəffər Zülfüqar bəyin, Qələz isə Aşıq Əlinin oğludur.**

**Qeyd: Bu əhvalatları bizə Qaraxanbəylu kənd sakini, şair-publisist Mirələm Quliyev 1989-cu ildə təqdim edib. Özüm də məəttəl qalmışam ki, bu yazı indiyə kimi niyə dərc olunmayıb? Artıq xeyli vaxtdır ki, Mirələm müəllim dünyasını dəyişib. Allah rəhmət eləsin! Gec də olsa, həmin yzını dərc etdirməyi gərəkli bildik.**

**Mirələm QULİYEV,**
**Şair, tədqiqatçı- publisist**

**Faiq ŞÜKÜRBƏYLİ,**
**AJB-nin üzvü**



*Sona Çərkəz,*
*Yazıçı-publisist*

# Yaxşı ki, var yaşılar

***An var ömrə bərabər,***
***ömür də var an qədər...***

**Həyatda insanın bəxtinə yazılan yaxşılar, Tanrının lütfü olduğuna hər zaman inananlardanam və bu mənada çox şükürlüyəm, çünki yaşadığım az olmayan ömrümdə seçilmişlərə, sözün tam mənasında qürurlandıran və güvən verən, bötüv, mərd, sevgi dolu xarakterə malik olanlarla qarşılaşır və əbədi olaraq yaxınlaşıram. Bəxtim məni tək bu mənada heç vaxt sarsılmağa, ruhdan düşməyə, təklənməyə aparmayıb, əksinə, mən o yüksək mənəviyyatlı, sonsuz sədaqət sahibi olanlardan güc alıb, yaşamağa davam etmişəm... Dəyərli insanlar ömür uzadır, münasibətləri ilə qarşısındakını həyata bağlayar, ruhlandırar, yaşayıb-yaratmasına səbəb olar...**

Mənim bu kiçik yazımda deməyə çalışdığım odur ki, insan öz düşüncəsi, tərzi, təfəkkürü və dərrakəsi ilə qəlblərə yol sala bilir, orada özünə layiqli məskən tapır. Bu da istedaddır və nə yazıq ki, hər kəsə verilmir. Hansı yolu seçiriksə-seçək, nə ilə məşğul oluruqsa olaq içdən duymağı, hiss etməyi, qarşımızda duranı anlamağı, onun yaşadıqlarını dərk etməyi bacara bilmək hər sahədə elin gözündə ucaldan, onu cəmiyyətdə sevdirən öz peşəsinə olan sevgisi və mütləq İNSANLIĞIDIR... Bu sözün mayasında isə hər birimizin ürəyindəki arzusu, istəyi, xalqa olan sevgisi, düşüncə saflığı və bir də niyyətidir.

Elə bu istəklə, bu niyyətlə də ömrümə yeni iz salanlar silsiləsindən olan bu yazımı yazıram...



Doğru deyiblər ki, dünya yaxşıların çiyinlərində bərqərardır və bir də yaxşılara görə gözəldir, yaşanmalıdır. Amma həm də mənə görə dünya ruhları ruhumuzla, ürəkləri ürəyimizlə səsləşənlərin çiyinlərindədir. Həyatımda rast gəldiyim, çox sevdiyim və həmişəlik doğmalarıma çevrilən, bəlkə də bəzi doğmaları kölgədə qoyan çox insanlar vardır. Bu mənada etibarlı, ləyaqətli, həkim adına şərəf gətirən və həqiqətən Andlarına sadiq qalan, onu şöhrətləndirən həkimlər də çoxdur. Tanıdığım və inandığım həkimlərin sırasına bu günlərdə bir ad da yazıldı - Milli İdman Tibb və Reabilitasiya İnstitutunun həkimi fiziterapevt-reabilitoloq Gülçöhrə xanım Rüstəmova. 2014-cü ildə Cənab prezident İlham Əliyevin açılışını etdiyi bu mərkəz heç yerdə rast gəlmədiyim tibbi avadanlıqlarla təchis olunmaqla bərabər, xəstələrə yüksək xidmət göstərən tibb personalı ilə də çox fərqlənir və insanı valeh edir. Burada nəvəmi müayinə edən həkim Gülçöhrə xanım Rüstəmovanın diqqəti, xəstəni müayinə etmə üsulu, can yandırmağı bir yana, yazdığı müalicənin az müddətdə yüksək təsirindən yazmasam özümü günahkar hesab edərəm. Pəjmürdə ikən Gülçöhrə xanımın bizi məlumatlandırması, nəvəmin səhhəti ilə maraqlanması həqiqətən təqdirə layiq olduğundan bu səmimi ürək sözlərimin yazıya çevrilməsinə yol açdı və öz şeirimdəki cümləni yazımda ilk cümlə olduğuna görə də məmnun oldum ki, o ömrə bərabər anlardan bizə yaşadan Gülçöhrə xanımı nə yaxşı ki, tanıdım.

**Mən hər vaxt düşünürəm ki, gördüyümüz yaxşını və yaxşılığı unutmamalıyıq, ətrafımızla bölüşməliyik ki, biganələr, (hər mənada) insanlara laqeydlik göstərənlər yaxşılardan - xeyirxahlardan dərs ala bilsin, ala bilsə... Və bir də Gülçöhrə xanım, hər zaman əlləriniz şəfalı, həm də ümid yeri olasınız!..**

# "Bakcell" "Birbank" istifadəçilərinə xüsusi üstünlüklər verən "Birinci" tarifini təqdim edir

**İnnovasiya və sürət lideri "Bakcell" ölkənin ilk rəqəmsal bankı "Birbank" ilə əməkdaşlıq çərçivəsində yeni "Birinci" tarif paketini təqdim edir.**

**Adalet.az xəbər verir ki, abunəçilər "Birbank" mobil tətbiqinə "Bakcell" nömrəsi əlavə etməklə "Birinci" tarifinə qoşula, onu idarə edə və dərhal "Trendyol", "Umico", "Birbank" və "M10" kimi platformalarda xüsusi üstünlüklərdən yararlana bilərlər. "Birinci" tarifi daxilində "Bakcell" müştərilərinə ölkədaxili zənglər üçün dəqiqələr, əsas internet balansı, sosial şəbəkələr üçün əlavə internet balansı təqdim olunur. Bundan əlavə, tarifə qoşulan abunəçilər "Trendyol"da alış-veriş zamanı ayda 2 dəfə 10% endirim və ödənişsiz "Umico Premium" abunəliyi əldə edəcəklər.**

**Eyni zamanda, müştərilər "Birbank" kartları ilə əməliyyatlar və "m10"la QR ödənişlər zamanı əlavə keşbek qazanacaqlar. "Birinci" tarifinin başlanğıc qiyməti 6.9 AZN-dir.**

**Qeyd edək ki, "Bakcell" abunəçiləri "Birinci" tarifinə yalnız "Birbank" mobil tətbiqi vasitəsilə qoşula bilərlər. Tarif paketi ilə bağlı ətraflı məlumatı "Bakcell" və "Kapital Bank"ın rəsmi saytlarından və ya sosial şəbəkə hesablarından əldə etmək olar.**

**Gələcəyə hədəflənən yeni brend strategiyası ilə "Bakcell" ölkəmizdə abunəçilərə innovativ xidmət və məhsullar təqdim edir. Şirkət qarşıdakı dövrdə bir sıra yeni məhsulları abunəçilərinin ixtiyarına verəcək.**

**"Bakcell" haqqında**

**"Bakcell" Azərbaycanın ilk və ən böyük özəl telekommunikasiya şirkətidir. Hazırda "Bakcell" üç milyondan çox müştərini yüksək keyfiyyətli və sürətli telekommunikasiya xidmətləri ilə təmin edir. Şirkət süni intellektə əsaslanan innovasiyalar və həllər vasitəsilə Azərbaycanın davamlı inkişafına töhfə verir və Azərbaycan iqtisadiyyatının qeyri-neft sektorunun ən böyük investorlarından biridir.**

**"Bakcell" müxtəlif ölkələrdə enerji, telekommunikasiya, yüksək texnologiyalar və tikinti sahələrində fəaliyyət göstərən "NEQSOL Holding" beynəlxalq şirkətlər qrupunun tərkibinə daxildir.**



**Şahnaz Şahin**

# QARA CİYƏRİNLƏ GÜLÜMSƏ

**Esse**

Imkanları hüdudsuz, vəzifəsi nəhəng beyin!.. Bir az kobud şəkildə bunu insanın bütün fiziksəl və zehinsəl həyatının asılı olduğu mükəmməl aparatı da adlandıra bilərik. Gözəgörünməyən fikirlərdən tutmuş hər şey bu incə aparatda analiz edilir, nəticə çıxarılır, qərarlar qəbul edilir. Əsrlərcə öyrənilməsinə baxmayaraq yenə də sirli qalan beynin adi halda çox cüzi bir hissəsindən istifadə edə bilirik. Bir film izləmişdim, şəxsin bədəninə məcburi yerləşdirilən və cüzi bir hissəsi dağılaraq qana keçən psixotrop maddənin təsirindən beyin yüksək işləmə fazasına keçid alır. Beyin aktivliyi yüksəldikcə insanda indiyədək gizli qalan bacarıqlar meydana çıxmağa başlayır, ağrı hissi yox olur, görmədən görə, eşidə bilir, ən nadir tibbi cihazların aşkar edə bilmədiyi xəstəliyi və onun fəsadını təyin edir. Yaddaşı son dərəcə güclənir, məsələn, bir neçə dəqiqədə qalın elmi əsərləri "oxuyub başa çıxır və yadda saxlayır... Sanki bir ömrü bir günə, bir neçə saata sığdırır və ən yüksək həddə cism olaraq əriyib yox olur...

Sevgili peyğəmbərimiz "təbəssüm də sədəqədir" deyirdi, salamı da təbəssümlə verməyi məsləhət görürdü, nakam şair M. Müşviq isə " Yazıq o şəxsə ki, qaraqabaqdır, nə gözəl yaraşır insana gülmək.." deyə insanları pozitiv olmağa, həyatı sevməyə səsləyirdi. Bəs nədir təbəssüm? O necə yaranır, nədən yaranır və özü nələri yaradır?..

Üz əzələlərinin mimik dəyişməsi olmazdan öncə, beynin işidir təbəssüm. Bir çox əməllərin sonucu olan daxili rahatlıq hissindən insanın içi də, çölü də şəfəqlənir. Təbəssüm qonur gözlərinə, dodaqlarına, dərisi belə bu zaman nur saçır.. Siz yuxuda gülümsəyən bir uşaq təsəvvür edin, heç bir qayğısı, fikri, narahatlığı olmayan, bəxtəvərcəsinə gülümsəyən bir uşaq... Böyüklər də belə gülümsəyə bilirmi!?..

Emosiyalar, onların orqanizmin işinə, insan sağlamlığına təsiri ta orta əsrlərdən öyrənilməyə başlamışdır. Qəzəb və kin qara ciyərin işinə mənfi təsir göstərir, öd kisəsində sıxılmalar yaradaraq ödün hərəkətini artırır, beləliklə həm də insanın immun sistemini zəiflədir.Sevinc duyğusu daxili sekreiya vəzilərində xoşbəxtlik hormonu sayılan serotonin ifrazını stimullaşdırır, bu zaman ürək və qan-damar sisteminin işinə ahəng qatır. Qorxu hissi böyrəkləri, narahatlıq mədə-bağırsaq sistemini zəiflədir, hiss-həyəcanın dalğası isə birinci ürəyi və qan-damar sistemini "vurur.." Kədər isə ağ ciyərlərin düşmənidir. Anam deyərdi ki, dərd dərdi, sevinc sevinci gətirər...

***Bir də görərsən ki, dağ döşündəsən,***
***Yığılıb üst-üstə dağ olub dərdin.***
***Kefinin kök vaxtı vecinə gəlməz,***
***Acığı tutanda şapalaq dərdin.***

***Atmaq istəyərsən, ürəyin gəlməz,***
***Satmaq istəyərsən, alıcısı yox.***
***Çiynini donnqardar, belini əyər,***
***Kömürdən seçilməz ağappaq dərdin...***

**(Ş.Ş)**

Əlbəttə, deyə bilərsiniz ki, bunlar hər biri insana aid hissdir və bunsuz keçinmək olmaz, düz düşünürsüz, mən də hamı kimi bu hava okeanında yaşayıram və saydığım hisslər mənə də aiddir. Amma mən bu duyğuların normadan artıq olmsının əleyhinəyəm. Gülümsəmək təkcə üzü gözəlləşdirmir, dərinin rəngini durultmur, həm də bu daxili rahatlıq, özünə inam yaradır. Təbəssüm insan üzünə yaraşan ən mükəmməl makiyajdır, bir şərtlə ki, o da daxildən gələ...

Təbəssümün yanından dahilər də səssiz ötüb keçməyib, onu hər biri öz bildiyi kimi dəyərləndirərək sevdirməyə çalışıb. Tolstoya görə təbəssüm Günəş işığına bənzəyir, Mövlana göz yaşlarının da sonrakı təbəssümün yollarını təmizlədiyini bildirir, Qrin fırtınalı göydə yaranan göy qurşağına bənzədir, Hüqo isə məsləhət görür ki, gülümsəmək üçün xoşbəxt olmağı gözləmək lazım deyil, düşünün ki, gülümsəmədən ölə bilərsiniz...

Şirin dil, saf təbəssüm insana həm də Allahın lütvüdür, acı dil, qaşqabaqlı adamla münasibət qurmaq da çətin olur. Elə bu cür adalmarın özləri də az əziyyət çəkmir bu müstəvidə. Kifayət qədər atalar misallarımız da var gülüş, təbəssüm barəsində:

-Şirindil adam beş evi yeyər, acıdil isə heç bir evi də yeyə bilməz.

-Canımı al, amma gülə-gülə.

Bir səmimi təbəssümlə dağ boyda dərdi əritmək olar... "Ferrarisini satan rahib" əsərində Robin Şarma gülüşü yüksək dəyərləndirir:

-" Gülmək ruhiun dərmanıdır, içindən gəlməsə belə, bir aynaya bax və bir neçə dəqiqə gül..,özünü xoşbəxt hiss edəcəksən." Lap elə o məşhur mahnıda deyildiyi kimi:

***.."Bir sevinc tap özündə,***
***Belə qəmli dayanma..."***

Atalardan qalma belə məsəl var, deyirlər sirkə tünd olarsa öz qabını çatladar. Qəzəbi, kin və nifrəti həmin sirkənin yerində təsəvvür edin, axı sirkə məcazi məna daşıyır! Ətrafına yaydığı mənfi enerji payı bir yana, ilk ziyan çəkən də elə insanın özü olur, öz bədən orqanlarına dəyir zərbə... Amma sağlam gülüş və saf təbəssümlə həm özünü, həm də ətrafında olan insanları qoruya bilər.

Təbəssüm də musiqi kimidir, şeir kimidir, dinlədikcə yüngülləşirsən, yamyaşıl budağıdır həyatın, təptəzə pöhrəsidir ağacın, yazda ilk gözə dəyən qızılgül tumurcuğudur... dinləyin, qoruyun, qoxlayın... Bütün ürəklərə düşən tək açardır təbəssüm, icazə gözləmədən keçib əyləşə bilərsiniz...

Hərdən lap "Həmin o Münhazen" filmindəki məşhur ifadəni xatırlayın və "gülümsəyin, cənablar, gülümsəyin..!"

Bəlkə xətrinizə dəyən olub, əşşi unudun getsin! Stresləri, sıxıntıları menyunuzdan çıxarmağa çalışın, bir neçə dəqiqəlik təkliyə çəkilin, özünüzlə danışın, özünüzü dinləyin.., bəlkə elə o, sizə bu məşhur sözləri pıçıldayır:

***"Mən bilirəm xatirinə dəyiblər,***
***Unut mənim xatirimə, gül bir az.."***

Hamı xoşbəxt olmaq istəyir, qəmi, kədəri sevmir, amma göy qurşağı yağış yağmadan olurmu!?..Ətrafınıza keçilməz hasarlar çəkməyin, özünüzü xoşbəxt olmaqdan çəkindirməyin, xoşbəxt olmaqdan, bəxtəvər görünməkdən qorxmayın, gülümsəyin.. Bütün əzalarınızla, lap elə qara ciyərinizlə gülümsəyin..., gülümsəyin.., gülümsəyin...

# Azərbaycana növbəti partiya meymunçiçəyi testləri gətiriləcək

**Azərbaycan Respublikası Səhiyyə Nazirliyinin tabeliyində "Səhiyyənin Təminat Mərkəzi" Publik Hüquqi Şəxsi meymunçiçəyi (MONKEYPOX ) virusunun aşkarlanması üçün PCR kitləri satın alır.**




Adalet.az xəbər verir ki, 5000 dəst PCR dəstinin, yaradan nümunə götürmək üçün 3000, burun/boğaz sahəsindən nümunə götürmək üçün 5000 ədəd virus daşıyıcı tübün, eləcə də virusların nukleyin turşusunun avtomatik üsulu ilə isolasiyası üçün 5000 dəst reagentin gətirilməsi nəzərdə tutulub.

Qurum dəstlərin çatdırılması işlərini "Labservis LTD" Məhdud Məsuliyyətli Cəmiyyətinə həvalə edib və onunla dəyəri 106.554 AZN (106 min 554 manat) olan müqavilə bağlayıb.

# Azərbaycançılıq ideyasının təbliği

№ 42 (2416) 8 noyabr 2024-cü il

Azərbaycan Respublikasının Medianın İnkişafı Agentliyi



# HEÇ BİR MİLLƏTDƏ OLMAYAN DƏYƏRLƏR

**Milli dəyərlərin zənginliyi heç də hər hansı ölkənin böyüklüyü və kiçikliyi ilə ölçülmür. Çünki milli dəyərlər hər bir xalqın mədəniyyəti, tarixi və əxlaqıdır. Təbii ki, uzun illər bu dediyimiz dəyərləri qorumaq heç də hər millətə, hər xalqa qismət olmur. Ən azından ona görə ki, hansısa xalq kiminsə təcavüzünə məruz qalanda istər-istəməz bu dəyərlər itir və onun yerini təcavuz edən millətin mədəniyyəti, dəyərləri tutur.**

Təbii ki, Azərbaycan da uzun müddət yadellilərin işğalına məruz qalıb. Ərəblərin, monqolların, farsların, lap elə rusların təsiri altında olmuşuq. Düzdür, onların müəyyən adət-ənənəsi və İslami dəyərləri bizə sirayət edib, amma heç vaxt heç bir təcavüzkar, heç bir işğalçı bizim mənəvi, əxlaqi dəyərlərimizi əlimizdən ala bilməyib. Çünki xalqımız həmişə öz qanı, həyatı bahasına olsa da o mənəvi dəyərləri qoruyub saxlamağı bacarıb. Təsəvvür edin ki, latın xalqının dövləti də məhv olub, dili də. Sadəcə olaraq, onların əlifbası qalıb və bu əlifba da onları az da olsa tarixdə yaşadır və kimliyini müəyyənləşdirir.

Dünyada heç bir xalq bizim qədər, daha doğrusu, azərbaycanlılar kimi başqa millətə və başqa xalqlara hörmətlə və məhəbbətlə yanaşmayıb. Niyə uzağa gedirik, elə bizimlə düşmənçilik edən Ermənistanı götürək. Orda indi ermənilərdən savayı heç bir millət və xalq qalmayıb. Qalsa da çox az miqdarda qalıb və onların da dili, mədəniyyəti, mənəvi dəyərləri ermənilər tərəfindən məhv edilib. Hətta qədim alban abidələrini ermənilər öz adlarına çıxarır və dünyaya erməniləri ən qədim tarixə malik millət kimi təqdim edir. Aydındır ki, onlar da özünü sevməkdən, başqa sözlə demiş olsaq, faşist ideologiyasından başqa bir şeyə xidmət etmir.

Bu gün dünyanın gözü Ermənistanda deyil, Azərbaycandadır. Çünki Azərbaycan öz bəşəri, multikultural dəyərləri ilə dünyaya həmişə müsbət bir mesaj göndərir. Bu müsbət mesaj da ondan ibarətdir ki, Azərbaycançılıq ideyası dünyanı sevmək, başqa xalqların dilinə, dininə və adət-ənənəsinə hörmət etməkdən ibarətdir. Adətən özündən razı olan Avropa dövlətləri özlərindən başqa digər xalqları sevmirlər. Yalnız özlərinin tarixini, mədəniyyətini, musiqisini, milli dəyərlərini digər ölkələrə sırımaq istəyirlər və bəzən buna nail olurlar da. Amma gəlin onunla razılaşaq ki, mübariz xalqlar bu cür ziyanlı addımlara imkan vermir, özünün milli-mənəvi dəyərlərini qorumağı bacarır. Məhz Azərbaycan da belə bir mövqe tutub, öz mədəniyyətini, milli dəyərlərini dünyanı sevə-sevə onlara təbliğ edir. Azərbaycana bir dəfə gələn hər hansı əcnəbi görür ki, heç də bizim xalq ermənilərin dediyi kimi, pis millət deyil.



Azərbaycan dünyanın ən ləyaqətli, ən şərəfli, xalqını və millətini sevən bir ölkədir. Təsadüfi deyildir ki, müstəqillik dövrünə qədəm qoyandan sonra Ulu Öndər Heydər Əliyevin apardığı məqsədyönlü xarici siyasət nəticəsində Azərbaycançılıq ideyası dünyaya daha geniş təbliğ edildi. Bu ideya Prezident İlham Əliyev tərəfindən də uğurla davam etdirildi. Və demək olar ki, bu gün də davam edir. Bayaq dedik axı, Azərbaycana yolu düşən hər hansı bir xarici vətəndaş Bakıda və digər rayonlarda olanda xalqımızın necə böyük ürəyə və əmələ sahib olduğunun şahidi olurlar. Çünki onlar görürlər ki, dünyanın heç bir yerində olmayan qonaqpərvərlik, diqqət və qayğı məhz onlara göstərilir. Təbii ki, həmin əcnəbilər də ölkəmizdə bu sevgini və bu məhəbbəti görəndən sonra istər-istəməz vətənlərinə qayıdanda gördüklərini öz doğmalarına danışırlar.

Ermənilər Azərbaycan torpaqlarını, şəhərlərini, kəndlərini, qəsəbələrini işğal edəndə daşı daş üstə qoymadılar. Hətta qəbiristanlıqlarımızdakı qara mərmər daşlarını sökərək apardılar. Amma bununla da kifayətlənmədilər, bəzi məzarları açdılar və ordakı cəsədlərdən qızıl diş axtardılar. Sonra da məzarları buldozerin qabağına verib hamısını dağıtdılar və orda taxıl əkdilər. Çörək onları tutsun, dünyanın heç bir xalqı müharibə etdiyi dövlətin qəbiristanlıqlarını belə viran günə qoymayıb. Amma çox uzağa getməyək, Xankəndi, Şuşa, Xocavənd, Xocalı, Əsgəran və ermənilərin digər yaşadıqları şəhər və qəsəbələr ordumuz tərəfindən işğaldan azad ediləndən sonra onların müqəddəs yerlərinə, kilsələrinə, monastırlarına, qəbiristanlıqlarına belə toxunulmadı. Yekəyekə danışan ermənilərin keçmiş prezidentləri Robert Köçəryan və Serj Sərkisyanın qohumlarının da Xankəndidəki qəbiristanlıqda məzarları var. Bizimkilər də istəsəydi qisas almaq üçün onların doğmalarının qəbirlərini dağıdardı. Amma Azərbaycan xalqı qisası döyüş meydanında alır, ölülərlə, tarixi abidələrlə heç bir işi olmur. Əksinə, o tarixi abidələri və qəbiristanlıqları mühafizə edir. Görəsən, ermənilər bunu görüb heç utanırmı? Çətin ki, onlarda utanan sifət olsun, çünki insanlıq sifətini itirmiş, vəhşi heyvandan da betərdir, ermənilərin nə arı, nə də namusu var.

Bir həftədən sonra Azərbaycanda çox möhtəşəm bir beynəlxalq tədbir COP-29 keçiriləcək. Bu tədbirdə yüz minə yaxın insan iştirak edəcək. BMT-nin baş katibi və eləcə də neçə-neçə ölkənin prezidentləri, baş nazirləri bu tədbirin qonağı olacaq. Çünki bu tədbirdə dünyanı quraqlıqdan, ekoloji fəlakətdən, müharibələrdən xilas etməyin yolları axtarılacaq. Təbii ki, bu yollar gec-tez tapılacaq, amma əsas məsə odur ki, Azərbaycan bu cür möhtəşəm beynəlxalq tədbirə qucaq açır və özünün bir daha dünyəvi, bəşəri dəyərlərə sadiq olduğunu əməli işiylə təsdiq edir.

**Təsdiq edir ki, Azərbaycan kiçik dövlət olduğuna baxmayaraq, dünya siyasətində və iqtisadiyyatında öz sözünü deməyi bacaran bir ölkədir. Çünki bu ölkənin müstəqilliyini Ulu Öndər Heydər Əliyev və Prezident İlham Əliyev daha da möhkəmləndirərək dünya səviyyəsinə yüksəldib. Onlar göstərib ki, Azərbaycan 30 ildə başqa ölkələrin yüz ildə inkişafına nail ola bilməyən bir yolu keçib. Bu yol isə elə də asan olmayıb. Çünki bu yolda bizdən xoşu gəlməyən dövlətlər badalaq atıblar, ancaq yıxa bilməyiblər. Ona görə yıxa bilməyiblər ki, Azərbaycan çox zəngin mədəniyyətə, tarixə və adət-ənənələrə malikdir!**

**EMİL FAİQOĞLU**

AZƏRBAYCAN RESPUBLİKASININ
MEDİANIN İNKİŞAFI AGENTLİYİNİN MALİYYƏ YARDIMI İLƏ

# Teatrın bölgə səfərləri

**Naxçıvan Dövlət Mili Dram Teatrının kollektivi üçün cari ilin oktyabr ayı da uğurlu və yaddaqalan oldu. Bu, həmişə kütləvi tamaşaçı axını ilə müşaiyət olunan doğma teatr səhnəsi ilə məhdudlasmadi. Uğurun miqyası cografi baxımdan da geniş areali əhatə etdi. Belə ki ,rəngarəng mövzulu zəngin repertuarı ilə tamaşaçıları sevindirən yaradıcı kollektiv ötən ay da bölgə teatrsevərlərini unutmadı.**

Regionun bölgələrinə səfər edərək tamaşaçılarına mədəni- mənəvi, estetik zövq yaşatdı. Həm də repertuarda rəğbət qazanan , maraqlı süjet xətti olan, dramatik çalarlari ilə tamasaçını düşünməyə sövq edən səhnə əsərləri ilə. Belə əsərlərdən biri teatrin öz səhnəsində böyük coşquyla , rəğbətlə qarşılanan " Qatarın altına atılan qadın" tamaşası idi.

Bu maraqlı tamaşa oktyabr ayinin birinci yarısında ardıcıl olaraq Sədərək, Şərur, Kəngərli, Culfa ,Ordubad rayonlarında tamaşaçılara təqdim olunub.?uzlərlə tamaşaçı sayı isə bu səhnə əsərinin mədəni hadisə kimi hər yerdə rezonans doğurduğu qənaəti yaradıb. Bu da təsadüfi deyildi. Cünki, müəllifi muasir Azərbaycan ədəbiyyatının öncül simalarından olan tanınmış yazıçı Afaq Məsud olan bu pyes orijinal süjet xətti, dərin ideya məzmun dəyəri ilə seçilən bir əsərdir.

Əsərdə hadisələr bütün həyatını sənətə həsr edən bir aktrisanın faciə ilə sonlanan ömür yolundan bəhs olunur.Maraqli məqam həm də odur ki, tamaşada cərəyan edən hadisələr dramatikliyi, gərgin situasiyaları ilə tamaşaçını həyəcanlandırır, sonrakı bas verəcəklərin intizarında saxlayir... Bu nüans quruluşçu rejissor Əlisahib Cəlilovun uğurlu təxəyyül yozumunda mükəmməl həllini tapıb. Onun cəmiyyət və sənətkar probleminin çözum üsulu, eləcə də, obrazları mükəmməl canlandıran əməkdar artistlər Nazlı Hüseynqiyevanın, Behruz



Haxverdiyevin, Əli Əliyevin peşəkar oyun ustalıqları. peşəkar aktyorlar Zakir Fətəliyev, Ləman Vəliyeva, Nurlan Sultanlı və başqalarının mükəmməl ifa tərzləri tamaşanın uğurlu alınması, alqışlarla qarşılaması ilə nəticələnib.

Yaradıcı kollektivin Şahbuz səfəri də səmərəli olub. Oktyabrın sonunda Şahbuzlu teatrsevərlərə təqdim etdikləri." Edama məhkumun son günü" tamaşası da rəğbətlə qarşılanıb. Dahi yazar Viktor Hüqonun dərin psixoloji məqamları ehtiva edən bu əsəri rejissor Mir Qabil Əkbərovun özünəməxsus bədii- fəlsəfi çalarlarla quruluş verdiyi tamaşada ölüm anında insanin keçirdiyi acı sarsıntının əzab məqamlarini dolğunlugu ilə əks etdirir. Edam hökmünün faciəvi qanun olduğunu tamasaçıya aşılamaqla onları düşünməyə sövq edir.

Bu mənada baş rolu canlandıran Naxçıvan Muxtar Respublikasının əməkdar artisti Səməd Canbaxsıyevin istedad və peşəkarliği da öz sözünü deyir.Onun, eləcə də ,aktyorlardan Məmməd Mehdiyevin, Uğur Nəsirlinin məharətli ifaları tamaşaçıya edam hökmünün rəzil bir qanun olduğunu təlqin edir. İslah etməyin alternativ yollarının tətbiqinə aciz olan bir mühitdə edamın insanların mənəvi sarsıntılarına da yol açır. Yəni əsərdə bu iyrənc hökmün öləcəyini dərk edən məhkumun qorxu sindiromunda yaşadığı psixoloji hisslər, eyni zamanda onun doğmalarının da mənəvi zərbələr aldiğini göstərir.

**Bütün bu uğurlar teatrda yaradıcı, sağlam mühitin gostəricisidir. Bu mədəniyyət ocağının köklü ənənələrini davam etdirən kollektivin xalqa mədəni, mənəvi xidməti əsas amal kimi qəbul etmələri təqdirəlayiqdir. Təkcə oktyabr ayında 15 tamaşa nümayiş olunmus və bu tamaşalara yüzlərlə tamaşaçı cəlbi də uğurlu fəaliyyətin nəticəsidir. Yolunuz açıq , məramınız uğurlu olsun.**

**Adilə Səfərova**
**Teatrşünas,**
**əməkdar mədəniyyət işçisi**

---

### *Könül Kərimova:*
### *"Bu sözü həzm edə bilmərəm"*



**Könül Kərimova ilə gənc ifaçı arasında qalmqal yaşanıb.**

Adalet.az xəbər verir ki, o, gənc ifaçının "Yar başına dönüm sənin" nəğməsini ifa etməsini bəyənməyib:

"Bir məkanda idim orda hər kəs mənə deyir ki, Könül xanım, Anar Qasımzadə sizin mahnınızı ələ salıb. Bu sözü həzm edə bilmərəm mən.

Mən müasirliyi də bilirəm, fərqli aranjmanı da anlayıram. Ancaq burda ifa tərzi çox pisdir. Mən indi bilirəm ki, bəstəkarlar nələr çəkir. Mahnını o dərəcədə ələ salmazlar".

### *Afət Fərmanqızı:*
### *"Sənət dostlarmı qısqanır"*



**Son zamanlar həyat yoldaşı ilə ayrılmağına görə gündəmdə olan Afət Fərmanqızı məsələyə aydınlıq gətirib.**

Adalet.az bildirir ki, müğənni keçmiş həyat yoldaşını yersiz qısqanclıqda qınayıb:

"Mən müğənniyəm. O məni səhnədə görüb bəyənib. Məsciddə görməyib ki, mühafizəkar qaydalar qoysun. Mən ilahiyyat müəllimi deyiləm ki, müğənniyəm. Toyda oxuyuram.Səhnəyə uyğun geyinirəm.

Sənət yoldaşlarımın mesajlarını qısqanr. Bunu normal qəbul etmirəm. Mən düzgün adamam, kim də bunu çətin adam kimi qəbul edirsə, etsin".

### *Türkan Vəlizadə:*
### *"Sinif yoldaşlarım məni sevmirdilər"*



**Müğənni Türkan Vəlizadə məktəb illərini xatırlayıb. Adalet.az xəbər verir ki, o, daha çox sinif yoldaşlarından gileylənib:**

"Dərslərimi yaxşı oxumuşam. Məsuliyyətli şagird idim. Yaxşı oxuyurdum, sinif nümayəndəsi idim.

Hətta müəlliməm mənim müğənni olduğumu biləndə təəccübləndi ki, səni başqa səhələrdə görürdüm. Nə əcəb müğənni oldun.Ancaq sinif yoldaşlarım mənimlə dostluq etmirdilər. Məni sevmirdilər. Nərmin adında sinif yoldaşım vardı, bircə o, çox istəyirdi məni. Düşünürəm ki, kasıb olduğuma görə məni özlərinə yaraşdırmırdılar".

### *Canan qəzəbləndi:*
### *"Axı sən kimsən"?!*



**Müğənni Canan həmkarı ilə qalmaqal yaşayıb. Adalet.az bildirir ki, müğənni həmkarı İbrahim Borçalıya qəzəbləndiyini bildirib:**

"Onunla yaxın münasibətim yoxdur. Yalnız bir dəfə konsertdə qarşılaşmışıq. Zəng rdib efirlərin birinə deyib ki, Cananı efirə dəvət etməyin. Etsəniz də qarşılığında ondan pul alın. İndi mənə maraqlıdır. Axı sən kimsən ay İbrahim? Sənin mənimlə nə qərəzin var?! Mən qadınam, sən kişi. Gərək kişi kişi kimi hərəkət etsin"!

**Əntiqə**

---

**İslam dünyasına , müsəlmanlara nifrəti ilə seçilən Hindistanın Baş naziri Narendra Modinin hakim Bharatiya Canata partiyası Hindistanda anti -müsəlman olması ilə tanınır. Xatırlayırsınızsa, 2022-ci ildə Hindistanın hakim radikal millətçi "Bxaratiya Janata" (BJP) partiyasının rəsmiləri tərəfindən islam dininə qarşı və Məhəmməd peyğəmbərlə bağlı təhqiramiz ifadələr işlədilməsi nəinki ölkədə eləcə də bölgədə növbəti iğtişaşların təməlini qoydu.**

Belə ki, Hindistanın Baş nazir Narendra Modi və partiyasının 2014-cü ildə hakimiyyətə gəlməsindən sonra müsəlmanlara qarşı pis rəftarın sayı artıb .Onun "Hindistan hindusler üçün" şüarından sonra Hindistanda iqtidarda olan "Bharatiya Canata" Partiyasının Yaşpal Suvarna ölkədə ictimai yerlərdə hicabın yasaqlanmasını tələb etdi.

Bundan başqa islam əleyhinə olan partiyadaşları da müsəlmanlara qarşı nifrətlərini tez-tez ortaya qoyublar.

Adalet.az xəbər verir ki, məşhur Bollivud ulduzu, "Bharatiya Canata" Partiyasının liderlərindən olan Mitxun Çakraborti Hindistanın daxili işlər naziri Amid Şahın yanında müsəlmanları hədəfə alan çıxış edib . O çıxışı zamanı qəzəblə müsəlmanları hədələyib:Sizi tikə-tikə doğrayıb cəsədlərinizi çaya deyil, tor-

## *İyrənc irqçi Mitxun Çakrabotinin müsəlmanlara nifrəti:*
## *"Sizi kəsib basdıracağıq"*



paqlarınıza atacağıq. Biz hər şeyə, tamamilə hər şeyə hazırıq! Mən bunu daxili işlər nazirinin özünün qarşısında deyirəm!" Aktyordan siyasətçiyə çevrilmiş Mithun Çakraboti dini inancına görə hindusdur və böyük bir müsəlman toplumunu nifrət nitqi ilə hədələdiyinə baxmayaraq həleki istintaqa cəlb edilməyib.

Xatırladaq ki, 2022-ci ilin İyun ayında Hindistanı idarə edən hindus rəsmilərdən biri, hakim partiyanın sözçüsü Naveen Kumar Jindal Twitter-də Məhəmməd peyğəmbəri təhqir edən paylaşımı böyük reaksiya aldı.

Daha sonra Hindistanın Heydərabad şəhərində hakim Bharatiya Janata Partiyasının parlamentdəki deputatı Zakur Raca Sinq Məhəmməd Peyğəmbərin ünvanına təhqiramiz ifadələr işlətdi və video yayımladı...Ona etiraz olaraq əhali şəhərin bir çox yerlərində piketlər keçirdi.

Hindistanın Uttar Prades əyalətində İslam və Hz. Məhəmmədi təhqir edənlərə etiraz edən 3 müsəlmanın evi buldozerlərlə dağıdıldı. Hindistan polisinin müsəlman gənclərə qarşı zorakılığını əks etdirən videolar ortaya çıxdı.

Bu ilin yanvarında isə Modi Ayodhya şəhərində qədim məscidin xarabalıqlarının yerində Rama tanrısına həsr olunan Ram Mandir hindu məbədi inşa etdirib.

Qeyd edək ki, 2026-cı ildə Qərbi Benqaliyada Məclis seçkiləri keçiriləcək. Oradan seçiləcək müsəlman namizədlər məşhur aktyor belə hədələyib. Yeri gəlmişkən, Qərbi Benqaliya Hindistanın şərqində böyük bir ştatdır. Paytaxtı və ən böyük şəhəri Kəlküttədir. Əhalisi 91 347 736 nəfərdir.

1947-ci ildə Britaniya əsarəti bitdikdən sonra Hindistanının parçalanması baş verdi. Daha sonra Benqaliya dini cərəyanlar üzrə bölündü. Bölgənin qərb hissəsi Hindistana (Qərbi Benqal deyilir), şərq hissəsi Pakistana Şərqi Benqal (daha sonra Şərqi Pakistan adlandırıldı) adı verilən bir vilayət olaraq birləşdirildi. Şərqi Pakistan 1971-ci ildə Banqladeş adlı müstəqil bir dövlət oldu. Benqaliyanın bölünməsi bir çox sosial-iqtisadi, siyasi və etnik problemlərin yaranmasına səbəb oldu.

**Əntiqə Rəşid**

---

**Abudova Vəfa Nadir qızının adına verilmiş əmək kitabçası itdiyi üçün etibarsız sayılır.**

---

Sona Çərkəz əzizləri **Badam və Məmmədə** anaları

**Şairə xanımın**

vəfatından kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verir.

---

Asim Yadigar, Akif İmanlı, Fərəc Fərəcov, Zəkulla Bayramlı, Allahverdi Aqil, İbrahim Yusifoğlu və Əbülfət Mədətoğlu **Məmməd Tahirə** oğlu

**Tariyelin**

vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.


**Təsisçi və baş məsləhətçi:**
**Aqil ABBAS**

**Baş redaktor:**
**İradə TUNCAY**

Qəzet "Ədalət" qəzetinin bilgisayar mərkəzində yığılıb səhifələnmiş və "Son dakika" MMC Nəşriyyatında ofset üsulu ilə çap edilmişdir.

Müəlliflərin mövqeyi ilə redaksiyanın mövqeyi üst-üstə düşməyə bilər.

**KAPİTAL Bankın 1 saylı Nəsimi rayon filialı.**
kod: 200112 h\h
Müxbir hesab: 0137010001994
S.W.I.F.T. Bik: AIIBAZ 2xhesab N: 38070019411100451111 VÖEN: 1300456161
**İndeks:0107 Qeydiyyat nömrəsi 100**

Ünvan: Bakı AZ.1073 Mətbuat prospekti, 529-cu məhəllə, "AZƏRBAYCAN" nəşriyyatı, 6-cı mərtəbə.
**Telefon: 538-05-50, 538-51-31. 534-55-98 Faks: 539-80-26**
**adaletqezeti@rambler.ru**
**adaletqezeti@mail.ru, adaletqezeti@box.az**

**Tiraj: 1500**
**Sifariş: 204**
Çapa imzalanmışdır: 07.11.2024